**AZƏRBAYCAN SSR ELMLƏR AKADEMİYASI TARİX İNSTİTUTU**

**F. M. ƏLİYEV**

# XVIII ƏSRİN BİRİNCİ YARISINDA AZƏRBAYCANDA TİCARƏT

Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı
Bakı - 1964

Azərbaycan SSR Elmlər Akademiyası
Redaksiya-Nəşriyyat Şurasının qərarı ilə
çap olunur.

Redaktorları: tarix elmləri doktoru, H. B. Abdullayev.
Tarix elmləri namizədi Ə. Ə. Rəhmani

# GİRİŞ

XVIII əsrin birinci yarısı Azərbaycan tarixinin ən az öyrənilmiş sahələrindən biridir. Doğrudur, həmin dövrün ayrı-ayrı məsələlərinə bir sıra elmi-tədqiqat əsərlərində toxunulmuşdur[1]. Lakin bu məsələlərin əksəriyyəti ümumi şəkildə qoyulmuş, bu və ya digər məsələnin ayrılıqda həllinə xüsusi yer verilməmişdir. XVIII əsrin birinci yarısında Azərbaycan şəhərlərinin iqtisadi vəziyyəti, daxili və xarici ticarəti haqqında hələ çox az yazılmışdır. Halbuki XVIII əsrin birinci yarısında Azərbaycanın başqa ölkələrlə, xüsusilə Rusiya dövləti ilə ticarət əlaqələri gələcəkdə Azərbaycan xalqının taleyində mühüm rol oynayan amillərdən biri olmuşdur.

Qeyd etmək lazımdır ki, XVIII əsrin birinci yarısı bu günə kimi Azərbaycan tarixində «dərin tənəzzül dövrü»[2] kimi qələmə verildiyi üçün, görünür, bir çox tədqiqatçılar bu tənəzzül dövrünün iqtisadi həyatını, o cümlədən Azərbaycanın başqa ölkələrlə ticarət münasibətlərinin öyrənilməsini lazım bilməmişlər.

İlk baxışda, həqiqətən, iqtisadi tənəzzül və siyasi böhran keçirən bir ölkənin iqtisadiyyatından, xüsusilə ticarətindən ayrılıqda danışmağa dəyməz. Lakin həmin dövrə aid olan bir sıra arxiv sənədlərini və digər mənbələri dərindən öyrəndikdə əyani surətdə müşahidə etmək mümkündür ki, bu dövrün nəinki ticarətini, hətta bir çox ictimai-iqtisadi xarakterli məsələlərini ayrılıqda tədqiq etmək mümkündür və bu məsələlər tədqiqat gündəliyində əsas yerlərdən birini tutmalıdır.

Oxuculara təqdim edilən bu əsərdə XVIII əsrin birinci yarısında Azərbaycanın sənətkarlıq və ticarət mərkəzlərindən, daxili, xarici və tranzit ticarətinin xarakterindən, habelə Azərbaycan ticarətinin beynəlxalq əhəmiyyətindən danışılır. Lakin qeyd etmək lazımdır ki, əsərdə mövzu ilə əlaqədar olan ticarətin bütün məsələlərini əhatə etmək məqsədi qarşıya qoyulmamışdır. Onları geniş tərzdə, belə kiçik həcmli əsərdə toplamaq da mümkün deyildir.

Məlum olduğu kimi, XVIII əsrin birinci yarısında Azərbaycan uğrunda Rusiya, Türkiyə və İran dövlətləri arasında aparılan mübarizə ən nəhayət ölkə daxilinə hərbi müdaxilə ilə nəticələnmiş və Azərbaycan ərazisi həmin dövlətlər arasında bölüşdürülmüşdür[3]. Bu dövlətlərdən İran və Türkiyə Azərbaycana soxulduqları zaman şəhər və kəndləri xaraba qoyub, xalqın var-dövlətini qarət

[1] И. П. Петрушевский. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI - нач. XIX вв., Л., 1949; В. Н. Левиатов. Очерки из истории Азербайджана XVIII в., Баку, 1948.

[2] И. П. Петрушевский. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI - нач. XIX вв., Л., 1949; səh. 86.

[3] Bu barədə ətraflı surətdə bax: А. Абдуррахманов. Азербайджан в русско-иранско-турецких отношениях в первой половине XVIII в., Баку, 1964 г,; В. П. Лысцов. Персидский поход Петра I (1722—1723 гг.), М., 1951; В. Н. Левиатов. Göstərilən əsəri, səh. 74 və b.

edərək taladıqları halda, Rusiya hökuməti qoşunlarına qarətlə məşğul olmağı qəti surətdə qadağan etmişdi.

Şübhəsiz, bu da təsadüfi deyildi. Doğrudur, Rusiya Xəzər boyu vilayətləri çoxdan ələ keçirmək niyyətində idi. I Pyotr Azərbaycanın Xəzər boyu əyalətlərinə yürüş təşkil edərkən rus qoşunlarının daxil olduqları şəhərlərdə əhalini sıxışdırmaq və narazı salmamaq haqqında rus zabit və soldatlarına əvvəlcədən ciddi təlimat vermişdi. I Pyotr Xəzər boyu əyalətləri tutmaqla əslində başlıca olaraq iki məqsəd - həm siyasi və həm də iqtisadi məqsəd güdürdü. Odur ki, Rusiya tərəfindən zəbt edilən yerlərdə vaxtı ilə feodal müharibələri zamanı dağıdılmış bir çox tikintilər - karvansara va qala divarları rus qoşunlarının iştirakı ilə bərpa olunmuş, yerli tacirlərlə ticarət əlaqələri davam etmiş və hətta bu əlaqələrin daha da möhkəmləndirilməsi üçün bir sıra tədbirlər həyata keçirilmişdir. Məhz buna görə də təsadüfi deyildir ki, rus arxivlərində öyrənilən dövrə aid olan bir çox sənədlərdə Azərbaycanla Rusiya arasındakı münasibətlərdən bəhs olunarkən başqa məsələlərə nisbətən, ticarət məsələlərinə daha çox yer verilmişdir. Həmin arxiv sənədləri Azərbaycanın qonşu ölkələr və xüsusilə rus dövləti ilə ticarət əlaqələrini işıqlandırmaq sahəsində zəngin mənbə kimi qiymətləndirilməlidir. Rus arxivlərində saxlanılan bəzi sənədlər, hətta daxili ticarəti tədqiq etməkdə də müəyyən elmi əhəmiyyət kəsb edir. Azərbaycanın XVIII əsr ticarət məsələlərinə aid olan materiallarının əksəriyyəti Həştərxan Vilayət Dövlət arxivindo (QAAO), Rusiyanın xarici siyasət arxivində (AVPR), qismən də Qədim aktların Mərkəzi Dövlət arxivində (ÇQADA), Mərkəzi Dövlət hərbi-tarixi arxivində (ÇTVİA) və digər arxivlərdə saxlanılır. Təəssüf ki, respublikamızın arxivlərində həmin dövrün ticarət məsələlərinə aid olan sənəd demək olar ki, hələ əldə edilməmişdir.

Azərbaycanın XVIII əsr xarici və tranzit ticarətinə dair materiallarının mərkəzi rus arxivlərində və həmçinin Həştərxan arxivində olmasını nə ilə izah etmək olar?

Məlum olduğu kimi, XVIII əsrdə Rusiya dövlətinin Xəzər dənizində fəaliyyətinin artması bilavasitə həm hərbi strateji nöqteyi-nəzərdən böyük əhəmiyyət kəsb edir, həm də ticarət məsələləri ilə sıx surətdə bağlı idi. Artıq XVIII əsrin 20-ci illərindən başlayaraq Rusiya dövləti İranda[4] ticarət edən və buradan böyük gəlir və mənfəət əldə edən, eyni zamanda yerli hakimlər tərəfindən sıxışdırılan rus tacirlərinin mənafeyini qorumaq və ticarət əlaqələrini qaydaya salmaq və möhkəmlətmək məqsədi ilə İranda öz konsulxanasını təsis etmişdi[5].

---

[4]Həmin dövrdə Azərbaycan inzibati cəhətdən Səfəvi İran dövlətinin vilayətlərindən birini təşkil edirdi. Buna görə də Qərbi Avropa dövlətləri və eləcə də Rusiya Azərbaycanı İran adlandırırdı.

[5] В. А. Уляницкий. Русские консульства за границей в XVIII, I hissə, M., 1899, səh. 205; В. Комаров. Персидская война 1722— 1725 гг. приложение, «Русский Вестник», т. 68, 1867, səh. 553.

Belə konsulxanalardan biri də filial şəklində 20-ci illərdə Şamaxı şəhərində təsis edilmişdi[6]. Həmin vaxtdan etibarən Azərbaycan şəhərlərində olan rus məmurları ticarətin vəziyyəti haqqında Rusiya Xarixi İşlər və Ticarət Kollegiyalarına, Həştərxanın qubernatoruna bir sıra siyasi məsələlərlə yanaşı, Azərbaycanda ticarətin nə kimi vəziyyətdə olması haqqında da tez-tez məlumat verirdilər. Digər tərəfdən 1722-ci ildən başlayaraq Azərbaycanın Xəzər dənizi boyunca yerləşən əyalətləri Rusiya dövlətinin himayəsi altına keçdikdən sonra Azərbaycanın vəziyyətinə dair Rusiyaya göndərilən yazılı məlumatların sayı daha da çoxaldı. Məhz buna görə də Moskva, Leninqrad və Həştərxan şəhərlərinin arxivlərindən Azərbaycana aid olan bir çox dəyərli faktik materiallar tapmaq mümkündür. Bəlkə də siyasi və iqtisadi məsələlərə dair Rusiyadan da Azərbaycana müxtəlif xarakterli məktub və s. yazılar göndərilmişdir. Lakin o zaman Azərbaycan vahid dövlət olmadığı üçün onun vahid siyasi mərkəzi də yox idi. Çox güman ki, həmin məktublar da belə bir şəraitdə itib batmışdır.

Azərbaycana aid olub Həştərxan arxivində saxlanılan materiallardan ilk dəfə elm aləmində prof. H. B. Abdullayev «XVIII əsrin ikinci yarısında Şimali-şərqi Azərbaycan və Rusiya» adlı irihəcmli monoqrafiyasını yazarkən istifadə etmişdir. Prof. H. B. Abdullayev bu materialların bir qismini, yəni XVIII əsrin ikinci yarısına aid olan materialları təhlil etmişdir. Həştərxan arxivinin XVIII əsrin birinci yarısına aid olan materiallarından ilk dəfə olaraq bu kitabda istifadə olunur. Doğrudur, həmin arxivdən rus-erməni ticarət münasibətlərinə dair namizədlik dissertasiyası yazan A. Yuxt da istifadə etmişdir. Lakin A. Yuxtun çap olunmuş məqaləsindən müəyyən etmək olar ki, o, əsas etibarı ilə Həştərxan şəhərində ticarət edən erməni tacirlərindən və Həştərxandakı erməni koloniyasından bəhs etmişdir[7]. Burada isə Həştərxan arxivinin bilavasitə Azərbaycana aid olan materiallarından istifadə etməklə həm xarici və həm də tranzit ticarətə aid olan məsələləri işıqlandırmağa cəhd edilmişdir.

Həştərxan Vilayət Dövlət arxivindən əldə edilmiş materiallardan daha xarakterik sənədlər kimi aşağıdakıları göstərmək olar: «Həştərxan quberniya və dəftərxanasından Rusiyanın yuxarı şəhərlərində ticarət etmək üçün gedən Bakı və Salyan tacirlərinin siyahısı. 1729-cu il»[8], «Əvvəllər Rusiyada saxlanılmış bakılıların və farsların Bakı və Gilan əyalətlərinə buraxılması haqqında imperator II Pyotrun fərmanı»[9], «Gilan karvansarasında yaşayıb rus təbəəliyinə keçmək arzusunda olan tatarların (azərbaycanlıların - F. Ə.) sayı haqqında məlumat»[10] və s. Axırıncı sənəd həmçinin rus-Azərbaycan münasibətlərini tədqiq etmək sahəsində

---

[6] В. А. Уляницкий. Русские консульства за границей в XVIII -. I hissə, M., 1899, səh. 205.
[7] А. Юхт. Восточная торговля России в 30 – 40-х годах в. и роль в ней армянских купцов, «Изв. АН Арм. ССР», № 8, 1956.
[8] QAAO, fond 394, iş 163.
[9] QAAO, fond 394, iş 163, vərəq 87-88.
[10] QAAO, fond 394, iş 1025.

böyük elmi əhəmiyyət kəsb edir. Sənəddən məlum olur ki, Azərbaycanın müxtəlif şəhərlərindən öz ailələri ilə birlikdə Həştərxana ticarət üçün gəlmiş azərbaycanlılar tez-tez İran qoşunlarının hücumuna məruz qalmış Azərbaycana bir daha qayıtmaq istəməyərək, Rusiya təbəəliyinə keçmək üçün yerli hakimlərə müraciət etmişlər.

Rusiyanın xarici siyasət arxivində, habelə Qədim aktların Mərkəzi Dövlət arxivində mühafizə olunan və sonradan bəzi elmi əsərlərdə əlavələr şəklində və yaxud sənədlər külliyyatında çap olunan sənədlərdən - «İranda nə qədər və hansı yerlərdə gömrük və ya bunun əvəzində rahdarilərin alınması haqqında cədvəl», A. P. Volınskinin və eləcə də A. İ. Lopuxinin jurnallarını və bir çox başqa dəyərli sənədləri göstərmək olar.

Ticarətə aid olan arxiv sənədlərindən bəhs etdikdə V. A. Ulyanitskinin «XVIII əsrdə xaricdə rus konsulxanaları» adlı ikicildlik əsərini qeyd etməmək olmaz. Müəllif həmin əsərin I cildində Rusiyanın başqa ölkələrlə yanaşı, İranda təsis olunan konsulxanalarından və yerlərdəki ticarətin vəziyyətindən bəhs edir. II cilddə isə konsul və konsul müavinlərinin yerlərdən Peterburqa göndərdikləri və mərkəzdən konsullara göndərilən məktubları dərc edilmişdir. Həmin məktubların əsli Rusiyanın xarici siyasət arxivində və qismən də Qədim aktların Mərkəzi Dövlət arxivində saxlanılır.

«Rusiya imperiyasının qanunlarının tam külliyyatı», «Rusiya imperatorunun tarix cəmiyyətinin külliyyatı» adlı çoxcildli məcmuələrində də bir sıra qiymətli arxiv sənədləri çap edilmişdir.

XIX əsrdə rus tarixçiləri tərəfindən yazılmış bir çox kitablarda «əlavələr» şəklində XVIII əsrin birinci yarısında Azərbaycanın iqtisadi məsələlərinə aid bir çox rəsmi sənədlər verilmişdir. Bu cəhətdən V. Komarovun «1722-1723-cü illərdə Rusiyanın İranla müharibəsi» əsərini (əlavələrdə I Pyotrun Bakı şəhəri və nefti haqqında yazdığı şəxsi məktubları verilir), A. N. Popovun «Rusiyanın I Pyotrun dövründə Xivə və Buxara ilə münasibətləri» əsərini (əlavələrdə rus səfiri F. Beneveninin 1719-1720-ci illərdə Şamaxı şəhərindən Peterburqa Azərbaycanın siyasi və iqtisadi tarixinə dair yazdığı məktubları çap edilmişdir), Q. Ezovun «Böyük Pyotrun erməni xalqı ilə əlaqələri» əsərini (burada 1709-cu ildə Şamaxıda olmuş İzrail Orinin yerli vəziyyət haqqında Peterburqa göndərdiyi məktubları çap edilmişdir) və s. göstərmək olar.

XVIII əsrin birinci yarısında Azərbaycanda olmuş bir çox rus məmurları, tacir və səyyahlarının xatirələrində də Azərbaycanın iqtisadi vəziyyəti, o cümlədən daxili və xarici ticarəti haqqında çoxlu məlumat vardır. Belə əsərlərdən F. Soymonovun, B. Bratişşevin və başqalarının əsərlərini xüsusilə qeyd etmək lazımdır.

Tədqiq etdiyimiz dövrün bəzi siyasi və iqtisadi məsələlərinə XVIII əsrin birinci yarısında yazıb-yaratmış bir sıra Şərq müəlliflərinin, o cümlədən Şeyx

Məhəmməd Əli Həzinin, Məhəmməd Kazımın, Mirzə Mehdi xan Astrabadinin əsərlərində toxunulmuşdur[11].

XVIII əsrin ikinci yarısının müəlliflərindən M. Çulkovun «Rus ticarətinin tarixi təsviri» adlı əsərində də dövrün birinci yarısına aid Azərbaycanın ticarəti haqqında bir sıra qiymətli məlumat və faktiki materiallar vardır. Lakin qeyd etmək lazımdır ki, M. Çulkov XVIII əsrin birinci yarısına aid materialların demək olar ki, hamısını İ. Qerberdən və başqa müasirlərdən iqtibas etmişdir.

İ. Qerber 1723-cü ildə rus qoşunları tərəfindən Bakı qalası alınarkən rus topxanasının komandanı olmuş və şəhərin alınmasında fəal iştirak etmişdir. Bakı alındıqdan sonra İ. Qerber bir neçə il şəhərdə yaşamış və eyni zamanda rus qoşunlarının tutduqları Xəzər boyu əyalətlər və qonşu vilayətlərdəki vəziyyətlə yaxından tanış olmuşdur. İ. Qerber öz təəssüratını ilk dəfə almanca yazmışdır. Sonra onun əsəri rus dilinə tərcümə olunmuşdur[12]. Bu əsər ayrı-ayrı şəhərlərin siyasi və iqtisadi vəziyyəti haqqında konkret məlumat verən yığcam bir əsərdir.

XVIII əsrin birinci yarısında tacir və missioner sifəti ilə Azərbaycan şəhərlərində olmuş bir çox Qərbi Avropa ölkə nümayəndələrinin xatirələrində də maraqlı məlumat vardır. Həmin xatirələrin bir hissəsi Abezquz və tarix elmləri namizədi S. Aşurbəyli tərəfindən tərcümə edilmiş və hazırda Azərbaycan SSR EA Tarix İnstitutunun elmi arxivində saxlanılmaqdadır. Qərbi Avropa ölkə nümayəndələrindən holland rəssamı Korneli de Bruinin, Şotlandiya həkimi Con Belin, alman İ. Lerxin, ingilis C. Hanveyin əsərlərindəki məlumatlar daha dolğun və qiymətlidir.

XIX əsrdə və inqilabdan əvvəl yazıb-yaratmış bir sıra tarixçilərin əsərləri də diqqətəşayandır. Həmin müəlliflərdən P. Zubov, S. Bronevski, F. F. Veselaqo, fon Qrebner, A. Bakıxanov və başqalarının əsərlərində XVIII əsrin birinci yarısına dair Azərbaycanın siyasi və iqtisadi vəziyyəti haqqında bir sıra mühüm məlumat vardır.

Ümumiyyətlə, Azərbaycanın orta əsr tarixinə aid olan bir çox tədqiqat əsərlərində iqtisadi məsələlərə çox az yer verilmişdir. Bu cəhətdən, şübhəsiz, akademik Ə. Ə. Əlizadənin zəngin mənbələr əsasında Azərbaycanın XIII—XIV əsrlərdə ictimai-iqtisadi və siyasi tarixinə həsr edilmiş monoqrafiyası[13], habelə prof. İ. P. Petruşevskinin «XVI-XIX əsrlərin əvvəllərində Azərbaycan və Ermənistanda feodal münasibətləri tarixinin oçerkləri»[14] müstəsna təşkil edir.

---

[11] Lakin həmin müəlliflər bir sıra tarixi hadisələri təhrif etmişlər.

[12] И. И. Гербер. Известия о находящихся с Западной стороны Каспийского моря между Астраханью и рекой Курой народах и землях, и о их состояний в 1728 г., журн. «Сочинения и переводы», № 2, 1760.

[13] А. А. Ализаде. Социально-экономическая и политическая история Азербайджана XIII—XIV вв., Баку, 1956.

[14] И. П. Петрушевский. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI — нач. XIX вв,, Л., 1949.

İqtisadi məsələlər arasında şəhər təsərrüfatı, sənətkarlıq və ticarət məsələlərinə tarixi ədəbiyyatda feodal münasibətlərinə nisbətən daha az yer verilmişdir. Doğrudur, E. S. Zevakin vaxtı ilə Azərbaycanın XVII əsr ticarəti haqqında əsər yazmışdır. Lakin bu əsər çap edilməmiş və yalnız əlyazması hüququnda Azərbaycan SSR EA Tarix İnstitutunun elmi arxivində saxlanılır[15]. H. B. Abdullayev özünün «XVIII əsrin ikinci yarısında Şimal-şərqi Azərbaycan və Rusiya» monoqrafiyasında XVIII əsrin birinci yarısında Azərbaycanda baş vermiş bir sıra siyasi hadisə və iqtisadi məsələlərə toxunmuşdur. Lakin müəllifin tədqiqatı əsasən XVIII əsrin ikinci yarısına aid olduğu üçün o, XVIII əsrin birinci yarısına dair məsələləri ayrıca və dərindən tədqiq etməyi lazım bilməmişdir. Azərbaycan Dövlət tarix muzeyində Ə. Hüseynov tərəfindən çapa hazırlanmış «XV—XVII əsrlərdə rus Azərbaycan münasibətləri» əsərində də ticarət məsələlərinə geniş yer verilmişdir.

Azərbaycanın orta əsrlər tarixi ilə məşğul olan tədqiqatçılarından M. Şərifli, M. Nemətova, Z. Bünyadov, Ə. Rəhmani, O. Əfəndiyev, S. İbrahimov və başqalarının əsərlərində Azərbaycanın iqtisadi tarixinin bəzi məsələlərinə toxunulmuşdur.

XVIII əsrin birinci yarısında Azərbaycanın iqtisadi tarixi xüsusi tədqiqat məsələsi kimi öyrənilməmişdisə də, bu barədə ayrı-ayrı tədqiqat əsərlərində ümumi şəkildə də olsa bir sıra məlumat vardır. Bunlardan mərhum A. Əbdürrəhmanovun «XVIII əsrin birinci yarısında Azərbaycan rus-İran-türk münasibətlərində» adlı monoqrafiyasını[16], M. Arunovanın K. Əşrəfyanla birlikdə yazdıqları «Nadir şah Əfşarın dövləti» əsərini, M. M. Altmanın Azərbaycan SSR EA Tarix İnstitutunun elmi arxivində olan «1606-cı ildən 1804-cü ilə qədər "Gəncə şəhəri» əsərini, M. Vəliyevin «Azərbaycan» və V. N. Leviatovun «XVIII əsr Azərbaycan tarixindən oçerkləri» adlı əsərlərini, habelə E. S. Zevakinin məqalələrini göstərmək olar.

Müəllif əsərin yazılışında bir sıra qiymətli elmi məsləhətlər verdiklərinə görə Azərbaycan SSR EA akademiki Ə. Ə. Əlizadəyə, prof. İ. P. Petruşevskiyə və prof. H. B. Abdullayevə öz minnətdarlığını bildirir.

---

[15] Е. С. Зевакин. Русская торговля в Азербайджане в XVII в,. ТИЕА, инв. 521.

[16] А. Абдуррахманов. Азербайджан в русско-иранско-турецких отношениях в первой половине XVIII в., Баку, 1904.

# I FƏSİL
# XVIII ƏSRİN BİRİNSİ YARISINDA AZƏRBAYCANDA VƏZİYYƏT

XVI əsrin əvvəllərində Səfəvi dövlətinin tərkibinə daxil edilmiş Azərbaycan XVIII əsrin əvvəllərində hələ də İran şahlarının təyin etdikləri feodal-bəylərbəyilər tərəfindən idarə olunurdu.

Azərbaycanın ərazisi inzibati cəhətdən əsasən üç böyük bəylərbəyiliyə bölünmüşdü: Şirvan bəylərbəyiliyi, mərkəzi - Şamaxı şəhəri; Qarabağ bəylərbəyiliyi, mərkəzi — Gəncə şəhəri; Təbriz bəylərbəyiliyi, mərkəzi — Təbriz şəhəri [17], Naxçıvan şəhəri və əyaləti XVIII əsrin əvvəllərində Çuxursəd bəylərbəyiliyinin tərkibində idi.

XVII əsrin axırlarından başlayaraq Səfəvi dövlətində baş verən iqtisadi tənəzzül[18] ölkəni siyasi cəhətdən də sarsıtmışdı. Məhz buna görə də təsadüfi deyildir ki, vaxtı ilə İrana qılınc gücü ilə birləşdirilmiş əyalətlərdə, xüsusilə Azərbaycan bəylərbəyiliklərində feodallar bəzi hallarda mərkəzi hökumətlə hesablaşmadan bəylərbəyiliyi sərbəst idarə edir, paytaxtdan gələn əmr və fərmanlara laqeyd yanaşır və hətta toplanılan vergiləri mənimsəyərək xəzinəyə təhvil verməkdən imtina edirdilər.

Lakin bəylərbəyilərin müstəqilliyi heç də zəhmətkeş kütlələrin feodal istismarından azad olmaları demək deyildi. Şəhərlilər və kəndlilər əvvəllərdə olduğu kimi, yenə də amansızcasına istismar olunurdular[19].

Səfəvi dövlətinin tənəzzül etmə səbəblərini bir sıra tarixçilər tədqiq etmiş və əsasən düzgün qənaətə gəlmişlər[20]. Lakin həmin tədqiqatçıların əsərlərindəki faktlar əsasən İrana və qismən də Ermənistana aiddir. Halbuki Səfəvi dövləti Azərbaycanın şəhər və kəndlərindən başqa vilayətlərə nisbətən daha çox gəlir əldə edirdi və buna görə də ehtimal etmək olar ki, burada istismar, şübhəsiz, daha

---

[17] Tadhkirat al-mulun. A. manyel of Safavid adminisration (circa 1137/1725). Persian text in facsimile. Translated and explained by v. Minorsky, London. 1943. p. 164-167; L. Lockart. The fale of the Safavid dynasty and the afghan occupation of Persia, London, 1958, p. 4-5.

[18] И. П. Петрушевский. Упадок феодального общества в Иране в XVIII в. См.: Н. В. Пигулевская, А. Ю). Якубовский, И. П. Петрушевский, Л. М. Строева. История Ирана с древнейших времен до конца XVIII в., Л., 1958, səh. 300; М. Арунова и К.Ашрафян. Государство Надир-шаха Афшара, М., 1959, səh. 35-65; L. Lokhart. Göstərilən əsəri, səh. 40 və b.

[19] Е. С. Зевакин. Азербайджан в нач. XVIII в., Журнал посланника Волынского 1715-1718 гг., Баку, 1929, səh. 6 (sonralar A. P. Volinskinin jurnalı).

[20] В. В. Бартольд. Место прикаспийских областей в истории мусульманского мира, Баку, 1925, səh. 112; И. П. Петрушевский. Азербайджан в XVI-XVIII вв., Сборник статей по истории Азербайджана, Баку, 1949, səh. 295-298; И. П. Петрушевский. «Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI начале XIX вв., səh. 82-84; П. М. Иванов. Очерки истории Ирана, М., 1952; L. Lokhart. Göstərilən əsəri. Səh. 17.

şiddətli idi. Digər tərəfdən qeyd etmək lazımdır ki, XVIII əsrin birinci rübündə Azərbaycanın müxtəlif yerlərində baş vermiş xalq azadlıq hərəkatı və üsyanlar İran dövlətini sarsıdan başlıca səbəblərdən biri olmuşdur. Buna görə də Azərbaycanla əlaqədar olan bir sıra məsələlərin üzərində dayanmaq lazımdır.

Hələ XVII əsrin axırlarında Səfəvi dövlətində başlanmış iqtisadi tənəzzül XVIII əsrin əvvəllərində daha da kəskinləşmişdi. Bu prosesin qarşısını almaq üçün ölkənin iqtisadiyyatında dönüş yarada bilməyən və heç bir ciddi tədbir həyata keçirməyi bacarmayan Şah Soltan Hüseyn (1694-1722) dövlətin müqəddəratını baş vəziri Etimad-üd-Dövlə Fətəli xana həvalə edərək, gününü məscid və yaxud hərəmxanada keçirirdi.

1715-ci ildə I Pyotr tərəfindən Səfəvi dövlətinə göndərilən səfir A. P. Volınski yazırdı ki, «hazırki İran dövlətinin başçısı kimi axmağı heç harda tapmazsan, özü əlini ağdan qaraya vurmur, bütün dövlət işlərini Etimad-üd-Dövlə kimi səfehə etibar etmişdir»[21].

A. P. Volınski daha sonra dövlətin vəziyyəti və gəliri haqqında bəhs edərkən yazır ki, İranın əvvəllər çoxlarından eşitdiyim şöhrəti haqqında hazırda nəyə əsasən söz getdiyinə təəccüb edirəm. Ölkənin əvvəl 15 milyon və daha çox gəliri olduğu halda, hazırda cəmi 6 milyondur. Bütün bunların səbəbini A. P. Volınski «...dövlətin xeyirindən çox öz mənafeyini güdən və nalayiq hərəkətləri ilə xalqın qəzəbinə səbəb olan hakimlərin...»[22] davranışında görürdü.

A. P. Volınski Səfəvi dövlətinin tənəzzül etmə səbəblərini daha sonra şərh edərək yazır: «Şah və divan məmurlarının ağıllarına nə gəlirsə, düşünmədən onu da edirlər. Beləliklə, onlar öz dövlətlərini elə dağıtmışlar ki, heç Makedoniyalı İskəndər sağ olsaydı belə müharibə ilə buranı bu cür xaraba qoya bilməzdi»[23]. A. P. Volınski bu işdə ən çox şahı təqsirləndirərək yazırdı: «Əgər şah dəyişməsə, mənə elə gəlir ki, bu dövlət tamamilə dağılıb gedəcəkdir»[24].

Şübhəsiz, dövlətin belə bir acınacaqlı vəziyyətə düşməsində şahın rolu böyük idi[25]. Lakin bu əsil səbəb ola bilməzdi. Vaxtı ilə Şərqin ən qabaqcıl dövlətlərindən biri olan Səfəvi dövlətinin belə bir tənəzzülə uğramasının səbəbini ayrı-ayrı şəxsiyyətlərin fəaliyyəti ilə izah etmək, ictimai və iqtisadi faktları görməmək - məsələyə birtərəfli yanaşmaq deməkdir. Səfəvi dövlətinin tənəzzülünün əsil səbəbini ümumi təsərrüfat geriliyində, kəndlilərin və şəhərlilərin amansızcasına istismarında və onların var-yoxdan çıxmasında, hakim sinfin

---

[21] Sitat S. M. Solovyovun əsərindən götürülmüşdür. Bax: С. М. Соловьев. История России, т. XVIII, səh. 665.
[22] A. P. Volınskinin jurnalı, səh. 6.
[23] S. M. Solovyov. Göstərilən əsəri, səh. 665.
[24] Yenə orada.
[25] Извлечение из путешествия г-на Оливье (окончание), «Вестник Европы», т. XXXV, М., 1807, səh. 11-26.

daxilində gedən çəkimşələrdə, iri feodalların öz müstəqillikləri uğrunda apardıqları mübarizədə, kənd və şəhərlərdən toplanılan vergilərin çox kiçik bir qisminin dövlətə verilməsində və ya saray əyanları tərəfindən mənimsənilməsində və bu kimi məsələlərin izahında axtarıb tapmaq lazımdır. Şah Soltan Hüseynin fəaliyyətsizliyi isə bütün dövlət aparatının çürümə prosesini yalnız sürətləndirə bilərdi.

Saray əyanlarının xəzinəni talan etmələri, dövlət gəlirini mənimsəmələri və bu kimi özbaşınalıqlar, ən nəhayət, ərzaq mallarının gündən-günə bahalaşması, kəndlilərin, şəhər əhalisinin, xüsusilə tacir və sənətkarların vəziyyətinin daha da pisləşməsi ilə nəticələnirdi.

1703-cü ildə Şamaxıda olmuş holland rəssamı, səyyah Korneli de Bruin şəhərdəki bahalıqdan bəhs edərək belə yazır: «Şamaxıda hər şey həddindən artıq bahalaşmışdır. Çörək yüz ildən artıq bir müddətdə 2 soldoya[26] satıldığı halda, indi 10 soldoya satılır. Başqa mallar da bir o qədər bahalaşmışdır»[27].

Daxildən çürümüş İran dövlətini iqtisadi böhrandan çıxarmaq və boşalmış dövlət xəzinəsini doldurmaq üçün bir çıxış yolu tapmayan şah hökuməti onsuz da ağır olan vergiləri daha da artırmağı və bu məqsədlə də əhalini yenidən siyahıya almağı qərara aldı. Tezliklə bütün şəhər, mahal və əyalətlərə yüzlərlə dövlət məmuru və nümayəndəsi ezam olundu. Yeni qərara görə 15 yaşından yuxarı bütün şəxslər vergi siyahısına daxil edildi[28].

Azərbaycanda əhalinin siyahıya alınmasının şahidi olan qarabağlı Yesay Həsən Cəlalyan bu barədə çox maraqlı məlumat verir. O yazır ki, Azərbaycan və eləcə də Ermənistanda əhalinin təkcə özü deyil, hətta əmlakı da siyahıya alınırdı[29]. Yeni vergi siyasəti xalqın əlindən axırıncı tikəni almaq demək idi. Odur ki, Azərbaycanda əhali buna cavab olaraq ya malını şah məmurlarından gizlədir və yaxud da baş götürüb ailəsi və var-yoxu ilə birlikdə öz yurdundan qaçmalı olurdu. Görünür, tərtib olunub mərkəzə göndərilən siyahılar dövləti təmin etməmişdi, çünki tezliklə İsfahandan şahın adından yeni fərman verildi. Bu fərmana əsasən «hər kəs gizləni tapsa və şaha bildirsə, gizlənənin başı şaha, əmlakı isə onu tapan adama veriləcəkdir»[30].

Şəhər əhalisi, xüsusilə sənətkar və tacirlər külli miqdarda toplanılan vergilərdən əlavə, şahın sərbazları tərəfindən də amansızcasına qarət olunurdular. Səyyah Korneli de Bruin yazır ki, Şamaxıdakı qoşun hissələrinə uzun müddət

---

[26] Soldo (italyanca Soldo) italyan mis puludur, 1/20 lirədir.

[27] Корнели де Вруин. Извлечеиие из путешествия Корнелия де Бруина (fransız dilindən tərcüməsi Abezquzundur), Azərbaycan SSR EA Tarix İnstitutunun elmi arxivi, inv. 480, səh. 16 (sonralar həmin arxiv TİEA kimi göstəriləcəkdir).

[28] Есай Хасан Джалалян. Краткая история страны Агвайской (qədim erməni dilindən tərcüməsi Ter-Qriqoryanındır), TİEA, inv. 2009, səh. 29.

[29] Y. H. Cəlalyan. Göstərilən əsəri, səh. 29; V. N. Leviatov. Göstərilən əsəri, səh. 64; И. П. Петрушевский. Упадок феодального обшества в Иране в XVIII в., səh. 307.

[30] Y. H. Cəlalyan. Göstərilən əsəri, səh, 29.

məvacib verilmədiyinə görə onlar yalnız əhalini qarət etmək hesabına dolanırdılar[31].

Dövlət isə öz növbəsində xalqı istismar etməkdə davam edirdi. Vergilərin biri yığılıb qurtarmamış, digəri ilə əvəz olunurdu[32].

Toplanılan vergilərin əksəriyyətini saray əyanları və dövlət məmurları mənimsədikləri üçün xəzinəyə verilən gəlir dövləti qane edə bilmirdi. Odur ki, hökumət yeni gəlir mənbələri axtarmağa başladı. Tezliklə şahın fərmanına əsasən bütün mahal, kənd və yaşayış yerlərindəki torpaq, su, bağlar, çəmənlər, əkin yerləri və hətta ağaclar belə, bir sözlə, insanın yaşayışı üçün zəruri olan hər bir şey siyahıya alındı. Hətta köçəri maldarların da var-yoxları nəzərdən qaçmadı.

Şah hökumətinin həyata keçirdiyi tədbirlər bir tərəfdən zəhmətkeş kütlələri var-yoxdan çıxarırdısa, digər tərəfdən yerli hakimlərin daha da varlanmaları üçün geniş imkanlar yaradırdı. Belə ki, yerli feodallar şahın fərmanını bəhanə gətirib xalqı amansızcasına istismar edərək öz ciblərini doldururdular. Səyyah Korneli de Bruin Şirvan hakimlərinin nə kimi yolla varlanmalarını belə təsvir edir: «Şamaxı quberniyası[33] İranın ən zəngin quberniyalarındandır; oranın qubernatorları çox asan və yüngül yolla, ətraf vilayətlərdən külli miqdarda topladıqları vergilərin sayəsində varlanırlar»[34]. Təqribən 13-14 il sonra Şirvanda olan A. P. Volınski də, demək olar ki, belə bir səhnənin şahidi olmuşdur. O yazır ki, Şirvanın hakimləri əhalidən ildə iki və ya üç dəfə artıq vergi toplamaq yolu ilə öz ciblərini doldururdular. A. P. Volınski təkcə Şamaxı şəhərindən bəylərbəyi Key-Xosrovun 200.000 tümən pul yığması haqqında məlumat verir[35]. Mənbələrdən alınan məlumata görə, Abşeron əhalisindən yalnız neftə görə şah hökuməti tərəfindən 150.000 ekü[36] gömrük alınırmış.

Maraqlı burasıdır ki, şahın özü, vəziri və bu kimi vəzifə sahibləri ciblərini dövlət xəzinəsindən üstün tutaraq, ilk növbədə öz şəxsi mənafelərini güdürdülər. Misal üçün, rus səfiri F. Benevenin Tehrandan Peterburqa göndərdiyi məktubu göstərmək kifayətdir. F. Beneveninin yazdığına görə, baş vəzir Etimad-üd-Dövlə Fətəli xanın səkkiz yüz min çervonu, külli miqdarda qaş-daşı, iyirmi min dəvəsi, saysız-hesabsız ilxısı və mal-qarası vardı və ölkənin elə yeri yox idi ki, onun orada dəllalları və at ilxısı olmasın. O, başına gələn bədbəxtçilikdən[37] iyirmi gün əvvəl Hindistana böyük ticarət karvanı yola salmış və əlavə satmaq üçün 200 at

[31] Korneli de Bruin. Göstərilən əsəri, səh. 50.
[32] Y. H. Cəlalyan. Göstərilən əsəri, səh. 30.
[33] Çox güman ki, müəllif burada Şirvan bəylərbəyiliyini nəzərdə tutmuşdur.
[34] Korneli de Bruin. Göstərilən əsəri, səh. 22.
[35] A. P. Volınskinin jurnalı, səh. 12.
[36]Ekü qədim fransız qızıl və gümüş puludur. Донесения французского консула в Петербурге Лави и полномоченного министра при русском дворе Кампредона с 1722 по 1724 г. от г. де Кампредона к королю, Петербург, 20 сентября 1723, СИРИО. т. 49, səh. 380.
[37] Onun şah Soltan Hüseyn tərəfindən gözləri çıxartdırılmışdır. Bax: Н. Попов. В. Н. Татишев и его время, СПб, 1896, səh 300.

göndərmişdi[38]. Xalqın var-yoxdan çıxdığı bir zamanda və dövlət xəzinəsinin, demək olar ki, tamamilə boşaldığı bir dövrdə baş vəzirin bu qədər mal-dövlətə nə yolla malik olduğunu izah etməyə, göründüyü kimi, ehtiyac qalmır.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, bir tərəfdən yeni vergi siyasətinin həyata keçirilməsi başlamış olan iqtisadi tənəzzüldən doğurdusa, digər tərəfdən bu siyasətin özü şəhər və kəndlərin daha artıq xarabalaşmasına, əhalinin daha çox yoxsullaşmasına, bir sözlə, tənəzzül prosesinin daha da sürətlənməsinə səbəb olmuşdu. Xəzinənin pula ehtiyacı artdıqca, feodallar da bir o qədər azğınlaşır, xalqı daha amansızcasına istismar edirdilər. Müflisləşmiş məmurlar xalqın qanını sorur, çəkinmədən və heç bir məsuliyyət hiss etmədən əhalini soyurdular. «Ədalət isə açıqdan-açığa imperiyanın paytaxtında satılırdı»[39].

Dövlət gəlirinin azalması ilə əlaqədar olaraq şah hökuməti təkcə zəhmətkeş kütlələrə deyil, həmçinin hakim sinfin bəzi təbəqələrinə, xüsusilə sünni təriqətinə mənsub olan ruhanilərlə xristian ruhanilərinə ağır iqtisadi təzyiq göstərirdi[40].

XVIII əsrin əvvəllərində tətbiq olunan yeni vergi sistemi hələ I şah Abbasın vaxtında kilsə və monastırlara verilmiş bəzi güzəştləri tamamilə ləğv etdi[41]. Artıq sünni və xristian ruhaniləri də digər təbəələr kimi vergi verməli və mükəlləfiyyət daşımalı idilər. Hətta ziyarətə gedənlər də baş və rahdari gömrüyü verməli idilər. Halbuki həmin gömrüklər əvvəllər yalnız ticarət məqsədi ilə bir şəhər və vilayətdən digərinə getdikdə alınırdı. Məhz buna görə də xristianlar arasında böyük narazılığa səbəb oldu. Bir çox ziyarətçilər baş və rahdari vergisinin ağırlığından ziyarətə getməkdən imtina edirdilər. Bu isə kilsə və monastırlara maddi cəhətdən böyük zərbə endirirdi. Buna görə də keşişlər şikayətlə şaha müraciət etməli oldular[42]. Bu barədə «Matenadarandan» əldə etdiyimiz (ərizedaşt) çox xarakterikdir. Həmin ərizə İrəvanın üç kilsə (üç müəzzin - Eçmiadizin) keşişlərindən olan Qəzər tərəfindən şaha yazılmış bir şikayətdir. Ərizədə xahiş olunur ki, şahın bacdar və rahdarları ziyarətçilərdən əvvəllərdə olduğu kimi, indi də gömrük almasınlar[43].

Lakin qeyd etmək lazımdır ki, şah hökumətinin həyata keçirdiyi bütün bu tədbirlər, yəni maksimum istismar yolu ilə boşalmış dövlət xəzinəsini doldurmaq

---

[38] Реляция Ф. Беневени из Тегерана 25-го мая 1721; Bax: N. Popov. Göstərilən əsəri, səh. 362.
[39] J. Hanway. An historisal Account of the British Trade over the Caspian Sea... London, 1762, vol. 2. p. 104.
[40] J. H. Cəlalyan. Göstərilən əsəri, səh. 29.
[41] Yenə orada.
[42] Ф. М. Алиев. Города и городская торговля в Азербайджане во второй половине XVIII в., Azərbaycan SSR EA Tarix İnstitutunun əsərləri, XIII cild, səh. 156; F. M. Əliyev. Şimali Azərbaycan şəhərləri, Bakı, 1960, səh. 110.
[43] Matenadaran, sənəd 482.

cəhdləri gözlənilən nəticəni vermədi. Əksinə, gündən-günə artan istismar dövləti daha da zəiflətdi və sinfi mübarizənin daha da kəskinləşməsinə səbəb oldu.

XVIII əsrin əvvəllərində Azərbaycanda İran zülmünə və yerli feodallara qarşı qalxan mübarizələr ilk mərhələdə qeyri-fəal xarakter daşıyırdı. Feodalizm dövründə qeyri-fəal mübarizə aparmaq - xalqın öz ev-eşiyini atıb qürbət ölkələrə qaçması demək idi.

XVIII əsrin əvvəllərində belə hallara tez-tez təsadüf edilirdi. Bir çox yerlərdə bu vəziyyət kütləvi şəkil aldığına görə, bəzi kəndlərdə işçi qüvvəsinin çatışmamazlığı üzündən əkin sahələri uzun zaman becərilməmiş qalmış, vergi verəcək kəndlilərin sayı miqdarca xeyli azalmışdı[44]. Belə bir vəziyyətin yaranması dövlətin iqtisadi uçuruma yuvarlanması demək idi. Şah hökuməti bunun qarşısını almaq üçün yeni tədbirlər gördü. Şah Soltan Hüseynin 1711-ci ildəki fərmanına əsasən qaçqın kəndlilər 12 ilin ərzində axtarılıb tapılmalı və zorla öz yerlərinə qaytarılmalı idilər. Həmin müddət ərzində tapılması mümkün olmayan rəiyyət üçün daha axtarış elan edilmirdi[45].

İran zülmünə qarşı aparılan qeyri-fəal mübarizə tədricən açıq silahlı mübarizəyə çevrildi. Bu mübarizənin alovları birinci növbədə Səfəvi dövlətinə zorla tabe edilmiş xalqları bürüdü.

1715-ci ildə A. P. Volınski Azərbaycanın ərazisindən keçib İrana gedərkən burada İran dövlətinin əleyhinə qalxan üsyanların şahidi olmuşdur. Məhz buna görə də o, öz təəssüratında yazırdı: «Səfəvi dövlətində çox az yer tapmaq olar ki, orada hökumətə qarşı üsyan baş verməmiş olsun»[46].

Lakin bu əsərdə həmin dövrdə Azərbaycanda baş verən xalq azadlıq hərəkatının mahiyyətindən, xarakterindən, gedişindən və onu doğuran səbəblərdən ətraflı surətdə danışılmayacaqdır. Çünki bu məsələlərin işıqlandırılmasının özü xüsusi bir tədqiqat işidir. Lakin Azərbaycanda baş verən xalq azadlıq hərəkatı və üsyanların ölkənin daxili vəziyyətinə, ticarətin gedişinə böyük təsir göstərdiyi üçün, ötəri də olsa, bunun üzərində dayanmaq lazım gəlir.

Səfəvi dövlətində baş verən xalq azadlıq mübarizəsi və üsyanlar ikiqat istismarın dini təqiblərlə şiddətləndiyi yerlərdə özünü daha artıq göstərirdi. Səfəvi dövlətinə qarşı ilk açıq mübarizə əhalisi fars olmayan sərhəd vilayətlərində daha sürətlə genişlənməyə başlamışdı. 1709-cu ildə İranın cənubunda əfqan qəbilələrindən olan qilzailər Qəndahar şəhərini zəbt edib, hakimiyyəti öz əllərinə aldılar[47].

---

[44] И. П. Петрушевский. Упадок феодального общества в Иране в XVIII в., səh. 307.

[45] С. Ереванци. Джамбр, М., 1958, səh. 34; M. Arunova, K. Əşrəfyan. Göstərilən əsəri, səh. 47.

[46] S. M. Solovyov. Göstərilən əsəri, səh. 665; АВПР, ф. Сношения России с Персией. siyahı 77/1, iş (1722), vərəq 103; Грамоты императрицы Екатерины I к пурсидскому шаху Тахмасибу о причине занятия Российскими воисками некоторых провинций персидских, там же, iş 17 (1725), vərəq 1.

[47] И. П. Петрушевский. Упадок феодального общества в Иране в XVIII в.; М. С. Иванов. Göstərilən əsəri, səh. 21; L. Lokhart. Göstərilən əsəri, səh. 80 və b.

1709-cu ildə İran zülmünə qarşı Təbrizdə də xalq hərəkatının başlanması haqqında tarixi ədəbiyyatda məlumat vardır[48]. 1709-cu il sentyabr ayının 20-də Şamaxı şəhərində olmuş İzrail Ori knyaz P. M. Qaqarinə yazdığı məktubda feodalların «kəndləri qarət edib yandırdıqları» haqqında xəbər verir[49].

İran zülmü və yerli feodalların istismarına qarşı qalxan xalq hərəkatı XVIII əsrin 10-cu illərində daha da genişləndi. Bu mübarizənin hərəkətverici qüvvəsini əsasən kəndlilər təşkil edirdilər. C. Hanveyin yazdığına görə, 1719-cu ildə Şirvanda kəndlilər Molla Abdulla və Qanlı Savanın (Kanly Savan) başçılığı altında vergi toplayanları və digər şah məmurlarını qovaraq, öz ətraflarına 30.000 qədər adam toplamağa müvəffəq olmuşdular[50].

Lakin kortəbii və bir-biri ilə əlaqə yaratmadan silaha əl atan üsyançılar tezliklə yerli feodalların fırıldaqlarının qurbanı oldular. Bir çox feodallar, xüsusilə əhalisi sünni olan əyalətlərdə onlara endiriləcək zərbəni vaxtında duyub, riyakarlıqla bir sıra güzəştə gedərək, xalqın acınacaqlı vəziyyətdə yaşaması günahını başında «şiə» şahlar duran İranın üzərinə atdılar. Onlar ustalıqla üsyana dini rəng verərək üsyançıları feodal zülmünə qarşı aparılan mübarizənin əsil məqsədlərindən yayındırmağa, şiə İranın əleyhinə mübarizə aparmağa çağırdılar. Belə feodalların ən görkəmli nümayəndəsi kimi müşkürlü Hacı Davud və qazıqumuxlu Surxay xanı göstərmək olar.

İran dövlətinin Azərbaycandakı inzibati mərkəzləri əsasən şəhərlərdə yerləşirdi. Məhz buna görə də adları çəkilən feodallar üsyançıları ilk növbədə şəhərlərə basqın etməyə çağırdılar. Əslində üsyan başçılarının niyyətləri dövlətlə təkcə siyasi haqq-hesab çəkmək deyildi. Məlum olduğu kimi, Azərbaycanın bir çox şəhərləri ticarət mərkəzi olduğu üçün zəngin bazara malik idi. Buna görə də orada çoxlu qənimət ələ keçirmək olardı. Hacı Davud və Surxay xanın əsas məqsədi də məhz elə bu idi.

Azərbaycanda İran hakimiyyətinə vurulan zərbənin ağırlığını hiss edən Şah Soltan Hüseyn özünün qüdrəti çatmadığı üçün yerlərdəki nümayəndələrinə müraciət edib, təhlükənin qarşısını almağa çalışırdı. Lakin şahın ümüdi boşa çıxdı. İran dövlətinin dayağı sayılan bir çox feodallar nəinki ətraflarına qoşun toplaya bilmədilər, əksinə, olan-qalan qoşun hissələri ilə məğlubiyyətə uğradılar. Bu barədə Yesay Həsən Cəlalyan belə yazır: «Şah nə qədər Şamaxı, Gəncə və (bu şəhərlərin) ərazilərindəki qoşun hissələrinə əmr etdi ki, onların (üsyançıların) əleyhinə çıxsınlar, lakin bu şəhərlərdə olan xanlar (üsyançıların) qarşısını ala bilmədilər və özləri məğlubiyyətə uğradılar...[51].

---

[48] И. П. Петрушевский. Упадок феодального общества в Иране в XVIII в., səh. 311.

[49] Письмо Ория из Шемахи князю Петру Матвеевичу Гагарину о бывшем в Шемахе возмушении и о приготовлении его Ория возвратиться весною через Астрахань от 2 сентября 1709 г., Bax: Г. А. Эзов. Сношения Петра Великого с армянским народом, СПб, 1898, səh. 140.

[50] C. Hanvey. Göstərilən əsəri, II cild, səh. 140.

[51] Y. H. Cəlalyan. Göstərilən əsəri, səh. 35.

Qeyd etmək lazımdır ki, üsyan təkcə İran dövlətinə qarşı deyil, eyni zamanda bütün şiələrə qarşı mübarizə bayrağı altında aparıldığından üsyançılara qoşulmuş feodal cığırdaşlar və öz şəxsi mənfəətlərini güdənlər qarşıya çıxan şiə kəndlərini dağıdır, əhalinin varidatını talan edir, özlərini isə qılıncdan keçirirdilər. Onlar əhalini və yaşayış yerlərini talan edə-edə zəngin ticarət mərkəzlərindən biri sayılan Şabran şəhərinə yaxşılaşdılar. Şəhər hazırlıqsız olduğu üçün müqavimət göstərə bilmədi[52]. Şabrana daxil olan üsyançılar şəhəri qarət etdikdən sonra onu büsbütün dağıtdılar. A. Bakıxanov yazır ki, bu hadisədən sonra Şabran bir şəhər kimi daha özünə gələ bilmədi. Şəhərin adı ilə sonralar yalnız ətraf mahal adlandırılmağa başlandı[53].

Üsyançılar Şabrandan sonra Xudad qalasını ələ keçirtdilər[54].

Bir qədərdən sonra üsyan başçıları dəstələrini Şamaxı şəhərinə tərəf çəkdilər. Çox güman ki, üsyançılar hərəkət etdikcə onların sıraları kəndlilərin hesabına günbəgün çoxalırmış. Onlar Şamaxıya tərəf gedərkən dəstələrin tərkibində artıq 30 mindən artıq üsyançı var idi[55].

Üsyançıların dəstələri Şamaxıya yaxınlaşarkən burada ciddi müqavimətə rast gəldilər. Lakin qışın yaxınlaşması ilə əlaqədar olaraq şəhərin mühasirəsini müvəqqəti olaraq təxirə salaraq Hacı Davud və Surxay xan öz dəstələrini geri çəkdilər.

Qış qurtardıqdan sonra Surxay xan və Hacı Davud yenidən Şamaxı üzərinə hücum etdilər.

Üsyançılar Şamaxıda yenə də ciddi müqavimətə rast gəldilər. On beş günlük mühasirədən sonra şəhər əhalisinin bir hissəsinin köməyi sayəsində Şamaxı şəhəri 1712-ci ildə üsyançıların əlinə keçdi[56]. Üsyançılar şəhərə daxil olan kimi qarətə başladılar. Şəhərdə olan istər azərbaycanlı, xristian və istərsə də xarici ölkə tacirlərinin hamısının mal-dövləti qarət olundu. Məxəzlərin verdiyi məlumata görə, Şamaxıda o zaman təkcə ruslardan 300 nəfər tacirin 400.000 tümənlik malı qarət olunmuş, özləri isə öldürülmüşdü[57]. P. Butkov bu məbləği rus puluna çevirib, rus

---

[52] P. Butkov yanlış olaraq Şabranın Hacı Davud və Surxay xan tərəfindən dağılmasını 1720-ci ilə aid edir. Bax: Материалы для новой истории Кавказа с 1722 по 1804 и., СПб, 1869, səh. 8. Lakin məlum olduğu kimi, Hacı Davud 1719-cu ildə həbs edilmişdi.

[53] A. Bakıxanov. Gülüstani-İram, Bakı, 1926, səh. 102.

[54] A. Bakıxanov. Yenə də orada; L. Brossenin P. Butkovun göstərilən əsərinin 9-cu səhifəsindəki qeydi.

[55] A. Bakıxanov. Göstərilən əsəri, səh. 102; Q. Alkadari. Asari Daqestan, Maxaçkala, 1929, səh. 55.

[56] A. Bakıxanov. Göstərilən əsəri, səh. 103; H. Əlqədari. Göstərilən əsəri, səh. 55; П. Бутков. Материалы по новой истории Кавказа с 1722 по 1804 г,, СПб, 1869, səh. 3.

[57] A. Bakıxanov. Göstərilən əsəri, səh. 103; H. Əlqədari. Göstərilən əsəri, səh. 55; Е. Козубский. Истории города Дербента. Темир хан Шура, 1906, səh 71; Зейдлиц. Исторический обзор Бакинской губернии. Библиотека ин-та истории АН азерб. ССР, А/7286. səh. 22.

tacirlərinin 4 milyon manatlıq mal itirdiklərini xəbər verir[58]. Həmin hadisə dövrün rus sənədlərində «Şamaxı hadisəsi» kimi qələmə verilir.

Tezliklə üsyançılar Şamaxını tərk etməli oldular. V. N. Leviatov bunun səbəbini həm yerli əhalinin narazılığı və həm də Hacı Davud və Surxay xanın Səfəvi[59] ordusunun Şamaxıya yaxınlaşacağından ehtiyat etmələri ilə izah edir. Bizsə, 1712-ci ildə nə Hacı Davud, nə də Surxay xan hələ öz qarşılarında Şamaxıda möhkəmlənmək məqsədini qoymamışdılar. Yuxarıda qeyd edildiyi kimi, onları birinci növbədə qarət maraqlandırırdı. Odur ki, lazımınca qənimət əldə etdikdən sonra üsyançılar şəhəri tərk etdilər.

Şamaxıdan sonra Hacı Davud və Surxay xanın dəstələri Bakıya tərəf hərəkət etdilər. Lakin onlar şəhərə yaxınlaşarkən Dərgah Qulu bəyin başçılığı altında darmadağın edilib geri dönməyə məcbur oldular.

XVIII əsrin onuncu illərində Səfəvi dövlətində başlamış xalq azadlıq hərəkatı ölkənin siyasi zəifləmə və iqtisadi tənəzzül prosesini daha da sürətləndirirdi. 1712-ci il hadisəsindən sonra Şamaxı ticarəti bir müddət tamamilə öz əhəmiyyətini itirdi. Dövlətə böyük gəlir verən xarici ölkələrin, xüsusilə Rusiya tacirləri Səfəvi dövlətinin ərazisinə gəlməkdən ehtiyat edirdilər. Şah Soltan Hüseyn ölkənin hər tərəfini bürüyən üsyanların qarşısını almaq, həm Rusiya dövləti ilə ticarət əlaqələrini bərpa etmək və həm də rusların köməyi ilə İran taxtında öz mövqeyini möhkəmləndirmək məqsədi ilə 1713-cü ildə Peterburqa öz səfirini göndərərək Rusiya dövləti ilə dostluq və ticarət müqaviləsi bağlamağı təklif etdi[60].

Zaqafqaziyanı çoxdan ələ keçirmək və eləcə də Xəzər dənizini Rusiyanın «daxili gölünə» çevirmək niyyətində olan I Pyotr o zaman İsveçlə müharibə apardığı üçün eyni zamanda cənuba qoşun çəkə bilməzdi. Lakin buna baxmayaraq, o, Şah Soltan Hüseynin təklifinə cavab olaraq 1715-ci ildə İran dövləti ilə danışıqlar aparmaq üçün podpolkovnik A. P. Volınskini İrana göndərdi[61]. A. P. Volınskini cənuba 13 nəfər dvoryan, 1 nəfər katib, 2 nəfər mütərcim, 2 nəfər dəftərxanaçı, 1 nəfər həkim, 32 nəfər səfarətxana işçisi və 20 nəfər qulluqçu - cəmi 71 nəfər müşayiət edirdi[62].

A. P. Volınski Peterburqdan 1715-ci il iyul ayının 8-də çıxmış, Həştərxan - Nizabad - Şamaxı - Təbriz - Sultaniyyə, Qum şəhərlərini keçib 1716-cı ilin mart ayının ortalarında İsfahan şəhərinə çatmışdı. A. P. Volınski burada baş vəzir Fətəli xanla hər iki dövlət arasında dostluq və ticarət əlaqələrinin yaradılması haqqında

---

[58] P. Butkov. Göstərilən əsəri, səh 3.
[59] V. N. Leviatov. Göstərilən əsəri, səh. 70.
[60] P. Butkov. Göstərilən əsəri, səh. 4.
[61] A. P. Volınskinin jurnalı, səh. 6-23; S. M. Solovyov. Göstərilən əsəri, səh. 665; P. Butkov. Göstərilən əsəri, səh. 4; L. Lokhart. Göstərilən əsəri, səh. 103.
[62] В. Н. Лебедев. Посольства А. П. Волынского в Персию, «Изв. АН СССР, серии истории и философии», V, № 6, 1948, səh. 532.

danışıqlar aparmış və bu barədə Rusiya hökuməti adından İranla müqavilə bağlamışdır[63].

A. P. Volınski 1717-ci il dekabr ayının 1-də Rusiyaya yola düşmüş və 1718-ci il dekabr ayının 12-də Peterburqa qayıtmışdır[64].

A. P. Volınskinin dəstəsinin üzvləri Azərbaycanın ərazisindən keçərkən çox yerlərdə, o cümlədən Təbrizdə, Muğanda, Salyanda, Qubada, Şamaxıda İran zülmünə və yerli feodallara qarşı qalxan üsyanların canlı şahidi olmuşlar[65].

Gündən-günə genişlənən xalq hərəkatı və üsyanlar təkcə feodal malikanələrini deyil, eyni zamanda karvan yollarını da təhlükə altına almışdı. Üsyançılar həmin yollar vasitəsi ilə gedən ticarət karvanlarını qarət edir, tacirləri isə adətən öldürürdülər. Belə hallarda çox zaman ticarətlə heç bir əlaqəsi olmayan səyyahlar, siyasi nümayəndələr, bəzən dini ocaqlar və pirlərə ziyarətə gedənlər də qarətin qurbanı olurdular. Bunu A. P. Volınskinin İran hökümətinə etdiyi müraciətindən də görmək olar. A. P. Volınski geri dönərkən İran hökümətindən onu Rusiyanın sərhədlərinə qədər silahlı dəstələrin müşayiət etməsini tələb etmişdi. A. P. Volınski baron P. P. Şafirova yazdığı məktubunda göstərir ki, o, 1718-ci ildə Rusiyaya qayıdarkən yollar təhlükəli olduğuna görə, 150 nəfərlik bir dəstə ilə müşayiət olunmuşdur[66]. Bəzi orta əsr müəllifləri feodalların zülmünə qarşı çıxış edib, onların var-dövlətini talan edənləri, karvanların qabağını kəsənləri fərqinə varmadan quldur adlandırırdılar. C. Hanvey böyük karvan yollarında «quldur dəstələrinin» mövcud olduqları və onların ticarətin gedişinə maneçilik törətdikləri haqqında məlumat verir[67]. Bu çıxışlarda, şübhəsiz, qarətkarlıq ünsürləri var idi, lakin mahiyyət etibarilə onlar ictimai xarakter daşıyırdı.

Lakin qeyd etmək lazımdır ki, XVIII əsrin birinci rübündə Şirvanın ticarət yolları həqiqətən bu və ya digər səbəblər üzündən çox təhlükəli olurdu. Bu barədə P. Butkov haqlı olaraq yazır ki, Hacı Davud tutulub həbs olunana qədər (1719) Şirvanın bütün ticarət yolları hərəkət üçün təhlükəli idi[68].

---

[63]В. А. Уляницкий. Русские консульства за границей в XVIII в., ч. II, М., 1899, приложения 42 и 43; М. Чулков. Историческое описание Российской коммерции, т. II, кн. II, М., 1785, səh. 75 və b. həmin müqavilənin bəndləri əsasan ticarətə aid olduğu üçün bu barədə «ticarət» fəslində danışılacaqdır.

[64] A. Butkov. Göstərilən əsəri, səh. 5.

[65] А. И. Лопухин. Журнал путешествия через Дагестан 1718 г., ЦГАДА, фонд 77. Сношения России с Персией. Bax: История географии и этнографии Дагестана XVIII—XIX вв., М, 1958, səh. 7-8; A. P. Volınskinin jurnalı, səh. 13, 17; P. Butkov. Göstərilən əsəri, səh. 49; Bax: «Заметки к теме военно-административное управление Азербайджаном в XVII—XVIII вв., Azərb. SR EA TİNA, inv. № 860, səh. 2.

[66] Письма А. П. Волынского из Персии к барону П. П. Шафирову, «Русская старина», т. V, 1872, səh. 946.

[67] C. Hanvey. Göstərilən əsəri, səh. 104.

[68] 1719-cu ildə Səfəvilərin nizami ordusu ilə toqquşma zamanı Hacı Davud və Surxay xan məğlubiyyətə uğramışlar. Surxay xan qaçır, Hacı Davud isə tutulub həbs edilir. Bax: P. Butkov. Göstərilən əsəri, I cild, səh. 3; Y. Kozubski. Göstərilən əsəri, səh. 71.

Səfəvi dövlətinin hər tərəfini bürüyən xalq azadlıq hərəkatı və üsyanlar xalqa bir şey vermədisə də şah Soltan Hüseynin taxtdan devrilməsinə bais olan səbəblərdən biri oldu. 1722-ci ildə əfqan qəbilələri İsfahan şəhərini zəbt edərək, şahı taxtdan saldılar. Lakin Şah Soltan Hüseynin oğlu II Təhmasib ölkənin şimal rayonlarına qaçaraq özünü şah elan etdi.

Səfəvi dövlətinin belə bir vəziyyətə düşməsindən həm Türkiyə, həm də çar Rusiyası istifadə edərək Zaqafqaziyada öz fəaliyyətlərini daha da genişləndirməyə başladılar.

1721-ci ildən Türkiyənin köməyi ilə həbsdən qaçmış Hacı Davudla birlikdə Surxay xan Azərbaycanın ən zəngin ticarət mərkəzlərindən biri olan Şamaxıya ikinci dəfə basqın edib şəhərə soxuldular[69]. Şəhər qarət olunduqda burada başqa tacirlər kimi, rus tacirlərinə yenə də böyük ziyan toxundu[70]. XIX əsr rus tarixçisi S. M. Solovyov həmin vaxt rus tacirlərinin 500.000 manatlıq mal itirmələri haqqında məlumat verir[71]. Tezliklə Hacı Davud Türkiyə sultanı tərəfindən Şamaxı və ətraf əyalətlərdə hakim kimi tanındı. I Pyotrun Xəzər dənizi boyu əyalətlərə, xüsusilə Azərbaycana hazırladığı yürüş də elə həmin dövrə təsadüf edir. İsveçlə iyirmiillik müharibəni bitirən I Pyotr tezliklə cənuba - Xəzər boyu əyalətlərə yürüşə başlamaq üçün ciddi tədbirlər gördü. Hazırlıq əməliyyatı il yarım davam etdi[72]. Qeyd etmək lazımdır ki, I Pyotr Volqa-Xəzər ticarətində mühüm rol oynayan Xəzər sahili əyalətləri və xüsusilə ipəkçilik inkişaf edən yerləri ələ keçirmək məqsədini çoxdan güdürdü[73]. Lakin ilk mərhələdə yürüşün əsil səbəbi bu deyildi. XVIII əsrin iyirminci illərində I Pyotrun başlıca məqsədi Zaqafqaziyada fəallıq göstərən Türkiyəyə mane olmaqdan, Zaqafqaziya və Xəzər dənizi sahillərinin türklər tərəfindən zəbt olunması təhlükəsinin qarşısını almaqdan ibarət idi. Bunun Rusiya üçün həm hərbi, həm də böyük iqtisadi əhəmiyyəti var idi[74].

1722-ci ildə I Pyotr tarixi ədəbiyyatda «İran yürüşü» adı ilə məşhur olan yürüşə başladı. Əslində isə bunu «Azərbaycan yürüşü», yaxud da «Zaqafqaziya yürüşü» adlandırmaq daha düzgün olardı.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, həm I Pyotr və həm də II Yekaterina zamanı əsas etibarı ilə Azərbaycanı ələ keçirmək məqsədi ilə başlanmış yürüşlər yanlış olaraq tarixçilər tərəfindən «İran yürüşü» kimi qələmə verilmişdir.

---

[69] АВПР, Ф. Сношения России с Персией, siyahı 77/1, iş 18 (1722), vərəq 57.

[70] Yenə orada, iş 7, vərəq 89.

[71] Vaxtı ilə Rusiya tacirləri arasında ən varlı tacirlərdən sayılan M. Yevreinov 170.000 manatlıq mal itirib müflisləşmişdir. Bax: S. M. Solovyov. Göstərilən əsəri, səh. 672.

[72] Е. В. Спиридонова. Экономическая политика и экономические взгляды Петра I, М., 1952, səh. 213.

[73] В. В. Лебедев. Поход Петра Великого в Персию, ЖМВД, 1848, октябрь, səh. 1-39; Донесение де Кампредона к королю, Петербург, 20 сентября 1723, СИРИО, т. 49, səh. 231.

[74] М. А. Полиевктов. Проект Бругемана и русская оккупация прикаспийских областей в двадцатых годах XVIII в. Bax: Е. С. Зевакин и М. А. Полиевктов. К истории прикаспийского вопроса, Tiflis, 1933, səh. 36.

Burjua şərqşünaslarının buraxdığı bu səhv məfhum çox təəssüf ki, bir sıra sovet alimləri tərəfindən də təkrar edilir[75].

Rus qoşunları 1722-ci ildə Həştərxandan su və quru yolla cənuba doğru hərəkət edərək əvvəlcə Dərbənd[76], Ənzəli və 1723-cü ildə isə Bakı şəhərini[77] tutmaqla, demək olar ki, Xəzər dənizinin qərb sahillərinə tamamilə sahib oldular. Rusiyanın türkləri qabaqlaması 1723-cü ildə onların böyük bir ordu ilə açıqdan-açığa Zaqafqaziyaya soxulmaları üçün bir bəhanə oldu. Ciddi xalq müqavimətinə baxmayaraq[78], Türkiyə qoşunları bir sıra şəhərləri zəbt etməyə nail oldular.

Bir tərəfdən Rusiya və digər tərəfdən Türkiyə dövlətlərinin mənafelərinin Azərbaycanda toqquşması hər iki dövlətin arasındakı münasibətlərin daha da kəskinləşməsinə səbəb oldu. Lakin bu ziddiyyət 1724-cü ildə həmin dövlətlər arasında bağlanılan müqavilə ilə aradan qaldırıldı. Müqaviləyə əsasən, Türkiyə rus qoşunları tərəfindən zəbt olunmuş yerlərin Rusiyanın hakimiyyəti altında qalmasını təsdiq etdi. Türkiyə isə Zaqafqaziyanın böyük bir hissəsini və eləcə də İranın şimali-qərb rayonlarının ələ keçirilməsi haqqında Rusiyanın razılığını aldı[79].

Türk qoşunları Azərbaycanda özlərini bir işğalçı kimi aparır və bununla əlaqədar olaraq xalqın qəzəbi daha da artırdı. Rus qoşunları isə özlərini nisbətən mülayim aparır, yerli əhalinin rəğbətini qazanırdılar[80]. Bir sıra arxiv sənədləri rus işğalı dövründə ticarət sahəsində Bakıdan Gilana nisbətən daha çox gəlir əldə edildiyi haqqında məlumat verir[81]. Buna isə, hər şeydən əvvəl, əhalinin əmin-amanlıq şəraitində yaşaması və ticarət etməsi kömək edirdi.

Beləliklə, 1724-cü ildə Azərbaycan rəsmi olaraq iki böyük dövlət arasında bölünmüş oldu. Belə bir vəziyyət, demək olar ki, 1735-ci ilə qədər davam etdi.

Həmin müddət ərzində İranın daxili vəziyyətində müəyyən qədər dəyişikliklər əmələ gəldi. II Şah Təhmasibin sərkərdəsi Nadirin səyi sayəsində əvvəlcə əfqanların və sonra da türk qoşunlarının hamısı, demək olar ki, Səfəvi dövlətinin ərazisindən sıxışdırılıb geri oturtduruldu. Nadirin türklərlə apardığı

---

[75] В. П. Лысцов. Персидский поход Петра I (1722-1723), М„ 1951; М. Арунова, К. Ашрафян. Государство Надир шаха Афшара, М., 1959", səh. 55 və b.

[76] 1722-ci ildə Dərbənd şəhəri rus qoşunlarının əlinə keçdikdən sonra bir sıra obyektiv səbəblər üzündən I Pyotr Rusiyaya qayıtmalı oldu.

[77] 1722-ci ildə Bakı qalasında yerləşən İran qarnizonu rusların şəhərə daxil olmasına qəti surətdə etiraz etdiyi üçün, rus qoşunları Bakını arxada buraxaraq Xəzər dənizinin cənub sahillərinə doğru hərəkət etmiş və Bakıdan başqa Xəzərin qərb əyalətlərinin hamısını işğal etmişlər. Bakı qalası təqribən bir ildən sonra alınmışdır.

[78] Şeyx Məhəmməd Əli Həzin. Göstərilən əsəri, səh. 153-154 və b.; L. Lokhart. Göstərilən əsəri, səh. 263-265.

[79] P. Sykes. A history of Persia, London 1915, p. 328. L. Lokhart. Göstərilən əsəri, səh. 212; И. Петрушевский. Упадок феодального общества в Иране в XVIII в., səh. 317.

[80] Ə. N. Quliyev. Azərbaycan - Rusiya münasibətləri tarixindən, Bakı, 1958, səh. 21-40.

[81] АВПР, Ф. Сношения России с Персией, siyahı 77/1, iş 8 (1724), vərəq 77.

müharibə zamanı Azərbaycanın ərazisi yenə də döyüş meydanına çevrildi. Bu isə şəhər və kəndlərin dağıdılması və onsuz da acınacaqlı halda yaşayan əhalinin talan olması demək idi. 1730-cu illərin əvvəllərində Cənubi Azərbaycanda olmuş İran tarixçilərindən Şeyx Məhəmməd Əli Həzin yazır ki, vaxtı ilə əhali daha sıx yaşayan Təbriz əyalətindən hazırda bir əsər də qalmamışdır[82].

1730-cu illərə kimi II Şah Təhmasibin hüquqlarını büsbütün məhdudlaşdırıb, Səfəvi dövlətinin idarəsini tamamilə öz əlinə alan Nadir 1732-ci ildə Rəşt şəhərində Rusiya dövləti ilə müqavilə bağlayaraq, Kür çayından cənuba doğru yerləşən Xəzər dənizi əyalətlərindən rus qoşunlarının şimala doğru çəkilmələrinə nail oldu.

Lakin şimali-qərbi Azərbaycanda Türkiyə paşaları və vassalları hələ də hökmranlıq etməkdə idilər. Odur ki, Nadir öz qoşunlarını Azərbaycanın şimal rayonlarına çəkməli oldu. 1734-cü ildəki yürüş zamanı Şamaxı şəhəri alt-üst edilmiş, əhalisi isə Ağsuya köçürülmüşdür[83].

Nadir Şamaxıdan çoxlu əsir və böyük qənimətlə çıxmışdır. XIX əsr tarixçilərindən S. Kişmişev yazır ki, Nadir Şamaxıdan götürdüyü əsirləri Orta Asiya və İranın bazarlarında satmışdır[84].

Nadir, demək olar ki, Zaqafqaziyanın ərazisini tamamilə türk qoşunlarından təmizlədikdən sonra ikinci dəfə Rusiya hökumətinə müraciət edərək Kür çayından şimala doğru yerləşən əyalətlərdən də rus qoşunlarının çəkilməsini tələb etdi. O zaman Rusiya bir tərəfdən gündən-günə qüvvətlənən Nadirin dövləti ilə münasibətlərini pozmamaq, digər tərəfdən beynəlxalq vəziyyətin gərginliyinə görə Nadirin təklifini qəbul etdi. Beləliklə, 1735-ci ildə hər iki dövlət arasında Gəncə şəhərində bağlanılan müqaviləyə görə rus qoşunları tamamilə Azərbaycanın ərazisini tərk etməli oldular[85].

Rus qoşunları Azərbaycanda şimala doğru çəkildikdən sonra, demək olar ki, Nadir ömrünün axırlarına qədər yerli xalqın müqavimətini qırıb özünə tamamilə tabe edə bilmədi. Heç də təsadüfi deyildir ki, Nadir təqribən on il ərzində Azərbaycana dörd dəfə qoşun çəkərək, onun hakimiyyətinə qarşı qalxan xalq hərəkatını yatırmağa səy etmişdir. 1736-cı ildə özünü rəsmi olaraq şah elan edən

---

[82] Şeyx Məhəmməd Əli Həzin. Göstərilən əsəri, səh. 156; К. Ашрафян. Антифеодальные движения в империи Надир шаха (1736-1747), «Ученые записки института Востоковедении АН СССР» т. VIII, 1953, səh. 167.

[83] История о персидском шахе Тахмас Кули-хане, с франц. на русский язык с Решитовым. СПб, 1762, səh. 236-240; A. Bakıxanov. Göstərilən əsəri, səh. 113-114; V. N. Leviatov. Göstərilən əsəri, səh. 101; F. M. Əliyev. Şimali Azərbaycan şəhərləri, Bakı, 1960, səh. 37.

[84] С. Кишмишев. Походы Надир шаха в Герат, Кандагар, Индию и события в Персии после его смерти, Тифлис, 1889, səh. 95.

[85] Сравнение Тахмас Кули-хана с Бонапартом, «Вестник Европы», ч. 79, М., 1815, səh. 145, P. Sayks. Göstərilən əsəri. Səh. 328-329.

Nadir[86] bütün təbəələrlə yanaşı, azərbaycanlıları da istismar etməklə apardığı qanlı müharibələrin xərclərini ödəmək üçün bir sıra tədbirlər həyata keçirdi.

Yenidən İran dövlətinin əsarəti altına düşən Azərbaycan xalqının vəziyyəti daha da pisləşdi[87]. Nadir öz qardaşı İbrahimi Azərbaycanın hakimi təyin etdi.

Rus qoşunlarının Xəzər boyu əyalətləri tərk etmələri ilə Azərbaycana tam hakim olmasını güman edən Nadir daha sonra arxayınçılıqla Hindistana yürüş etdi.

Bu zaman Azərbaycanda İram zülmünə qarşı Şəki, Şirvan və Car əyalətində daha şiddətli xalq üsyanları baş verdi. İbrahim xan bu üsyanları yatırtmaq üçün tədbir gördüsə də heç bir nailiyyət əldə etmədi və hətta özü döyüş meydanında həlak oldu[88].

Hindistan səfəri zamanı Nadir şahı oğlu Rza Qulu Mirzə əvəz edirdi. Müvəqqəti olaraq hakimiyyət başına çıxan şahzadə xalqı daha artıq amansızlıqla istismar etməyə başladı. Mənbələrin birində deyilir ki, Rza Qulu Mirzə Nadir şahın Hindistandan qayıtmasını eşidən kimi xalqdan vergilərdən əlavə, zülm və vəhşiliklə topladığı daha 2 milyon pulu etibarlı əllərə verib, atasından gizlətdi[89].

XVIII əsrin birinci yarısında Azərbaycanda olmuş İ. Lerx Azərbaycanın bir çox şəhər və kəndlərinin viran qaldığının, hər yerdə aclıq, dilənçilik və cürbəcür yoluxucu xəstəliklərin hökm sürdüyünün şahidi olmuşdur[90].

Öyrəndiyimiz dövrün müəlliflərindən olan erməni katolikosu Abram Kretasi 1736-cı ildə bütün Muğan, Təbriz, Gəncə, Naxçıvan, İrəvan vilayətlərində aclıq olmasını və çörəyin çatışmamasını qeyd edir[91]. Belə məlumat da vardır ki, Nadirin özü xalqın bu acınacaqlı vəziyyətindən istifadə edərək, aclıq baş verən yerlərə öz taxılını göndərtdirib, baha qiymətə satdırırmış[92].

Nadirin hakimiyyəti dövründə Azərbaycan xalqının acınacaqlı həyat sürdüyünü 1743-cü ildə Peterburqdan İrana gedən rus konsulu öz məktubunda çox gözəl təsvir edir: «...buranın təbəələri kiçikdən tutmuş böyüyə qədər saysız-hesabsız vergilərin çoxluğundan var-yoxdan çıxmışlar, ticarət tənəzzül etmiş, sənətkarlar və kəndlilər isə müflisləşmişlər, İranın anbarlarında buğda ehtiyatı əsla qalmamışdır. Bundan əlavə, hər yerdə aclıq və dilənçilik hökm sürür, bir çox şəhər

---

[86] L. Lokhart. Nadir Shah, London, 1938, p. 101; Şeyx Məhəmməd Əli Həzin. Göstərilən əsəri, səh. 251-252.

[87] Şeyx Məhəmməd Əli Həzin. Göstərilən əsəri, səh. 204, 222, 229, 231, 246, 247, 253; V. N. Leviatov. Göstərilən əsəri, səh 63-116; İ. P. Petruşevski. Göstərilən əsəri, səh. 314, 325, M. Arunova, K. Əşrəfyan. Göstərilən əsəri, səh. 55-56; K. Əşrəfyan. Göstərilən əsəri, səh. 167-172, 183-194.

[88] Şeyx Məhəmməd Əli Həzin. Göstərilən əsəri.

[89] В. Братишев. Известия о произшедших межлу шахом Надиром и старшим его сыном Рза-Кули Мирзою печальных приключениях в Персии в 1741 - 1742 годов СПб, 1763, səh. 20-21.

[90] K. Z. Əşrəfyan. Göstərilən əsəri, səh. 168.

[91] Абрам Кретаци. История о случившихся с ним событиях и о Надир-шахе персидском (qədim erməni dilindən tərcüməsi Ter-Qriqoryanındır). Azərb, SSR EA TİEA, inv. 2009, səh. 144; И. И. Гербер. Описание стран и городов вдоль западного берега Каспийского моря 1728, ЦГАДА, ф. Ермоловых, iş 315, vərəq 33.

[92] Сравнение Тахмас Кули-хана с «Бонапартом», səh.151.

və əyalətlərin əhalisi dözülməz istismarın əlindən öz yurdlarından qaçmışlar, Təbrizdən Həmədana getdiyim yol boyu bir nəfər də əhalisi olan kənd və obaya rast gəlmədim, İranın başqa yerlərində də vəziyyət belədir, bir sözlə, İran o qədər dağılıb və iş o yerə çatıb ki, böyük şəhərlərdə ərzaq malları həddən artıq bahalaşmışdır...»[93].

Konsul daha sonra sözünə davam edərək yazır ki, xalq vəhşicəsinə əzabdan canını qurtarmaq üçün şaha verdiyi vergilərdən başqa, öz arvad və uşaqlarını da satmalı olur[94]. Nadirin hakimiyyəti dövründə İranda olmuş C. Hanvey: «...bütün İran dözülməz vergilərin ağırlığı altında inləyirdi[95], - deyə xalqın ağır vəziyyətdə yaşaması haqqında məlumat verir.

Şah Soltan Hüseynin dövründə olduğu kimi, əhalinin üzərinə qoyulan vergilərin say və miqdarı yenə də şahın acgözlüyü və şah məmurlarının özbaşınalığı üzündən durmadan artırdı[96]. 1745-1747-ci illərdə ikinci dəfə Azərbaycanda olmuş İ. Lerx yazır ki, Nadir şah şamaxılılardan 150.000 manat vergi tələb etmişdi, lakin sərdar və vergi toplayanlar özlərinə də bir şey qalsın deyə həmin məbləği bir neçə dəfə artırırdılar[97].

Qış zamanı əhalinin vəziyyəti daha da ağırlaşırdı. Özlərinə doyunca bir qarın çörək tapa bilməyən hər bir ailəyə qış vaxtı öz evində saxlayıb yedirtmək üçün bir və ya daha artıq əsgər təhkim edilirdi[98].

Həmin sərbazlar ağır güzəran keçirən ailəyə bir yük olurdu. C. Hanveyin yazdığına görə, minlərlə adam vergilərin ağırlığından baş götürüb dağlara qaçırdılar, belə ki, bir çox kənd və şəhər tamamilə boşalmışdı[99]. Şəhər və kəndlərdəə qaçanların bir hissəsi dəstələr təşkil edərək, karvan yollarında qarətlə məşğul olurdular[100]. Bu isə yuxarıda qeyd edildiyi kimi, şəhərlər arasındakı gediş-gəlişə böyük maneçilik törədirdi. Keçid yollarının təhlükəli olması şəhərlərdə ticarətin boğulmasına, aclıq və bahalığın artmasına səbəb olurdu. Lakin Nadir şah ticarətdən əldə edilən böyük mənfəəti nəzərə alaraq ticarəti canlandırmaq məqsədi ilə bir sıra tədbirlər həyata keçirməli oldu (bu barədə ticarət fəslində bəhs ediləcəkdir).

---

93 Донесение русского консула из Персии в Государственную коллегию иностранных дел о голоде, нищете и разорении принесенных персидским шахом на подвластные ему народы, Государственный архив Астраханской области (ГААО), fond 394, siyahı 4, iş 8, vərəq 16-17.

94 Донесение русского консула из Персии в Государственную коллегию иностранных дел о голоде, нищете и разорении принесенных шахом на подвластные ему народы, Государственный архив Астраханской области (ГААО), fond 394, siyahı 4, iş 8, vərəq 7.

95 C. Hanvey. Göstərilən əsəri, səh. 413.

96 SSRİ EA. Asiya xalqları İnstitutunun əlyazmalar şöbəsi, iş 430, vərəq 45 və b.

97 И. Лерх. Сведении о втором путешествии в Персию, совершенном в 1745-1747 гг. (alman dilindən tərcüməsi Abezquzundur), Azərb, SSR EA TİEA, inv. 482, səh. 64.

98 История о персидском шахе Тахмас Кули-хане, səh. 231.

99 C. Hanvey. Göstərilən əsəri, səh. 412.

100 Şeyx Məhəmməd Əli Həzin. Göstərilən əsəri, səh. 124; C. Hanvey. Göstərilən əsəri, səh. 104; K. Z. Əşrəfyan. Göstərilən əsəri, səh. 169.

Lakin yuxarıda qeyd edilənlərdən elə nəticə çıxarmaq olmaz ki, Azərbaycan xalqı İran dövlətinin zülmünə qatlaşmış və Nadir şaha dinməz itaət etmişdir. Azərbaycanın bir çox yerlərində baş verən azadlıq hərəkatı xalqın İran zülmünə qarşı apardığı mubarizənin parlaq təzahürüdür [101]. Tarixi ədəbiyyatda qəbul olunduğu kimi, Azərbaycan xalqı 1747-ci ildə, yəni Nadir şah öləndən sonra deyil, elə Nadir şahın yaratdığı imperiya dağılmamış İran zülmünə qarşı çıxaraq qəhrəmancasına azadlıq mübarizəsi aparmış və müəyyən müvəffəqiyyətlər əldə etmişdir. Nadir şahın ölümü ilə əlaqədar olaraq İran dövlətinin dağılması xalqın azadlıq mübarizəsinin daha da sürətlənməsinə səbəb olmuşdur. Nəticədə Azərbaycan xalqı illərdən bəri itirdiyi müstəqilliyini yenidən əldə etməyə nail olmuşdur.

Beləliklə, XVIII əsrin birinci yarısında Azərbaycanın daxili vəziyyətindən qısa şəkildə bəhs edilib, dövrün bir sıra səciyyəvi xüsusiyyətləri göstərildi. Həmin dövrdə ölkənin ticarətindun bəhs edərkən mütləq bu xüsusiyyətlər nəzərə alınmalıdır. Çünki qeyd edildiyi kimi, XVIII əsrin birinci yarısında Azərbaycanın ticarətinin vəziyyətinə təsir göstərən amillərdən biri də elə ölkədə baş verən siyasi hadisələr idi. Məhz bunu nəzərə alaraq XVIII əsrin birinci yarısının bir sıra əsas xüsusiyyətlərini qeyd etmək lazımdır;

Bu dövr tarixən qısa da olsa çox mürəkkəb siyasi-ictimai hadisələrlə əlamətdardır. XVII əsrin axırlarından başlamış XVIII əsrin ortalarına qədər olan müddət ərzində Səfəvi dövlətinin tərkibində olan Azərbaycanın təsərrüfat geriliyi getdikcə daha da artmışdır. Həmin dövr şah zülmü və feodal istismarına qarşı qalxan azadlıq hərəkatına, Rusiya ilə Türkiyənin xarici siyasətlərinin Azərbaycanda toqquşmasına, 1724-cu ildə Azərbaycanın həmin dövlətlər arasında bölünməsinə təsadüf edir;

1724-1735-ci illər arasında Azərbaycanın şimal və cənub-qərb hissələri türklərin zülmü altına düşmüş, Xəzər dənizi əyalətlərində yaşayan azərbaycanlılar isə rus dövlətinin himayəsinə keçmişlər. Türklər Azərbaycan torpaqlarını, yerli xalqın müqavimətini qıra-qıra ələ keçirdikləri halda, rus qoşunları, demək olar ki, Bakıdan başqa heç bir müqavimətə rast gəlməmişlər. Daha sonra türklər hökmranlıq edən yerlər Türkiyə — İran arasında gedən müharibələr zamanı döyüş meydanına çevrildiyi halda, rusların tutduqları yerlərdə əmin-amanlıq işləri aparılmış və eyni zamanda Azərbaycanın Rusiya ilə ticarətinin bərpa olunması və

[101] Mirzə Mehti xan Astrabadi. Göstərilən əsəri, səh. 133; Məhəmməd Kazım. Göstərilən əsəri, III cild, səh. 126, 130; P. Sayks. Göstərilən əsəri, səh. 362; Реляция русского консула в Персии Астраханскому губернатору В. Н. Татищеву о распространении Ширванского мятежа (1743 г.), ГААО, fond 394, siyahı 1, iş 92, vərəq 120; Реляция русского консула в Персии Астраханскому губернатору В. Н. Татищеву о посылке персидским шахом воиска в Азсрбаиджанскую сторону для поддерживания порядка, ГААО, fond 394, siyahı 1, iş 32, vərəq 121-122; K. Z. Əşrəfyan. Göstərilən əsəri, səh. 166-204 və b.

genişlənməsi üçün bir sıra tədbirlər görülmüşdür. Bu barədə rus çinovniklərinin Peterburqa yazdıqları təkliflər, rus dövlətinin zəbt etdiyi yerlərdə nə kimi siyasət yürütdüyünü bir daha göstərdi: «Bakı ətrafında başlı-başına buraxılmış karvansaralar bərpa olunmalıdır; (şəhərdən) qaçmış əhaliyə günahlarından keçəcəyimizə boyun olub qayıtmalarına nail olmalı; müxtəlif vədlərlə erməni və hindliləri Şamaxıdan (Bakıya) cəlb etmək və Bakını bütün ticarətin düyüm nöqtəsinə çevirmək lazımdır»[102].

1734-1735-ci illərdən başlamış, yəni Azərbaycanı türk və rus qoşunları tərk etdikdən sonra, Azərbaycana yenidən hakim olmaq istəyən İrana qarşı xalq azadlıq hərəkatı yeni qüvvə ilə alovlanmışdır və bu mübarizə ən nəhayət, azərbaycanlıların öz istiqlaliyyətlərini yenidən əllərinə almaqla nəticələnmişdir[103].

## II FƏSİL

## DAXİLİ TİCARƏT

XVIII əsrin birinci yarısında üç böyük dövlətin siyasi və iqtisadi mənafelərinin toqquşması ilə əlaqədar olaraq Azərbaycan ərazisinə İran, Türkiyə və Rusiya qoşunlarının müdaxiləsi, İran şahlarının iqtisadi və mənəvi təzyiqləri, əhaliyə edilən ikiqat istismar, şübhəsiz, ölkənin iqtisadiyyatına ağır zərbə endirirdi. Lakin buna baxmayaraq, Azərbaycanın zəngin təbiəti, Avropa ilə Asiya arasındakı əlverişli coğrafi mövqeyi ölkənin iqtisadiyyatının mühüm sahələrindən biri olan ticarətin aparılması üçün az da olsa şərait yaradırdı. Ölkənin ən ağır günlərində belə bəzi tacirlər ticarət üçün öz yurdlarını tərk edib, başqa ölkələrə gedirdilər[104].

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, orta əsrlərdə ticarət ən gəlirli qazanc mənbələrindən biri olduğu üçün bu və ya digər ölkələr arasında baş verən müharibələr nəticəsində ticarətin müvəqqəti olaraq dayandırılması hər iki tərəfin gəlirinin azalmasına səbəb olurdu. M. Çulkov yazır ki, belə hallarda müharibə edən dövlətlər öz aralarında danışıq apararaq ticarət karvanlarının gediş-gəlişinə maneçilik törətmirlər[105].

Bu barədə C. Hanvey də maraqlı məlumat verir: «Türklərlə iranlılar ticarət münasibətlərində o qədər xeyir əldə edirdilər ki, onların arasında bağlanılan

---

[102] И. Г. Гербер. Замечания клонящиеся к истинной выгоде Вашего Величества в тех завоеванных персидских провинциях, которые по персидским трактатам остались за его Величеством Всероссийским. Bax: М. А. Полиевктов. Проект хозяйственной эксплоатации оккупированных в XVIII в. Россией прикаспийских областей Кавказа. Материалы по истории Грузии и Кавказа, вып. IV, Тбилиси, 1937, səh. 283.

[103] Г. Б. Абдуллаев . Из истории северо-восточного Азербайджана в 60—80 гг. XVII в., Бакы, səh. 11; F. M. Əliyev. Şimali Azərbaycan şəhərləri, səh. 5.

[104] C. Hanvey. Göstərilən əsəri, səh. 413.

[105] M. Çulkov. Göstərilən əsəri, II cild, II kitab, səh. 596.

qarşılıqlı müqavilə sayəsində həmin dövlətlərin bir-biri ilə apardıqları uzun-uzadı müharibələr zamanı belə (ticarət) karvanlarına toxunulmurdu»[106].

Əlbəttə, belə bir müqavilənin olması həqiqətə uyğun olsa da, onun müharibə edən ölkələrin qoşunları tərəfindən soyuqqanlıqla həyata keçirilməsi çox şübhəlidir. Lakin bununla belə ayrı-ayrı dövlətlərin belə hallara yol verməsinin özü ticarətin bu və ya digər ölkənin iqtisadiyyatı və maddi bazası üçün nə kimi rol oynadığını aydın göstərir. Məlum olduğu kimi, ölkənin təsərrüfat həyatında feodal istehsal üsulu hökm sürdüyü bir dövrdə şəhərlərin iqtisadi bazasını əsas etibarı ilə sənətkarlıq və ticarət təşkil edirdi. Lakin ibtidai və kustar üsulla aparılan sənətkarlığa nisbətən ticarətin bir sıra üstünlüyü var idi. Əvvələn, sənətkarlar əsas etibarı ilə daxili bazarın ehtiyacını ödədikləri halda, tacirlər onların hazırladıqları əşyanı xarici bazarlara çıxarırdılar; ikincisi, sənətkarlıqla yalnız yerli sənətkarlar məşğul olduqları halda, ölkənin ticarətinin inkişafında yerli tacirlərdən (sövdəgərlərdən) əlavə, xarici ölkələrin tacirləri də əhəmiyyətli rol oynayırdılar; üçünçüsü, xarici bazarda sənətkarların hazırladıqları mallara nisbətən, xammala daha çox ehtiyac olduğu üçün, ticarətdən daha artıq qazanc əldə edilirdi.

Bütün bu amillər orta əsrlərdə şəhər təsərrüfatında ticarəti ön sıraya çıxarırdı. Yaxın və Orta Şərq ölkələrində olduğu kimi, Azərbaycanda da ticarət əsas etibarı ilə şəhərlərdə aparılırdı. Lakin XVIII əsrin birinci yarısında ölkə vahid dövlət halında olmadığı üçün, onun vahid iqtisadi mərkəzi də yox idi.

Şübhəsiz, belə olduqda XVIII əsrin birinci yarısının ticarətindən bəhs edərkən təmərküzləşmiş yeganə bazar haqqında danışmağa da dəyməz.

V. İ. Leninin hələ iqtisadi cəhətcə vahid dövlət halına düşməmiş Rusiya üçün söylədiyi sözləri XVIII əsrin birinci yarısındakı Azərbaycana tamamilə tətbiq etmək olar: «...dövlət ayrı-ayrı «torpaqlara», qismən də, hətta knyazlıqlara bölünmüşdü ki, bunlar da keçmiş muxtariyyətin canlı izlərini idarə etmək xüsusiyyətlərini, bəzən öz xüsusi qoşunlarını..., gömrük sərhədlərini və i. a. saxlamışdı»[107]. V. İ. Lenin bütün belə vilayətlərin, torpaqların və knyazlıqların birləşməsindən bəhs edərək yazırdı ki, «buna səbəb vilayətlər arasında güclənməkdə olan mübadilə, tədriclə artmaqda olan əmtəə tədavülü, kiçik yerli bazarların bir Ümumrusiya bazarı halında təmərküzləşməsi idi»[108].

Azərbaycanda isə öyrəndiyimiz dövrdə belə bir tarixi proses olmamışdır. Ölkə siyasi və iqtisadi cəhətdən pərakəndə bir şəkildə idi.

Lakin buna baxmayaraq, Azərbaycanın ayrı-ayrı şəhərləri ya özünün

---

[106] C. Hanvey. Göstərilən əsəri, səh. 7.

[107] V. İ. Lenin. «Xalq dostları» nədir və sosial-demokratlara qarşı onlar necə mübarizə edirlər, əsərləri I cild, səh.149.

[108] Yenə orada.

tutduğu əlverişli coğrafi mövqe və yaxud da istehsal etdiyi malların sayəsində həm daxili, həm də xarici ticarətdə əhəmiyyətli rollardan birini oynayırdı.

Avropadan Asiyaya gedən tranzit ticarət yolunda yerləşən Azərbaycan hələ xeyli qədimdən Avropa və Yaxın Şərq ölkələrinin siyasi və iqtisadi həyatında mühüm rol oynamışdır. Məhz buna görə də təsadüfi deyildir ki, vaxtı ilə Azərbaycanda müvəqqəti olaraq hökmranlıq edən farslar, ərəblər, türklər, monqollar ölkəni soyub talan etdikləri halda, karvan yollarının bərpa olunmasına, ticarət yollarında karvansaraların inşa və bərpa edilməsinə, çayların üzərində körpülər salınmasına və s. bu kimi məsələlərə böyük əhəmiyyət verirdilər.

Karvan yollarında külli miqdarda tikilmiş karvansaraların qalıqları, körpülər, ticarət meydanları, ovdanlar və s. vaxtı ilə Azərbaycanda qızğın ticarət aparılmasının canlı şahididir[109].

XVIII əsrin axırı və XIX əsrin əvvəllərinin müəllifi P. Zubov Azərbaycanın ticarət əlaqələrindən bəhs edərkən Azərbaycan şəhərlərində hələ xeyli qədimdən qızğın ticarət getdiyini göstərir və bunu bütün yol boyu uzanıb gedən karvansaraların qalıqları ilə sübut edir [110]. XVIII əsrin iyirminci illərində Azərbaycanda olmuş Con Belin yazdığına görə, Azərbaycan ərazisində çox böyük karvansaralar olmuşdur. O düşdüyü karvansarada 500 adam var imiş[111]. Korneli de Bruin Şamaxıda ikinci mərtəbəsində 40 otaq olan bir karvansarada yaşaması barədə xəbər verir[112].

Ticarət əsasən şəhərlərdə aparıldığı üçün karvan yolları da bu və ya digər şəhərdən keçirdi. Lakin ticarət əhəmiyyəti daha böyük olan şəhərlərdən bir deyil, müxtəlif istiqamətlərə bir neçə karvan yolları keçirdi. Məsələn, Təbrizdən təkcə şimala doğru 4 yol gedirdi[113].

Təbriz – Mərənd - Culfa.

Təbriz - Cəbrail.

Təbriz - Biləsuvar.

Təbriz - Astara.

Lakin bunlardan daha rahat və əlverişlisi Təbriz - Mərənd - Culfa yolu olduğu üçün adətən karvanların çoxu elə həmin yoldan keçirdi.

Təbrizdən Qara dəniz vasitəsi ilə Avropaya gedən yol Naxçıvandan

---

[109] ЦГАДА, фонд Ермоловых, siyahı 1, iş 322, vərəq 67; Ч. Бел. Велегш путешествил через Россию в разные Азиатские земли, а именно в Испаган, в Пекин, в Дербент и Константинополь, перевел с франц. М. Попов, СПб, 1776, səh. 52-53; И. Лерх. Сведения о втором путешествии в Персию, совершенном в 1745-1747 гг. (перевод с немецкого Абезгуза), Azərb. SSR EA TİEA, inv. 489, səh. 56.

[110] П. Зубов. Картина Кавказского края принадлежащего России и сопредельных к нему земель, СПб, ч. III, 1838, səh. 67.

[111] C. Bel. Göstərilən əsəri, səh. 52.

[112] Korneli de Bruin. Göstərilən əsəri, səh. 12.

[113] А. В. Фон-Гребнер. Торговые дороги Закавказья, СПб, 1896, səh. 46.

keçirdi. Bu yol ən qısa yollardan biri sayılırdı[114]. Naxçıvan və Culfa tərəfdən Araz çayının üzərindən keçən körpülər bu yolu xeyli rahatlaşdırırdı[115].

Avropa ilə bir çox Yaxın Şərq ölkələrini birləşdirən Təbriz - Mərənd - Culfa - Naxçıvan və b. şəhərlərdən keçən yollardan əlavə, Azərbaycan ərazisindən digər yollar da keçirdi. Bu yollardan birini M. V. Fexner özünün «XVI əsrdə rus dövlətinin Şərq ölkələri ilə ticarəti» adlı kitabında göstərmişdir. Doğrudur, M. V. Fexnerin məlumatı nisbətən əvvəlki dövrə aiddir. Lakin öyrəndiyimiz dövrdəki yolların XVIII əsrdə deyil, daha əvvəllər çəkildiyini nəzərə alaraq, XVI əsrdə Azərbaycan şəhərlərindən keçən karvan yollarını göstərmək olar. XVI əsrdə Rusiyadan İrana gedən yol aşağıdakı şəhərlərdən keçmişdir[116]:

| **Şəhərlərin adı** | **Məsafə, kmlərlə** | **Yol, gün hesabı ilə** | | **Cəmi** |
|---|---|---|---|---|
| | | **gəmilərdə** | **karvanlarda** | |
| Moskva-Həştərxan | 3312 | 40 | - | 40 |
| Həştərxan-Nizabad | təqribən 650 | 7-9 | - | 7/9 |
| Nizabad-Şabran-Şamaxı | 110 | - | 7 | 7 |
| Şamaxı—Ərdəbil | 325 | - | 10 | 10 |
| Ərdəbil-Qəzvin | 350 | - | 11-11 | 11—12 |
| Qəzvin-Hörmüz | 1200 | - | 42 | 42 |

Bəzən ticarət karvanları Rusiyadan Azərbaycana yalnız karvan yolları ilə gəlirdi. Çox güman ki, belə hallar yalnız qış aylarında Həştərxan limanı donduğu zaman baş verirmiş.

Həştərxandan Azərbaycana aşağıdakı karvan yolları ilə mal gətirilirdi[117]:

| **Şəhərlərin adı** | **Məsafə. kmlərlə** | **Yol, gün hesabı ilə** | | **Cəmi** |
|---|---|---|---|---|
| | | **karvanla** | **arabalarla** | |
| Həştərxan-Terek şəhərciyi | təqribən 450 | - | təqribən 10 | 10 |
| Terek şəhərciyi-Tərki | 240 | 5 | 1 | 6 |
| Tərki-Dərbənd | 140 | - | 3 | 3 |
| Dərbənd-Şabran | 170 | 6-8 | - | 6-8 |
| Şamaxı | təqribən 1000 | 11-13gün | 14 gün | gün |

[114] Передняя Азия в документах, Серия памяти проф. Ю. Н. Марра, кн. 1. Нахичеванские рукописные документы XVII-XIX вв., Тифлис 1936, səh. 10.
[115] М. Велиев. Азербайджан, (Физико-географический, этнографический и зкономический очерк), Бакы, 1921, səh. 158.
[116] М. В. Фехнер. Торговля русского государства со странами Востока в XVI веке, М., 1952, səh. 36.
[117] M. V. Fexner. Göstərilən əsəri, səh. 41.

M. V. Fexnerin XVI əsr üçün göstərdiyi karvan yolları XVIII əsrin birinci yarısında da mövcud idi. Bunu 1730 və 1740-cı illərdə iki dəfə Azərbaycanda olmuş İ. Lerxin verdiyi məlumatlardan müəyyən etmək olar. İ. Lerxin yazdığına görə həmin dövrdə Avropa ilə Şərq ölkələri arasında ticarət əsasən aşağıdakı karvan yolları ilə aparılırdı[118].

Həştərxan – Qızlar - 1500 verst
Qızlar - Tərki
Tərki - Dərbənd -115 «
Dərbənd – Bakı – 231 «
Bakı – Şamaxı -145 «
Şamaxı – Cavad – 45 «
Cavad - Lənkəran – 164 «
Lənkəran - Rəşt – 222 «

Lakin XVIII əsrdən etibarən Rusiyanın Xəzər dənizindəki fəaliyyəti çoxaldıqdan sonra Azərbaycana gələn karvan yollarının əhəmiyyəti nisbətən azaldı. Buna eyni zamanda Azərbaycana Türkiyə və İran tərəfindən edilən ardı kəsilməyən silahlı basqınlar da böyük təsir göstərmiş oldu. Lakin buna baxmayaraq, Azərbaycanın bir çox şəhərləri, xüsusilə Şamaxı, Təbriz, Gəncə, Bakı, Ərdəbil və başqaları yenə də karvan yollarının düyüm nöqtəsi kimi fəaliyyətdən qalmırdı. Həmin şəhərlər arasında Bakı daha əlverişli mövqe tuturdu. Bu şəhər həm karvan yollarının üstündə yerləşirdi, həm də gözəl təbii limana malik idi.

Bakıda olmuş bir çox orta əsr səyyahları onun məşhur şəhər olduğunu[119], əlverişli limanda yerləşdiyini, yüksək keyfiyyətli ağ və qara neft, eləcə də duz və zəfəranla zəngin olduğunu göstərirlər[120]. XVIII əsrin əvvəllərində Bakıda olmuş fransız missionerlərindən Maz, Başu, Fleriu və başqaları öz xatirələrində yazırlar ki, bəzən Xəzər dənizi «Bakı dənizi» də adlandırılırdı. Bu isə Bakı şəhərinin Xəzər dənizi vasitəsi ilə aparılan ticarətdə nə kimi mövqe tutduğunu bir daha göstərir. Onlar yazırlar: «Bakı... Xəzər dənizinin sahilində yerləşir, (şəhər) öz adını bu dənizə verdiyi üçün onu Bakı dənizi də adlandırırlar»[121].

---

[118] İ. Lerx. Göstərilən əsəri, səh. 461.
[119] Yenə orada, səh. 129.
[120] Korneli de Bruin. Göstərilən əsəri, səh. 50; İ. Lerx. Göstərilən əsəri, səh. 61; J. Sook. Voyages and travels through the Russion Empire Tartary, and Part of the Kingdom of Persia, p. 379-383; Bax: S. B. Aşurbəyli. Баку XVI-XVIII в. по описаниям путешественников, «Изв. АН Азерб. ССР», № 1, 1947, səh. 70; C. Hanvey. Göstərilən əsəri, səh. 261; Донесение французского полномоченного министра де Кампредона к королю 20 сентября 1723 г., СИРИО, т. 49, səh. 384.
[121] Выдержки из Letters curieuses et edifianters etc (de le Maze, Bachond, Fleurian etc) (tərcüməsi Abezquzundur) Azərb. SSR EA TİEA, inv. 471, səh. 17. Müqayisə et: Путешествие одного миссионера (Voyages d'un Missionnaire de le compagine de Jesus (tərcüməsi Abezquzundur), Azərb. SSR EA TİEA, inv. 474, səh. 10.

Həmin missionerlər şəhərin sərvətini belə təsvir edirlər: «Onun (Bakının) ətrafı yumşaq torpaqdan ibarətdir və zəfəranla çox zəngindir, lakin onun (əsas) neməti faydalı qazıntılardan ibarətdir. Bunları quyular təşkil edir ki, onlardan da o qədər çox mənfəətli neft çıxarırlar ki, şahın (bu sahədə) ildə aldığı gəlir 12.000 tümənə və ya 600.000 abbasıya çatır, abbası təqribən 20 suya, tümən isə 50 livrə bərabərdir»[122].

Bakıda ibtidai üsulla istehsal olunan neft təkcə Azərbaycanda istifadə edilmirdi. Tuluqlara doldurulmuş Bakı nefti hər gün at, qatır, dəvə və yaxud da gəmi karvanları vasitəsi ilə uzaq şəhərlərə aparılıb baha qiymətə satılırdı[123]. Fransız missionerləri Bakı nefti haqqında da maraqlı məlumat verirlər: «Neft bir növ yağdır, su ilə birlikdə yerdən çıxarılır, lakin sonra onu ayırıb, kanallar vasitəsi ilə axıdırlar. O (neft) qara və ağ olur. Ağ yüksək qiymətləndirilir, daha yaxşı satılır və xaricə aparılır; qaradan isə yerlərdə istifadə olunur, ona (əhalinin) heyfi gəlmir, baş barmağın qalınlığında fitillə onu lampalarda yandırırlar»[124].

Bəhs etdiyimiz dövrə aid olan mənbələrin birində yazılmışdır: «Bakının ətrafında çoxlu miqdarda neft bulaqları vardır. Bu, bir növ qara və çox asanlıqla yanan yer yağıdır.... Mən bulaq suyuna bənzərini də görmüşəm»[125]. Məlumdur ki, neft heç də yerdən şəffaf halda çıxmır. Lakin yuxarıda misal gətirdiyimiz gəlmələrin müəllifi C. Bel «bulaq suyuna bənzər» neftin mövcud olduğunu xəbər verir. Çox güman ki, C. Bel bu sözləri yazdıqda ağ nefti (kerosini) nəzərdə tutur. Buradan elə bir nəticəyə gəlmək də olar ki, yerli əhali nefti ayırmaq yolu ilə ondan şəffaf rəngli ağ neft alırmış. Bu barədə səyyah İ. Lerx də məlumat verir. O yazır ki, əhali nefti ayırmaqla ondan «spirtə» bənzər ağ neft alır. Şübhəsiz, İ. Lerx burada adi kerosini nəzərdə tutmuşdur. Müəllif neftin xüsusiyyəti haqqında belə məlumat verir: «Neft tez yanmır, o tünd qonur rəngdədir, amma, o, ayrılarkən açıq sarı rəngə çalır. Ağ neft bir qədər bulanıqdır. Lakin ayrılıqda spirt kimi şəffaf olur və çox tez alovlanır»[126]. Başqa bir mənbə də hələ XVIII əsrin əvvəllərində bakılıların nefti ayırıb, ondan şəffaf yanacaq aldığını göstərir. XVIII əsrin ilk çağlarında Bakıda olmuş fransız missionerlərindən biri yazır ki, neft «...araq kimi alovlanır və hər şeyi yandırır»[127].

---

[122] Выдержки из Letteres curieuses et edifianters etc (de le Maze, Bachond, Fleurian etc) (tərcüməsi Abezquzundur) Azərb. SSR EA TİEA, inv. 471, səh. 17. Müqayisə et: Путешествие одного миссионера (Voyages d'un Missionnaire de le compagine de Jesus (tərcüməsi Abezquzundur), Azərb. SSR EA TİEA, inv. 474, səh. 10.

[123] Дж. Спилман. Путешествие через Россию в Персию двух английских джентльменов, которые отправились в 1739 году, имея цель изучения того, каким образом может вестись из Астрахани по Каспийскому морю торговля Великобритании (перевод с англ. Абезгуза) НАИИ, инв. 483, səh. 10; Bax: S. Aşurbəyli. Göstərilən əsəri, səh. 69.

[124] «Выдержки...», səh. 14.

[125] C. Bel. Göstərilən əsəri, səh. 49.

[126] İ. Lerx. Göstərilan əsəri, səh. 85.

[127] Путешествие одного миссионера...., səh. 6.

Əsas etibarı ilə qabaqcıl Qərbi Avropa ölkələrindən gəlmiş səyyahların neft haqqında söylədikləri fikirlərdən belə bir qənaətə gəlmək olar ki, Azərbaycanda yerli əhali hələ XVIII əsrin əvvəllərində nefti ayırıb, ondan kerosin aldığı halda, bəzi Avropa ölkələrində neft haqqında mükəmməl təsəvvür belə yox idi.

Çox güman ki, kənd təsərrüfatında olduğu kimi, neft işində çalışan rəiyyətlər də ağır istismara düçar olurdular. Bunu aşağıdakılar bir daha sübut edir.

Şah Soltan Hüseynin 1711-ci ildə verdiyi fərmandan[128] məlum olur ki, Bakının neft və duz mədənlərini icarəyə vermişdir. Məlumdur ki, icarədar dövlət xəzinəsinə verdiyi pulun ödənilməsi və bu işdən ikiqat və daha artıq gəlir əldə etmək üçün mövcud olan istismarı daha da şiddətləndirəcəkdir.

XVIII əsrin birinci yarısında Bakı ətrafında böyük zəfəran sahələrinin, çoxlu neft quyularının olması və eyni zamanda bu şəhərin məhsullarına bir çox yerlərdə böyük ehtiyac olması haqqında səyyah Con Kuk da məlumat verir. O yazır: «Burada böyük sahələrdə zəfəran əkilmişdir... Əhali quru torpaq və ya qumla qatışdırılmış neftdən savayı, başqa yanacaqdan istifadə etmir. Neft və zəfəran bu şəhərin əsas ticarət mallarını təşkil edir. Xəzər dənizi boyu yerləşən vilayətlərin çoxunda qara neftdən əlavə, başqa yanacaqdan istifadə edilmir; onlar (əhali) onu lampalarda yandırırlar»[129].

Abşeronda əkilən pambıq və yetişdirilən baramalar şəhərdə toxuculuğun müəyyən qədər inkişafına kömək etmişdi. Belə ki, Bakı bazarında gətirilmə mallardan başqa neft, zəfəran, duzla yanaşı, Bakıda toxunulmuş müxtəlif parçalar, xüsusilə xalça, palaz və bez də satılırdı[130].

XVIII əsrin birinci yarısında ticarət sahəsində Azərbaycan şəhərləri arasında Şamaxı da mühüm yerlərdən birini tuturdu.

Azərbaycanın ən qədim şəhərlərindən biri sayılan Şamaxı Qərbdən Şərqə gedən karvan ticarət yollarının düyüm nöqtəsində yerləşirdi. Mənbələrdə Şamaxı şəhərinin Asiya və Avropa tacirləri ilə qızğın ticarət aparması haqqında zəngin məlumat vardır[131]. Məhz buna görə də Şamaxı şəhəri təkcə Azərbaycan və ya Zaqafqaziyada deyil, habelə beynəlxalq miqyasda aparılan ticarətdə də əhəmiyyətli rol oynayırdı. Şamaxı şəhərinin ticarət aləmində belə bir mövqe tutmasında yüksək keyfiyyətli Şirvan ipəyinin mühüm rol oynadığını xüsusilə qeyd etmək lazımdır. 1715-1722-ci illər arasında iki dəfə Şamaxıda olmuş C. Bel şəhəri belə təsvir edir: «Şamaxı şəhəri qırxıncı şimal enliyində yerləşir. Qədimdə o, Midiyanın bir hissəsini təşkil edirdi. Hazırda isə Şirvan adlanan böyük bir əyalətin paytaxtıdır. Şəhər dağın ətəyində amfiteatr şəklində salınmışdır... O (Şamaxı), böyükdür, lakin

---

[128] AKAK Tiflis, II cild, I cildə əlavə. səh. 1077.

[129] S. B. Aşurbəyli. Göstərilən məqaləsi, səh. 70.

[130] QAAO, fond 394, iş 539, vərəq. 18.

[131] C. Bel. Göstərilən əsəri, səh. 60; «Выдержки...», səh. 21, Bax: S. Aşurbəyli. Göstərilən məqaləsi, səh. 68.

canişinin, hakimin[132] və bəzi varlı tacirlərin evlərindən başqa (şəhərdə) evlər pis tikilmişdir. Onun küçələri dar və əyridir. Şəhərin əsas əhalisini iranlılar təşkil edirlər[133]. Orada həmçinin varlı kürsü və ermənilər vardır. Yerli əhali türk dilində, məmurlar isə fars dilində danışırlar»[134].

Müəllif daha sonra şəhərin ticarətindən bəhs edərək yazır: «Bu şəhərdə (Şamaxıda) xüsusilə xam ipəklə böyük ticarət aparılır. Ətraf qəzalardan toplanan xam ipək ingilislərin və hollandiyalıların İsfahanda təsis etdikləri şirkətlər tərəfindən alınır və böyük bir qismi Hələb şəhərinə göndərilir. Burada (Şamaxıda) həmçinin pambıq da satılır. Lakin yerli əhali onu özü alır və ondan müxtəlif parçalar toxuyur»[135].

Şamaxı ətrafında yetişdirilən buğda, arpa, üzüm və bir çox müxtəlif meyvələr[136] də şəhər bazarına gətirilirdi. Xristianlar Şamaxı üzümündən dadlı şərab hazırlayırdılar[137].

Bəzi səyyahlar Şamaxı şəhərində eyni zamanda xəz və dəri ilə güclü ticarət aparıldığını söyləyirlər[138]. Tülkü xəzi əsas etibarı ilə Həştərxan vasitəsi ilə Rusiyaya, eləcə də Ərzurum vasitəsi ilə Türkiyə və oradan da Qərbi Avropa ölkələrinə aparılırdı[139].

Fransız missionerləri Şamaxı şəhərinin beynəlxalq ticarətindəki rolundan bəhs edərək yazırlar: «Bu şəhər böyük ticarət şəhəridir. Moskvadan və İrandan gətirilən malların saxlanıldığı yerdir. Rusların (Moskovitlərin) burada karvansaraları və ya mağazaları vardır. Onlar öz ölkələrindən buraya qalay, mis, xəz və s. mallar gətirirlər. İranlılar və hindlilər oraya (Şamaxıya) ipək və pambıq parçalar, zərxara, zərbafta və ipək saplar gətirirlər. Tatarlar (Şamaxı bazarında) at və qul satırlar[140]. Fransız missionerləri Şamaxıda olarkən, görünür, şəhərdə güclü ticarət gedirmiş. Çünki onlar orada bir çox xarici ölkələrdən gəlmiş tacirlərə təsadüf etmələrindən bəhs edirlər. «Şamaxıda həmişə müxtəlif xalqların nümayəndələri olur, bu şəhər Rusiyadan və Polşadan İrana keçid yoludur»[141]. Həmin missionerlər fikirlərini tamamlayaraq, Şamaxının beynəlxalq ticarətdə tutduğu mövqeyi haqqında belə yazırlar:

---

[132] Məhkəmə hakimi nəzərdə tutulmuşdur.
[133] Bir çox orta əsr müəllifləri kimi C. Bel də, Azərbaycan o zaman İran hakimiyyəti altında olduğu üçün, azərbaycanlıları iranlı adlandırır.
[134] S. Bel. Göstərilən əsəri, səh. 59; Bax: «Выдержки...», səh. 22.
[135] C. Bel. Göstərilən əsəri, səh. 60.
[136] C. Bel. Göstərilən əsəri, səh. 60; Korneli de Bruin. Göstərilən əsəri, səh. 22.
[137] C. Bel. Göstərilən əsəri, səh. 60; Korneli de Bruin. Göstərilən əsəri, səh. 22.
[138] «Выдержки...», səh. 21.
[139] Yenə orada, səh. 24.
[140] Yenə orada.
[141] Yenə orada, səh. 30.

«Bu şəhər Rusiyada (Moskoviyada), İsveçrədə və Hollandiyada ticarət edənlərin görüş yeridir. Məhz buna görə də bura həmişə gəlib-gedən əcnəbilərlə dolu olur»[142].

Şamaxı şəhəri, qeyd etdiyimiz kimi, Şərq ölkələri ilə də qızğın ticarət aparırdı. Bu barədə fransız missionerləri belə yazırlar: «Burada (Şamaxıda) cəmi 200-ə yaxın hindli vardır; onlar burada çox geniş ticarət aparır və ən varlı tacir hesab olunurlar»[143].

1722-1723-cü illərdə I Pyotrun Azərbaycana yürüşü zamanı rus qoşunlarının tərkibində olmuş ingilis zabiti H. P. Bryus Şamaxı şəhərini Zaqafqaziyanın ən böyük və əhalisi çox olan şəhəri hesab edir[144]. H. P. Bryusun burada mübaliğəyə yol verməsinə baxmayaraq, onun sözlərindən Şamaxının əhəmiyyətli bir şəhər olduğunu müəyyən etmək çətin deyildir. H. P. Bryus daha sonra yazır: Şamaxıda bütün Şərq xalqlarının şirkətləri vardır və bu səbəbə görə də şəhərə bütün ölkələrdən gəlirlər»[145].

Əgər XVIII əsrin birinci yarısında Azərbaycana yadelli işğalçılar basqın etməsəydilər, bəlkə də Şamaxı şəhərinin ticarət sahəsindəki rolu daha böyük olardı. Məsələ burasındadır ki, yuxarıda qeyd edildiyi kimi, 1712 və daha sonra 1721-ci illərdə Şamaxı şəhəri Hacı Davud və Surxay xanın dəstələri tərəfindən darmadağın edilmişdir[146]. 1723-cü ildə isə Şamaxıya türk ordusu daxil olmuşdur. 1734-cü ildə Şamaxı şəhərinə daha böyük qəza üz vermişdir. Məlum olduğu kimi, həmin ildə Şamaxı Nadirin qoşunları tərəfindən darmadağın edilmiş, əhalisi isə Ağsuya köçürülmüşdü. Ağsu az bir zamanda qala hasarları ilə əhatə olunduqdan sonra «Yeni Şamaxı» adını almışdır. Beləliklə, Azərbaycanın ən qədim, zəngin və məşhur şəhərlərindən biri olan Şamaxı şəhəri 1734-cü ildən başlayaraq müvəqqəti də olsa, bir ticarət mərkəzi kimi öz əhəmiyyətini itirdi. Bu vəzifə həmin vaxtdan etibarən Yeni Şamaxının öhdəsinə düşdü[147]. Lakin çox keçmədən Yeni Şamaxıya da «Köhnə Şamaxı» kimi qəza üz verdi. 1743-cü ildə Nadir şahın hakimiyyətinə qarşı Şirvanda baş verən üsyanı yatırtmaq üçün gələn İran qoşunları tərəfindən Yeni Şamaxı dağıdıldı və 15 minə yaxın əhalisi məhv edildi[148].

Şübhəsiz, Şamaxı şəhərinə üz verən belə bir qəza onun ticarət sahəsindəki əhəmiyyətini aşağı salmaya bilməzdi.

XVIII əsrin birinci yarısında iki dəfə Azərbaycanda olmuş İ. Lerx 1745-1747-ci illər arasında «Yeni Şamaxı»-nın ticarətini belə izah edir: «Şəhərdə tacirlər

---

[142] «Выдержки...», səh. 34.
[143] Yenə orada, səh. 24.
[144] Bax: S. B. Aşurbəyli. Göstərilən məqaləsi, səh. 68.
[145] Bax: S. B. Aşurbəyli. Göstərilən məqaləsi, səh. 68.
[146] A. Bakıxanov. Göstərilən əsəri, səh. 102; Y. H. Cəlalyan. Göstərilən əsəri, I hissə, səh. 3; Обозрение Российских владений за Кавказом... III hissə, SPb, 1836, səh. 147.
[147] F. M. Əliyev. Şimali Azərbaycan şəhərləri, Bakı, 1960, səh. 36-37.
[148] Yenə orada, səh. 37.

üçün palçıqdan üç xarab karvansara tikilmişdi. O zaman qatma-qarışıqlıq üzündən və ölkənin hər yerində olduğu kimi, burada da həddindən artıq pul (gömrük) alındığından (Şamaxıda) tacir az idi»[149].

Lakin bütün bunlara baxmayaraq, Şamaxıda şəhər təsərrüfatının əsasını təşkil edən sənətkarlıq və ticarət heç də tamamilə sıradan çıxmamışdı. Bir çox mənbələr Şamaxı şəhərində hazırladıqları malları daxili və xarici bazarlarda şöhrət tapan ipəkçilər, toxucular, misgərlər, sərraclar, başmaqçılar, bürünc və mis üzərində gözəl naxışlar çəkən nəqqaşlar, silah hazırlayanlar və s. sənətkarların dükanlarında qızğın iş getdiyi haqqında məlumat verirlər. İ. Lerx yazır ki, Nadir şahın qoşunlarının Şamaxıya gəlməsi ilə əlaqədar olaraq silah hazırlayan sənətkarların işi daha da çoxalmışdı[150].

İ. Lerx Şamaxının ticarət əlaqələrindən bəhs edərək yazır: «Gəncədən (Şamaxıya) çoxlu ipək gətirilir». Lakin səyyah Şamaxının özündə ümumiyyətlə az parça toxunulduğunu göstərir. «Müxtəlif rəngli yaşıl, qırmızı, göy zolaqlı və gözəl görünüşə malik olan ipək «movlardan başqa (şəhərdə) az parça toxunur»[151]. Sonra İ. Lerx yerli əhalinin həmin parçalardan gözəl köynəklər tikməsindən, hətta özünün də həmin köynəklərdən geydiyindən bəhs edir[152].

XVIII əsrin birinci yarısında Azərbaycan şəhərləri arasında mühüm ticarət mərkəzi kimi şöhrət tapan şəhərlərdən biri də Gəncə idi.

Mənbələrin verdiyi məlumata görə, XVIII əsrin birinci yarısında Gəncə Zaqafqaziya şəhərləri içərisində ən yaraşıqlı və böyük şəhərlərdən biri idi. Bağlı-bağatlı və yaraşıqlı küçələri olan Gəncə şəhəri yaşıllıqlara bürünmüşdü. Səyyah Avril Filip Gəncəyə gəlişini belə izah edir: «Biz oraya (Gəncəyə) baharın ortalarında gəldik, saysız-hesabsız çiçəkli və yarpaqlı ağaclarla örtülən evlərin görünüşünü yaşıllıq daha da gözəlləşdirirdi, mən belə bir valehedici mənzərə görməmişdim»[153]. 1703-cü ildə Gəncədə olmuş səyyah Korneli de Bruin şəhəri belə təsvir edir: «(Gəncə Şamaxıdan) dörd dəfə böyükdür, (şəhərdə) əksəriyyəti ikimərtəbədən ibarət olan çoxlu daş ev, yaraşıqlı geniş küçələr, gözəl bazarlar, böyük karvansaralar və bəylərbəyinin geniş sarayı vardır, şəhərin içindən gözəl çay axır, (Gəncədə) çoxlu bağ, yaxşı şərab, həddən artıq meyvə mövcuddur; ağacları - akasiya, sərv və şam ağaclarından ibarətdir. (Gəncəni bu yerlərin) ən əhəmiyyətli şəhərlərindən biri hesab etmək olar»[154].

Gəncə şəhərinin yerləşdiyi rayon dəmir, mis, qurğuşun, duz və s. faydalı qazıntılarla da zəngin idi. Bu təbii zənginlik öz növbəsində Gəncə şəhərində

---

[149] İ. Lerx. Göstərilən əsəri, səh. 61 (ikinci səyahət).
[150] İ. Lerx. Göstərilən əsəri, səh. 62.
[151] Yenə orada.
[152] Yenə orada.
[153] Avril Phillipe. Voyages en divers e'tats d'Europe et d'Asic. Voyage de Tartorie livre second, (fransız dilindən tərcüməsi S. Aşurbəylinindir), TİEA, inv. 477, səh. 1.
[154] Korneli de Bruin. Göstərilən əsəri, səh. 23.

sənətkarlığın inkişafı üçün əlverişli zəmin yaratmışdı. Gəncə şəhərində hazırlanan sənətkarlıq əşyaları təkcə daxili bazarda satılmırdı, həmin mallar eyni zamanda xarici bazar üçün də ixrac edilirdi. Gəncədən həm metal məmulatı, həm xammal və həm də hazır əşya şəklində xarici bazarlara mal aparılırdı[155].

Gəncə ətrafında mövcud olan zəngin kobalt yataqları şəhərdə metal işləmə və boyaqçılıq sənətinin inkişafı üçün şərait yaradırdı[156].

Gəncədə sənətkarlığın digər sahələrinin məhsulları da daxili və xarici bazarlarda şöhrət qazanmışdı. Gəncə sənətkarlarının hazırladıqları məhsulların xarici bazarlarda şöhrət tapmasından bəhs edərkən Gəncə ipəyini, ipək və pambıq parçalarını da qeyd etmək lazımdır.

Bir çox Qərbi Avropa müəllifləri xarici bazarlarda Zaqafqaziyadan gətirilib satılan ipəyi "Seta Gangia", yəni «Gəncə ipəyi» adlandırırlar[157]. Bu isə Gəncədən xaricə aparılan ipəyin miqdarca çox, keyfiyyətcə yüksək olduğunu göstərən dəlillərdəndir.

A. P. Volınski Azərbaycanda olarkən Gəncə tacirlərindən biri ona Gəncədə heç də Şamaxıdan az ipək istehsal edilmədiyini söyləmişdir. Tacir bildirmişdir ki, «Gəncə tacirləri ildə xaricə 100 tay ipək göndərirlər...»[158].

Gəncədən xam ipək və ipək saplardan başqa, ipək parçalar da ixrac edilirdi. Gəncədə toxunan ipək parçalardan mov, darai və başqaları xarici bazarda şöhrət tapmışdı. Gəncə şəhərinin ətrafında texniki bitkilərdən pambıq da yetişdirilirdi. Lakin becərilən pambıq aşağı növdən olduğuna görə, ondan hazırlanan parçalar keyfiyyət etibarı ilə fərqlənmirdi. Ona görə də pambıq parçalar əsasən yerli əhəmiyyət daşıyır[159], xam ipək və ipək parçalar kimi xaricə ixrac edilmirdi.

Gəncə bazarında təkcə yerli sənətkarların hazırladıqları mallar deyil, eyni zamanda, qonşu vilayətlərdə, Rusiyada, həmçinin bir çox Şərq və Qərbi Avropa ölkələrində hazırlanan mallar da satılırdı. Məhz özünün zəngin bazarı sayəsində Gəncə şəhəri beynəlxalq ticarətdə şöhrət qazanmışdı.

Gəncə şəhərinin bir ticarət mərkəzi kimi inkişaf etməsində onun tutduğu coğrafi mövqeyin də böyük rol oynadığını qeyd etmək lazımdır. Çox güman ki, fransız iezuiti Avril Filip məhz bunu nəzərə alaraq yazmışdır: «Gəncənin tutduğu mövqe ticarət sahəsində çox əlverişli olduğu üçün orada hər zaman müxtəlif ölkələrdən gələn çoxlu əcnəbiyə təsadüf etmək olur»[160]. Lakin Azərbaycanın ərazisində gedən türk—İran müharibələri başqa şəhərlər kimi, Gəncə şəhərinin də həm tikintilərinə, həm də təsərrüfatına ağır zərbə endirmişdi. XVIII əsrin 45-47-ci illərində Gəncədə olmuş səyyah İ. Lerx şəhərin ona buraxdığı təəssürat haqqında

---

155 M. M. Альтман. Гянджа с 1606 по 1804 гг., Azərb. SSR EA TİEA, inv. 1891, səh. 47.
156 Yenə orada.
157 M. M. Altman. Göstərilən əsəri, səh. 38.
158 ÇQADA, fond 77, iş 3, vərəq 420-421.
159 M. M. Altman. Göstərilən əsəri, səh. 46.
160 Avril Filip. Göstərilən əsəri, səh. 1.

belə yazır: «Gəncə (əvvəllər) böyük şəhər olmuşdur, lakin hazırda o çox dağılmışdır, (şəhərdə) yalnız uçulub dağılmış evlər və karvansaralar görünürdü»[161].

Azərbaycanın ən böyük şəhərlərindən biri də Təbriz idi. «Təbriz Azərbaycanın tarixən əmələ gəlmiş ticarət mərkəzidir»[162]. Təbriz özünün tutduğu coğrafi və strateji mövqeyi sayəsində Şərq ilə Qərb arasında yeganə rahat yoldur[163]. Bu şəhər təkcə Azərbaycanda deyil, həmçinin bütün Yaxın Şərqdəki şəhərlər arasında həm zənginliyi, həm də ticarətinə görə istisna təşkil edirdi. Təbrizdən keçən böyük iqtisadi əhəmiyyətə malik olan karvan yolları[164] orta əsrlərdə onun inkişafında mühüm rol oynamışdır. XIX əsr müəlliflərindən N. Kurov Təbrizin böyük ticarət əhəmiyyətinə malik olmasından bəhs edərək yazır: «İranın Avropa ilə apardığı ticarətdə ən mühüm məntəqə hələ xeyli qədimdən Azərbaycanın Təbriz şəhəri hesab olunurdu. Belə əhəmiyyətə özünün coğrafi mövqeyi,... və Trabzon tranzit yolunda yerləşməsi... sayəsində malik olmuşdur...»[165]. Hələ xeyli qədimdən Təbrizin zəngin bazarı bir çox ölkələrin tacirlərini özünə cəlb etmişdi. Azərbaycan müvəqqəti olaraq İran dövlətinin əsarəti altına düşdüyü bir zamanda Təbriz şəhəri nəinki öz ticarət əhəmiyyətini itirmiş, hətta İranın paytaxtı İsfahanı belə bu sahədə geridə qoymuşdu. Məhz buna görə də təsadüfi deyildir ki, İran hakimiyyəti dövründə də bir çox orta əsr müəllifləri, o cümlədən səyyahlar Təbrizin böyük şəhər olmasından bəhs edirlər. 1717-ci ildə Təbrizdə olmuş rus səfiri A. P. Volınskinin yazdığına görə, şəhərdə 36.000-ə yaxın daş və palçıqdan tikilmiş ev mövcud olmuşdur[166].

XVIII əsrin 40-cı illərində Azərbaycanda olmuş ingilis C. Hanvey böyüklüyü etibarı ilə Təbrizin ikinci şəhər və Cənub-qərbi Azərbaycanın paytaxtı olduğunu qeyd etməklə bərabər yazır ki, təqribən 1721-ci il martın 26-da baş verən zəlzələ nəticəsində Təbrizdə 100.000-ə yaxın adam həlak olmuşdur[167]. Həm A. P. Volınskinin və həm də C. Hanveyin gətirdikləri rəqəmlərin artıq dərəcədə şişirdilməsinə baxmayaraq, XVIII əsrin birinci rübündə Təbrizin böyük şəhər olması barədə heç bir şübhə qalmır. Təbriz eyni zamanda iqtisadi cəhətdən də zəngin şəhər olmuşdur. A. P. Volınski Təbrizin gəlirindən bəhs edərək yazır ki, vaxtı ilə Təbriz şəhəri də daxil olmaqla dövlət Təbriz vilayətindən 100.000 tümən gəlir əldə edirdi[168]. Təbriz şəhərinin Səfəvi dövlətindəki şəhərlər arasındakı üstünlüyündən M. Çulkov da bəhs edir. O yazır ki, İsfahan bazarlarının qəşəng və böyük olmasına baxmayaraq, bütün İranda ən böyük və zəngin bazar Təbrizin

---

[161] İ. Lerx. Göstərilən əsəri, səh. 126.
[162] A.V. fon Qrebner. Göstərilən əsəri, səh. 45.
[163] İslam ensiklopediyası, IV cild, səh. 583 (ingilis dilində).
[164] A.V. fon Qrebner. Göstərilən əsəri, səh. 45.
[165] Sitat A. V. fon Qrebnerin əsərindən götürülmüşdür, səh. 44.
[166] A. P. Volınskinin jurnalı, səh.17.
[167] C. Hanvey. Göstərilən əsəri, səh. 114. Qeyd etmək lazımdır ki, həmin zəlzələ haqqında digər mənbələrdən hələlik heç bir məlumat əldə edilməmişdir. Bu barədə yalnız C. Hanvey bəhs edir.
[168] A. P. Volınskinin jurnalı, səh. 18.

bazarı sayılırdı. Bu şəhərdə on beş min dükan vardır. Təbriz bazarı «qeysəriyyə», yəni «şah bazarı» adlanır[169]. Təbrizin ticarətdəki əhəmiyyətindən bəhs edərkən M. Çulkov belə yazır: «İsfahanın özü də daxil olmaqla bütün İran dövlətində Təbriz kimi zəngin və məşhur ticarət şəhəri yoxdur, (Təbriz) təkcə İran daxilində deyil, həmçinin Rusiya, Türkiyə, Tatarıstan, Hindistan və habelə Qara dəniz sahilləri ilə ticarət aparır»[170]. Lakin 1725-ci ildə uzun sürən müqavimətdən sonra Təbrizə soxulan türk qoşunları şəhəri darmadağın etdikləri kimi onun ticarətinə də ağır zərbə endirdilər.

Yuxarıda haqqında bəhs edilən şəhərlərlə yanaşı, Azərbaycanın bir çox şəhərləri, o cümlədən Ərdəbil, Naxçıvan, Dərbənd, Lənkəran ticarət əhəmiyyətli şəhərlər idi. Bu şəhərlərdən bəzilərinin qış vaxtlarında daxili bazar kimi əhəmiyyəti daha da çoxalırdı. Misal üçün, Ərdəbili götürək. Ərdəbil Təbrizə görə kiçik və ticarət aləmində ikinci dərəcəli bir şəhər idi. Lakin qış aylarında, xüsusilə yağan yağışların üzündən Təbrizdən birbaşa Astaraya getmək mümkün olmadıqda, karvanlar Ərdəbildə qalmalı olur və beləliklə də, şəhərdə ticarət xeyli canlanırdı. Lakin günəşin çıxması ilə dağlardakı cığırlar quruduqda karvanlar Ərdəbil şəhərini tərk edirdilər[171]. Lakin bununla belə orta əsr mənbələri Ərdəbildən dəvə karvanları ilə İzmir, Hələb və İstanbula mal aparılması haqqında məlumat verir[172].

Şəhərlərdə ticarət əsasən bazarlarda aparılırdı. Bu da ona görə idi ki, yerli hakimlərin nəzarətçilərinin bazara satmaq üçün gətirilən malların üzərində gözü olsun, satıcı və alıcılardan lazımi gömrük toplamaq işi yüngülləşsin. Məsələ burasındadır ki, satmaq üçün gətirilən maldan həm şəhərə daxil olmaq və həmçinin də bazar meydanında satmaq üçün ayrıca gömrük alınırdı. Birinci — rahdari, ikinci isə mizan (ölçü-çəki) gömrüyü adlandırılırdı. Mizan pulu bazarda mizan tərəzisinə baxan mizandar tərəfindən toplanılırdı. Bazara gətirilən hər hansı bir mal tərəzidə çəkilir, sonra isə malın keyfiyyət və ağırlığına görə mal sahibindən pul alınırdı. Rahdari gömrüyü bir qədər mürəkkəb idi. Bu vergini təkcə şəhərdə deyil, bir şəhərdən başqasına gedəndə də vermək lazım gəlirdi. Əks təqdirdə rahdarlar (torpaqbasdı vergisini toplayanlar) taciri yolunu davam etməyə qoymurdular.

Tacirlər mallarını şəhərdən çıxardıqları üçün verdikləri rahdaridən əlavə, neçə şəhərdən keçsəydilər, həmin yerlərdə gömrük verməli olacaqdılar. Rahdari gömrüyün miqdarı müxtəlif idi və hər şeydən əvvəl, aparılan malın sayı, ağırlığı və hansı bazarda satılacağından asılı olurdu.

Məsələn, Rəştdən Təbrizə Ərdəbil vasitəsi ilə mal aparan tacir Rəştdə, Laşemadanda, Kesmədə[173] və Kəskərədə rahdari verməli idi. Parçadan ibarət qatır

---

[169] M. Çulkov. Göstərilən əsəri, səh. 600.
[170] Yenə orada.
[171] A.V. fon Qrebner. Göstərilən əsəri, səh. 46.
[172] Словарь коммерческий... перевод с франц. Левшина, ч VII, M., 1792, səh. 440.
[173] Rus dilində yazılmış bu sənəddə çox güman ki, bir çox yer və şəhər adları təhrif olunmuşdur. Buna misal olaraq İsfahan – «Гиспогани», Reşt - «Ряш» və başqa adların yazılışını göstərmək olar. Yəqin

və at yükündək 40 qəpik, eşşək yükündən 20 qəpik, çəkilməli olan at və qatır yükündən 20 qəpik, eşşək yükündən isə 10 qəpik gömrük alınırdı[174]. Bəndlər məntəqəsində[175] parçadan ibarət qatır va at yükündən 30 və ya 40 qəpik, eşşək yükündən 15-20 qəpik, çəkilməli mallardan ibarət olan at və qatır yükündən 20, qəpik, eşşək yükündən isə 10 qəpik gömrük alınırdı[176].

Ərdəbil şəhərində parçadan ibarət olan at və qatır yükündən 40 qəpik, eşşək yükündən 20 qəpik, çəkilən mallardan ibarət olan at və qatır yükündən 15 qəpik, eşşək yükündən isə 10 qəpik həcmində rahdari alınırdı.

Keçid məntəqəsi olub, lakin ticarət əhəmiyyəti olmayan yerlərdə rahdari gömrüyü ticarət daha qızğın gedən şəhərlərə nisbətən az alınırdı. Misal üçün, Saruf keçid məntəqəsi ilə Təbrizi götürək. Sarufda parçadan ibarət at və qatır yükünə görə 20 qəpik, eşşək yükünə görə 10 qəpik, çəkilməli at və qatır yükünə görə 10 qəpik, eşşək yükünə görə 5 qəpik gömrük alındığı halda, Təbriz şəhərlərində müvafiq olaraq həmin mallardan 1 manat, 1 manat 20 qəpik və 50-60 qəpik rahdari alınırdı. Bundan əlavə, tacir Təbriz bazarında hər 10 manata 30 qəpik mizan haqqı da verməli idi[177].

Rəştdən Təbrizə gedən başqa yollarda da bu qayda ilə gömrük alınırdı. Rəşt-Lameşadan - Kesmə — Kəskərə məntəqələrində, yuxarıda qeyd edildiyi kimi, qoyulan qayda üzrə rahdari gömrüyü verən tacir Qirufda[178] da parça ilə yüklənmiş at və qatır yükünə görə 20 qəpik, eşşək yükünə görə 10 qəpik, çəkilməli mallar üçün isə müvafiq olaraq 15 və 10 qəpik həcmində rahdari verməli idi[179]. Təbrizdə də tacir yuxarıda göstərilən qayda üzrə yenidən gömrük verməli olurdu.

Azərbaycanın başqa şəhərlərində də, demək olar ki, gömrük bu qayda üzrə alınırdı. Şamaxıda, məsələn, ipək və pambıq parçalarla yüklənmiş dəvə yükündən 1 manat 50 qəpik, başqa çəkilməli mallarla yüklənmiş dəvə yükündən 60 qəpik, öküz yükündən isə 30 qəpik həcmində rahdari alınırdı[180].

---

«Laşemadan» sözü də təhrif olunmuş «Lahican» sözündən götürülmüşdür. «Kesmə» yer adının mənası hələ müəyyən edilməmişdirsə də həmin sözün Azərbaycan sözü olmasına əsaslanaraq, bu yerin Azərbaycanda yerləşdiyini iddia etmək olar.

[174] В. Чирикеев. Ведомость сколько и чего и в которых местах в Персии берется пошлин или вместо оных рахдаров, АВПР, ф. Сношении России с Персией, 1745, iş 18,vərəq 773-776. Bu sənəd M. Arunova və K. Əşrəfyanın göstərilən əsərində də büsbütün dərc edildiyi üçün biz həmin əsərə də istniad edirik. Bax: Göstərilən əsər. səh. 265.

[175] «Bəndlər» məntəqəsinin yeri hələ müəyyən edilməmişdir. Lakin bu yerin həqiqətən məntəqə olmasını «Bənd» sözündən və bu sözün Azərbaycan sözü olmasından isə «Bəndlərin» Azərbaycanda yerləşməsini müəyyən etmək olar.

[176] V. Çirikeyev. Göstərilən əsəri, səh. 265.

[177] V. Çirikeyev. Göstərilən əsəri, səh. 267.

[178] «Qiruf» sözünün məntəqə, keçid, şəhər və yaxud kənd adı olduğu hələ müəyyən edilməmişdir. Müvafiq lüğətlərdə bu barədə bir məlumat olmadığı üçün, ehtimal etmək olar ki, bu söz tamamilə təhrif olunmuş bir yerin adıdır.

[179] V. Çirikeyev. Göstərilən əsəri, səh. 267.

[180] Yenə orada, səh. 268.

Bakıda isə dəvə yükündən 52 qəpik, öküz yükündən isə 20-25 qəpik həcmində rahdari alınırdı. Şamaxıdan Dərbəndə mal aparılarkən bütün yol uzunu dəvə yükündən 1 manat 30 qəpik, at və öküz yükündən isə 1 manat rahdari alınırdı. Dərbəndin özündə isə hər dəvə yükündən 1 manat 2 qəpik, at və öküz yükündən isə 1 manat həcmində rahdari alınırdı[181].

Təkcə karvan yolları ilə deyil, dəniz vasitəsi ilə gətirilən mallardan da rahdari gömrüyü alınırdı. Lakin bu gömrüyün həcmi ilə karvan vasitəsi ilə gətirilən mallardan alınan gömrüyün həcmi arasında fərq vardı. Bu fərq birincinin çoxluğu ilə ifadə olunurdu. Əvvəllər Bakı körpüsündə bir tay mahud üçün 25 və ya 35 manat gömrük alınırdısa, 1740-cı illərdə həmin yük üçün 45 manat alınırdı. Digər mallardan isə 1000 manata 50 manat rahdari verilirdi[182].

Əgər tacirin gətirdiyi malın hamısının qiyməti 1000 manata çatmırdısa, o zaman hər bir malın üzərinə ayrılıqda gömrük qoyulurdu. Bir neçə şəhərdən keçib rahdari gömrüyü verən tacir axırıncı məntəqəyə çatıb, karvansaraya düşən kimi gömrükxana məmurları o saat tacirin malını yoxlayır və hər bir dəvə, at, qatır yüklərini və s. malları ayrılıqda gözdən keçirib, müvafiq gömrük alırdılar[183].

Rahdari gömrüyü başqa vergilərlə yanaşı, şahın xəzinəsinə toplanılan[184] ən gəlirli vergi maddələrindən biri idi. Maraqlı burasıdır ki, rahdari gömrüyü əvvəllər yalnız yol və sərhədlərin keşikçilərinin xeyrinə olaraq yığılırdı[185]. Lakin sonralar dövlətin pula ehtiyacı artdıqca bu gömrüyün həm miqdarı, həm də gömrükalma məntəqələrinin sayı çoxaldı. Şübhəsiz, belə tədbir yalnız şəhərlər arasında qızğın ticarət getdiyi bir zamanda həyata keçirilə bilərdi. Sonralar yerli hakimlər rahdari gömrüyündən daha geniş istifadə etməyə başladılar. XVIII əsrin birinci yarısında artıq təkcə tacirlərdən deyil, eyni zamanda səyyahlardan, ziyarətə gedənlərdən də rahdari gömrüyu alınmağa başlanıldı [186]. Lakin Nadir şahın hakimiyyəti dövründə bir şəhərdən digərinə gedərkən təkcə rahdari gömrüyü vermək kifayət etmirdi. Məsələ burasındadır ki, yuxarıda qeyd edildiyi kimi, ölkədə mövcud olan hərc-mərclik üzündən bir çox şəxslər, xüsusilə tacirlər ticarət bəhanəsi ilə getdikləri qonşu ölkələrdən bir daha geri dönmək istəmirdilər. Bunun qarşısını almaq məqsədi ilə hökumət tezliklə tədbir görməli oldu. Nadir şahın hökmünə görə ticarət üçün səfərə çıxan tacir yerli hakimlərə müraciət etməli və yalnız onlardan vəsiqə - icazə aldıqdan sonra şəhərdən çıxmağa ixtiyarı vardı[187].

Beləliklə, şəhərlər arasında olan sərbəst gediş-gəliş dövlət tərəfindən məhdudlaşdırıldı. Bu məqsədlə karvan yollarında və sərhədlərdəki rahdarlara

---

[181] Yenə orada.
[182] V. Çirikeyev. Göstərmlən əsəri, səh. 268.
[183] Korneli de Bruin. Göstərilən əsəri, səh.16.
[184] Təskirət əl-mulük (fars mətni), səh. 67.
[185] Təskirət əl-mülük (V. F. Minorskinin ingiliscə kommentariyası), səh. 180.
[186] Matenadaran, sənəd 482.
[187] C. Hanvey. Göstərilən əsəri, səh. 413.

tapşırılmışdı ki, pasportu - yəni icazəsi olmayan bir kəs şəhərdən və sərhəddən xaricə buraxılmamalıdır[188]. C. Hanvey yazır ki, həmin şəxslər hər bir nəfər üçün məsuliyyət daşıdıqlarına görə öz vəzifələrinə çox ciddi yanaşırdılar[189]. Şübhəsiz, feodal mülkiyyətinin hər yerində olduğu kimi, rahdarlar da onlara verilən səlahiyyətdən istifadə edərək, açıqdan-açığa qarətlə məşğul olub, öz ciblərini doldururdular. Məhz buna görədir ki, bir çox tacirlər bəzən əsas karvan yollarını qoyub mallarını bir şəhərdən başqa şəhərə dolayı vasitələrlə aparırdılar[190]. Belə hallar XVIII əsrin ikinci yarısında da tez-tez baş verirdi[191].

Rahdari gömrüyünün ağırlığı və həmçinin ölkədə baş verən bir çox siyasi çaxnaşmalar ticarətin gedişinə mane olurdusa da, Azərbaycanın şəhərlərində yenə də qızğın ticarət aparılırdı. 1733-cü ilə aid olan tarixi sənədlərin birində Şamaxı şəhərinin ticarəti haqqında yazılmışdır ki, «Şamaxının zəbt olunması və İran qiyamçıları[192] tərəfindən dağıdılması onun ticarətinin böyük bir hissəsinin Gilana keçməsinə və rus hakimiyyəti dövründə Gilanda (ticarətin) çiçəklənməsinə baxmayaraq, Şamaxı hazırda yenə də öz əhəmiyyətini saxlamaqdadır»[193].

Səyyah Avril Filip Gəncə bazarını belə təsvir edir: «Şəhərin mərkəzində yerləşən bazar mənim Şərqdə gördüyüm bütün bazarlar arasında ən yaraşıqlısı və böyüyüdür»[194].

Şamaxı, Bakı, Təbriz və b. şəhərlərin bazarlarının zənginliyi haqqında da mənbələrdə məlumat vardır. İ. Lerx yazır ki, İranda hərc-mərclik zamanı Rəştə heç bir şəhərdən mal gətirilmədiyi bir zamanda oraya Təbrizdən ticarət karvanı gəlmişdi[195].

Azərbaycan şəhərlərində də ticarət həm topdansatış və həm də başqa Yaxın Şərq ölkələrində olduğu kimi, pərakəndə alver şəklində aparılırdı. Topdansatışla əsas etibarı ilə iri və gəlmə tacirlər məşğul olurdular.

Gəlmə tacirlər adətən karvansaralarda yaşayırdılar. Onlardan gündəlik və yaxud da ay hesabı karvansara haqqı alınırdı[196]. Karvansaralarda yaşayan tacirlərə bir sıra imtiyazlar verilirdi. Belə tacirlərə yerli tacirlərdən birinin borcu olduğu halda, onu qaytarmaqdan imtina etsəydi, həmin tacir bu barədə yerli hakimlərə şikayətlə müraciət edə bilərdi. Burada şikayətçinin borcunun ümumi məbləğinin iki faizini dövlət hesabına mənimsəmək şərti ilə borcun alınması və qaytarılmasında

---

188 C. Hanvey. Göstərilən əsəri, səh. 413.
189 Yenə orada.
190 Azərb. SSR MDTA, fond 24, sənəd 155, vərəq 11, müqayisə et: M. M. Altman. Göstərilən əsəri, səh. 43.
191 F. M. Əliyev. Şimali Azərbaycan şəhərləri, səh. 112.
192 Burada müşkürlü Hacı Davud və qazıqumuxlu Surxay xanın dəstələri tərəfindən 1721-ci ildə Şamaxı şəhərinin zəbt edilməsi nəzərdə tutulmuşdur.
193 И. Г. Гербер. Замечания..., səh. 287.
194 Avril Filip. Göstərilən əsəri, səh. 2; S. Spilman. Göstərilən əsəri, səh. 39.
195 İ. Lerx (ikinci səyahət), səh. 84.
196 M. Çulkov. Göstərilən əsəri, II cild, II kitab, səh. 599.

ona kömək edirdilər[197]. Digər tərəfdən əgər şəhər bazarında münasib yer olmadıqda[198] belə, tacirlərə yer pulu vermək şərti ilə elə karvansarada ticarət etmək ixtiyarı verilirdi[199]. Lakin əsas ticarət adətən bazar meydanında aparılırdı. Hər böyük şəhərdə əsasən bir bazar olurdu. Belə bazarlara dörd tərəfdən küçələr uzanırdı. Bəzən belə küçələrin bazara yaxın hissələrində də ticarət aparılırdı. Bu növ küçələrin çox zaman üstü örtülü olardı[200].

Bazar şəhərin ticarət mərkəzi olmaqla yanaşı, eyni zamanda onun ictimai həyatının mərkəzi idi[201]. Burada çərgə ilə tacir və sənətkarların dükanları düzülürdü. Əhalinin kişi qisminin əksəriyyəti günün çox hissəsini bazarda keçirirdi. Bazarlarda ölkədə baş verən bir çox yeniliklər haqqında məlumat, son xəbərlər eşitmək olardı. Bazar meydanında camaata carçılar vasitəsi ilə şəhər hakiminin, bəylərbəyinin və hətta şahın əmrləri çatdırılırdı.

Şəhərlərdə adətən bir əsas bazar olurdu. Nisbətən böyük şəhərlərdə ticarət eyni zamanda karvansara və məhəllənin əhəmiyyətli bazarlarında da aparılırdı.

Əsas bazardakı qiymətlər başqa kiçik bazar və karvansaralar üçün məzənnə barəsində əsas olardı. Kiçik bazarlar ya əsas bazardan xeyli uzaqda olan məhəllələrin mərkəzində və yaxud da şəhərin kənarında yerləşər və əsasən yerli əhalinin ehtiyacını ödəyərdi. Belə bazarlarda bir neçə sənətkar və tacir dükanı olurdu.

Əsas bazar adətən şəhərin mərkəzində yerləşməklə bərabər, böyük bir sahəni əhatə edirdi. Lakin dəniz kənarında mövcud olan şəhərlərdə isə əsas bazar elə dənizə yaxın sahədə yerləşirdi. Bazarlar adətən üstü örtülü və hasara alınmış olurdu. Bazarın böyüklüyü tacir və sənətkarların sıra ilə düzülmüş dükanlarının sayından asılı idi. Tacir dükanları çox da böyük olmayıb, adətən iki otaqdan ibarət olurdu. Qabaqkı otaqda tacir otururdu. Burada onun satdığı malların nümunələri qoyulardı. Daldakı otaqda mallar saxlanılırdı.

Bazardakı sənətkar dükanları da müxtəlif idi. Nisbətən iri və varlı sənətkarların dükanları bəzən bir neçə otaqdan ibarət olurdu. Otaqların birində mal istehsal edildiyi halda, digərində həmin mal satılırdı. Bu sözləri bütün sənətkarlar haqqında söyləmək olmaz. Bir çox sənətkar dükanlarında yalnız tacirlərin sifarişi yerinə yetirilirdi. Keçmiş dükanların izləri indi də bəzi şəhərlərdə qalmaqdadır. Tarix elmləri namizədi T. Musəvinin verdiyi məlumata görə, müasir Təbrizin bir sıra bazarlarında bəzi dükanlar keçmişdə olduğu kimi, iki mərtəbədən ibarətdir. Yuxarı mərtəbədə mal istehsal edilir (çəkmə, papaq və s. tikilir), aşağı mərtəbədə isə hazır mallar satılır.

---

[197] Yenə orada.
[198] F. M. Əliyev. Şimali Azərbaycan şəhərləri, səh. 107.
[199] C. Bel. Göstərilən əsəri, səh. 60.
[200] «Выдержки...», səh. 24.
[201] Р. Карф. Очерки Персии, ч. II, СПб, 1876, səh. 26-27.

Respublikamızın Lahıc kəndində də keçmişdən qalmış bir dabbaq dükanı vardır. Dükan əsasən üç otaqdan ibarətdir. Vaxtı ilə birinci otaqda gön, dəri və s. müxtəlif çənlərdəki xüsusi məhlullarda isladılır, ikinci otaqda dəri, gön və s. cilalanır, üçüncü otaqda isə satılırdı.

Bazarda ticarət və sənətkar cərgələrn malların növü və istehsalına görə yerləşirdi[202].

Azərbaycan şəhərləri arasında, qeyd edildiyi kimi, Şamaxı, Gəncə, Bakı və xüsusilə Təbriz bazarları daha zəngin idi. Bazarlar yerli sənətkarların hazırladıqları gümüş qablar, qiymətli parçalar, o cümlədən atlas, tafta, ipək parçalar, xam ipək, qaş-daş, ədviyyat və bu kimi şeylərlə yanaşı, xarici ölkə tacirlərinin gətirdikləri mallarla da dolu olardı. Hər bir malın xüsusiyyətindən asılı olaraq bazarlarda xüsusi cərgələr ayrılmışdı. Taxta, odun, kömür və ya köhnə paltar və s. bazar meydanının kənarında satılardı. Bazar meydanında həmçinin qəssab dükanları, diri mal-qara və quş satanlar cərgəsi, daha sonra səbzəvat, müalicə otu və kökləri satanlar gəlirdilər. Silah, o cümlədən ox, yay, qılınc və s. satanlar üçün xüsusi cərgələr ayrılırdı. Bazarlarda həmçinin şüşə və saxsı qablar, müxtəlif ölçüdə qıfıllar, at yəhəri, üzəngisi və s. satılırdı[203].

Bütün yerli tacirlər və sənətkarlar öz günlərini bazar və karvansaralarda keçirirdilər. Burada gün çıxandan gün batana qədər həyat qaynayırdı. Yay aylarında bazar daha tez açılırdı. Qaş qaralanda bazar da bağlanırdı. Bazar darğasının carçıları hamıya bazarın bağlanılması xəbərini verirdilər. Bu vaxt bazarda hamı əl-ayağa düşür və dükanını bağlamağa tələsirdi. Carçılardan təqribən yarım saat sonra bazarın darvazaları bağlanırdı. Bazarda yalnız keşikçilər və itlər qalırdı[204].

Yuxarıda qeyd edildiyi kimi, bazara gətirilən hər bir maldan xüsusi gömrük alınırdı. Bazar vergisi dövlət xəzinəsinə axıb gələn ən gəlirli vergilərdən biri idi. Məhz buna görə də təsadüfi deyildir ki, yerli hakimlər ticarətin genişlənməsi üçün müəyyən tədbirlər görürdülər.

Nadir şah geniş ticarət vasitəsi ilə boşalmış dövlət xəzinəsini doldurmaq, apardığı qanlı müharibələrin xərcini qismən ödəmək məqsədini güdürdü. Bu barədə fransız dilindən ruscaya tərcümə edilmiş mənbələrin birində belə yazılmışdır: «...padşah ölkənin varlanması üçün ticarətdən əlavə başqa bir yol tapmadığına görə tacirlərə hələ Şah Abbasın vaxtında verilən səlahiyyəti bərpa etməklə bərabər, daha bir sıra güzəştlərə getdi; tacirlərnn üzərinə qoyulan bir çox vergiləri ləğv etdi, xarici ticarətlərdən alınan gömrüyü azaltdı və onların malları üçün mağaza və anbarlar tikilməsini əmr etdi»[205]. Lakin Nadir şah Hindistana yürüş etdiyi zaman dövlət işlərini oğlu Rza Qulu Mirzəyə (1737-1739) həvalə

---

[202] Avril Filip. Göstərilən əsəri, səh. 1; M. Çulkov. Göstərilən əsəri, səh. 599-600.
[203] M. Çulkov. Göstərilən əsəri, səh. 599-600.
[204] Доктор Уильс. Современная Персия, перевод с англ., М., səh. 228.
[205] История о персидском шахе Тахмас Кули-хане..., səh. 281.

etdiyi zaman şahzadə ölkədə törətdiyi bir çox özbaşınalıqla yanaşı[206], bazarlarda xam ipəyə göstərilən marağı və bu ticarətdən götürülən böyük gəliri nəzərə alaraq bütün ölkədə xam ipəklə ticarəti özünün inhisarına çevirdi[207]. Bundan sonra heç kəsin nə xam ipək satmağa və nə də şahzadənin adamlarından başqa kənar şəxslərdən xam ipək almağa ixtiyarı var idi[208]. Şahzadənin əmrinə görə 1739-cu ildən etibarən daxili bazara gətirilən hər hansı malı da ilk növbədə onun adamları almalı, yerdə qalanı isə bazarda satılmalı idi. Beləliklə, şah (şahzadə) daxili bazara gətirilən malların da yeganə alıcısı oldu[209]. Əvvəllər tacirlər öz mallarını istədikləri qiymətə satırdılar. 1717-ci ildə Şamaxıda olmuş A. P. Volınski orada ipək üçün dəqiq nırx olmadığı və xam ipəyin batmanının 8, 9 və 10 manata satıldığı haqqında məlumat verir[210]. Lakin indi qiymətləri də şahzadənin adamları təyin edirdilər. Əgər onların qoyduqları qiymət gəlmə tacirləri təmin etməsəydi, onlara öz mallarını başqa bazarlara aparmağa ixtiyar verilmirdi[211].

Göründüyü kimi, şah və ya şahzadə ticarət əməliyyatını özlərinin dəllalları vasitəsi ilə həyata keçirirdilər[212]. Lakin dəllallara verilən səlahiyyət o qədər geniş idi ki, onlar özlərini bazar meydanlarında tamamilə sərbəst aparırdılar. İ. Lerx yazır ki, şahın dəllalları o qədər azğınlaşmışdılar ki, ayrı-ayrı tacirlərə nahaqdan böhtan ataraq, onların şaha borcları olduqlarını güclə boyunlarına qoyurdular. Belə hallarda həmin tacir dinmədən tələb olunan məbləği şahın dəllallarına verməli idi. Yox əgər tacir sübut üçün onlardan qəbz tələb etsəydi, şahın dəllalları onu vəhşicəsinə döydürtdürərdilər. Odur ki, tacirlər işgəncədən yaxa qurtarmaq üçün tələb olunan məbləği verməyə məcbur olurdular[213].

Şahın dəllalları çox zaman düyü və digər kənd təsərrüfat məhsulları ucuz olan rayonlardan mal alıb, ölkənin bahalıq olan vilayətlərinə aparıb sataraq gəlir əldə edirdilər. Şahın inhisarına qəsd edənlərə ağır divan tutulurdu[214].

İpək ticarətinin şah hökuməti tərəfindən inhisara alınması, şübhəsiz, ticarət aləmində güclü rəqabətin olmasını göstərir. Təəssüf ki, hələlik, bu barədə konkret faktlara təsadüf edilməmişdir. Lakin rəqabətin mövcud olmasının özü daxili bazarların nə qədər zəngin və əhəmiyyətli olmasını göstərən dəlillərdəndir.

Şahın dəllallarının özbaşınalığı ticarətin gedişinə böyük maneə törədirdi. Lakin bazarda ticarətin normal gedişinə mane olan daha bir sıra səbəblər də var idi.

---

206 В. Братишев. Известия о происшедших между шахом Надиром и старшим его сыном Рза-Кули Мирзою печальных приключений в Персии в 1741 - 1742 годов, СПб, 1763, səh. 3.
207 C. Spilman. Göstərilən əsəri, səh. 27.
208 C. Hanvey. Göstərilən əsəri, səh. 13.
209 C. Spilman. Göstərilən əsəri, səh. 29.
210 L. P. Volınskinin jurnalı, səh. 11.
211 C. Hanvey. Göstərilən əsəri, səh. 13.
212 M. Çulkov. Göstərilən əsəri, səh. 598.
213 İ. Lerx (ikinci səyahət), səh. 64.
214 K. Əşrəfyan. Göstərilən əsəri, səh. 185.

Bu, hər şeydən əvvəl, bazar meydanlarındakı pul, çəki və ölçü vahidlərinin müxtəlifliyindən irəli gəlirdi[215].

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, ölkə siyasi və iqtisadi cəhətdən parçalandığı bir halda, Səfəvi dövlətinin bir çox vilayətləri əfqan, türk və rus dövlətlərinin üsulu ilə idarə edildiyi bir zamanda, şübhəsiz, ölkədə vahid pul dövriyyəsindən bəhs etməyə də dəyməz. Adları çəkilmiş dövlətlər tərəfindən zəbt edilmiş yerlərdə, əsasən, həmin dövlətlərin pulları da dövriyyə edirdi. Şübhəsiz, belə vəziyyət hər kəsdən çox tacir və sənətkarların və eləcə də kəndlilərin vəziyyətini daha da ağırlaşdırırdı[216].

XVIII əsrin birinci yarısında Səfəvi dövlətinin bir çox şəhərlərində, o cümlədən İsfahanda, Təbrizdə Gəncədə, Naxçıvanda, İrəvanda və b. şəhərlərdə metal pullar zərb edilirdi[217]. M. Çulkov yazır ki, İran gümüş pulları təmiz və yüksək əyarlı gümüşdən sikkə olunurdu. Lakin həmin pullar zərbxanadan çıxıb saxta pul kəsənlərin əlinə düşən kimi onu mislə əridib qəlb pul zərb edirlər və yaxud da ölkədən xaricə aparırlar[218].

Tacirlər öz pullarını metaldan olduğuna görə kiçik pul kisələrində saxlayırdılar. M. Çulkov belə kisələrin adətən 50 tümən və yaxud da 2.500 abbası tutduğunu və hər bir abbasının 18 dinara bərabər olduğunu qeyd edir. M. Çulkovun tacir pul kisələri haqqında verdiyi məlumatı nə qədər həqiqətə uyğun olsa da, onun kisələrdəki pulların, həmçinin abbası və yaxud dinarın nominal dəyəri haqqındakı məlumatı bir o qədər həqiqətdən uzaqdır. Məlum olduğu kimi, abbası 4 şahıya və şahı isə əlli dinara bərabərdir[219]. Deməli, M. Çulkovun yazdığı kimi abbası on səkkiz dinara deyil, iki yüz dinara bərabər olmuşdur. Pullar əsasən metaldan olduğuna görə, xüsusən topdansatış ticarəti zamanı tacirlər adətən, kisədəki pulların hesablanması və sayıl-ması çox vaxt apardığına görə, kisələri tərəzilərdə çəkirdilər. Belə hallarda vəzncə yüngül olan qəlb pulları asanlıqla seçmək mümkün olurdu[220].

Qəlb gümüş pulların bazarda dövriyyə etməsi ticarətə ağır zərbə endirirdi. Məhz buna görə də tacirlər «gümüş» pullara etibar etmədən çox vaxt alıcıdan mis pulları qəbul edirdilər. M. Çulkov məsələni bir qədər şişirdərək yazır ki, əgər avropalılar bazarlarda öz pullarını işə salmasaydılar, İranın ticarəti çoxdan sönmüş olardı[221].

---

[215] Е. А. Пахомов. Монетные клады Азербайджана и Закавказья, «Изв. общ. обследования и изуч. Азербайджана», вып. III, Bakı, 1926, səh. 33.

[216] А. М. Раджабли. Из истории монетного дела в Сефевидском государстве, Труды Музея истории Азербайджана, т. IV, səh. 59.

[217] А. М. Раджабли. Атерскии клад, ДАН, № 6, 1961, səh. 548.

[218] M. Çulkov. Göstərilən əsəri, səh. 609.

[219] А. М. Раджабли. Из истории монетного дела в Сефевидском государстве, səh. 63-64.

[220] M. Çulkov. Göstərilən əsəri, səh. 609.

[221] Yenə orada, müqayisə et: Ə. M. Rəcəbli. Göstərilən məqaləsi, səh. 59.

Ən kiçik gümüş pul «şahı» adlanırdı. İki «şahı» bir «mahmudiyyə»yə, dörd «şahı» isə bir «abbası»ya bərabər idi[222]. Mis pul «qazbeki» adlanırdı[223]. Bu pul şahının $^{1}/_{10}$ hissəsinə bərabər idi[224].

Lakin qeyd edildiyi kimi, bazarlarda yerli pullarla yanaşı, xarici ölkələrin[225], o cümlədən holland, ispan, rus və b. ölkələrin pulları da işə gedirdi. Lakin şahın sərrafları xarici ölkə pullarını dərhal abbasıya çevirib, bu işdən gəlir əldə edirdilər[226].

Bazarlarda ölçü vahidi də müxtəlif idi. Bu da ölkədə vahid ölçü sisteminin olmamasından irəli gəlirdi. A. P. Volınski Təbriz, Şamaxı və İsfahanın bazarlarındakı arşını rus arşını ilə müqayisə edərək yazmışdır: «İsfahanda şah arşını rus arşınından $6^{1}/_{2}$ qarış, Təbriz arşını $8^{1}/_{2}$, Şamaxı arşını isə 6 qarış qədər uzundur». Çox güman ki, digər şəhərlərdə də vəziyyət belə imiş. Ölçülərin müxtəlifliyi ticarətin gedişinə pis təsir göstərməyə bilməzdi. Həqiqətən ticarət zamanı qızğın mübahisələr baş verirdi. Hər kəs alıb satdığı malın mənfəətindən asılı olaraq, necə deyərlər, «öz arşını ilə ölçürdü».

Bəs çəki vahidləri nə vəziyyətdə idi? Ümumiyyətlə, istər İran və istərsə də Azərbaycanın bazarlarında əsas çəki vahidi batman və ya man hesab olunurdu[227]. Lakin hər şəhərin özünəməxsus arşını olduğu kimi, batmanı da var idi. Şahın batmanı başqalarına nisbətən hamısından ağır idi. Şübhəsiz, şahın dəllalları bu batmanı yalnız mal aldıqları zaman işə salırdılar. A. P. Volınski çəki vahidlərini də rus çəkiləri ilə müqayisə etmişdir. Onun yazdığına görə, şah batmanı 14 rus funtuna, Şamaxı batmanı 9 $^{1}/_{2}$ Təbriz batmanı isə 7 $^{1}/_{2}$ rus funtuna bərabər idi[228].

Batmandan sonra çox işlənən ölçu vahidi stil idi[229]. 24 stil 9 funtluq batmana bərabər idi. Ən kiçik ölçü vahidi misqal hesab olunurdu. Misqal təqribən 5 qrama bərabərdir. 33 misqal bir stilə bərabər idi[230].

Pul və ölçü vahidlərinin müxtəlifliyi eyni adlı malların müxtəlif qiymətə satılmasına gətirib çıxartdığı kimi, ticarətin normal surətdə aparılmasına da çox maneçilik törədirdi. Lakin buna baxmayaraq, yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycanın əlverişli coğrafi mövqeyi, təbii sərvətləri, bacarıqlı sənətkarlarının hazırladıqları mallar şəhər bazarlarında həmişə qızğın ticarətin getməsinə səbəb

---

[222] M. Çulkov. Göstərilən əsəri, səh. 609.
[223] Yenə orada; Ə. A. Əfəndiyev, Образование Азербайджанского государства в нач. XVI века, Bakı, 1961, səh. 126.
[224] M. Çulkov. Göstərilən əsəri, səh. 609.
[225] E. A. Пахомов. Монетные клады Азербайджана, «Изв. обт. обсл. и изуч. Азербайджана», вып. 3, Bakı, 1926, səh. 33.
[226] M. Çulkov. Göstərilən əsəri, səh. 609.
[227] Yenə orada.
[228] A. P. Volınskinin jurnalı, səh. 11.
[229] «Stil» çox güman ki, satıl sözündəndir. Ehtimal etmək olar ki, mal satılarkən (düyü, buğda, un və s.) çəkilmədən satılvarı qablarla ölçülürmüş.
[230] A. P. Volınskinin jurnalı, səh. 11.

olmuşdur. Söz yox ki, başqa bir siyasi şəraitdə Azərbaycan şəhərlərinin bazarları daha da zəngin ola bilərdi. Yeri gəlmişkən qeyd edilməlidir ki, daxili bazarlarda təkcə yerli tacir və sənətkarların sayəsində iş getmirdi. Bu sahədə eyni zamanda xarici ölkələrdən gələn tacirlərin fəaliyyəti də az deyildi. Bu barədə xarici ticarətdən bəhs olunduqda danışılacaqdır.

## III FƏSİL

## XARİCİ VƏ TRANZİT TİCARƏT

Xarici ticarət başqa ölkələr kimi, Azərbaycanın da xarici dövlətlərlə əlaqə yaratmasında və onun beynəlxalq miqyasa çıxmasında əsas rol oynayan amillərdən biri olmuşdur. Məhz xarici ticarət sayəsində Azərbaycan XVIII əsrin birinci yarısında müstəqil dövlət olmadığı halda, bir çox Qərb və Şərq dövlətlərində zəngin bir ölkə kimi tanınmaqda idi. Azərbaycanın ərazisindən keçən Qərb ilə Şərq ticarətinin əsas yolları Azərbaycanın beynəlxalq ticarətdəki əhəmiyyətini xeyli artırmışdı. Azərbaycan şəhərlərindən müxtəlif ölkələrin, o cümlədən Rusiyanın, İngiltərənin, Fransanın, Almaniyanın, Polşanın, Hollandiyanın, İsveçin, habelə Hindistanın, İranın, Türkiyənin [231] tacirlərinin gəlib keçmələri və onların bu şəhərlərdə aylarla qalıb ticarət etmələri[232] bunu bir daha təsdiq edir.

Lakin Azərbaycanın başqa Şərq ölkələrinə, xüsusilə İran, Türkiyə və həmçinin Orta Asiyaya nisbətən, Rusiya ilə iqtisadi əlaqəsi daha ardıcıl və yaxın olmuşdur. Hələ xeyli qədimdən kök salmış bu iqtisadi münasibətlər XVIII əsrin əvvəllərindən başlayaraq azərbaycanlıların rus xalqının nümayəndələri ilə daha yaxından tanış olmasında və geniş xalq kütlələri arasında Rusiyaya qarşı təmayülün artmasında böyük rol oynamışdır. Buna görə də həmin məsələnin təhlili istər-istəməz həm elmi, həm də siyasi əhəmiyyət kəsb edir. Lakin XVIII əsrin birinci yarısında Azərbaycan - rus ticarət münasibətləri, demək olar ki, xüsusi bir elmi məsələ kimi hələ də tədqiq edilməmişdir. Doğrudur, respublikamızda bu barədə lazımi sənədlərin olmaması, mövcud olan materialların pərakəndəliyi və yaxud da həmin materiallara nadir hallarda təsadüf olunması tədqiqatçının işini xeyli çətinləşdirir. Lakin Moskva, Leninqrad və Həştərxan arxivlərindəki bir sıra sənədlər və eləcə də müasirlərin qeydləri və konsulların məktubları əsasında Azərbaycanı İrandan ayırmaq şərti ilə sırf rus — Azərbaycan ticarət münasibətləri haqqında bir qədər konkret fikir söyləmək mümkündür. Düzdür, istər Moskva və Leninqrad, istərsə də Həştərxan arxivlərindəki sənədlərdə əsasən Rusiya

[231] «Выдержки...», səh. 34.
[232] M. Çulkov. Göstərilən əsəri, səh. 610.

tacirlərinin ayrı-ayrı Azərbaycan tacirləri ilə apardıqları ticarətdən bəhs edilir. Lakin bu ticarətdən danışdıqca, istər-istəməz, Azərbaycanın da Rusiya ilə ticarətindən danışmaq lazım gəlir.

Digər tərəfdən qeyd etmək lazımdır ki, hələ XVII əsrin sonunda bütün Səfəvi dövlətində başlamış iqtisadi tənəzzül XVIII əsrin birinci yarısında ölkənin təsərrüfat həyatının bütün sahələrində olduğu kimi, öz mənfi təsirini ticarətdə də göstərmişdi. Bununla belə ilk mənbələrdən aldığımız məlumatlardan aydın olur ki, Azərbaycan özünün tutduğu coğrafi mövqeyi sayəsində Qərb ilə Şərq arasında aparılan tranzit ticarətdə əsas yerlərdən birini tuturdu. Azərbaycanın zəngin xammala, təbii sərvətlərə, rahat tranzit yollarına və ilin hər bir fəslində gəmilərin daldalana biləcək Bakı və Lənkəran kimi limanlara malik olması onu həmişə özündən qat-qat qüvvətli qonşu dövlətlərin diqqət mərkəzinə çevirmişdir. Məhz buna görədir ki, İran Səfəvi dövləti dərin siyasi və iqtisadi tənəzzül keçirdiyi bir halda, tərkibinə qılınc gücü ilə daxil edilmiş Azərbaycan, Şərq ilə Qərb arasında, ilk növbədə isə Rusiyanın Şərq ölkələri ilə apardığı ticarətdə həm xammal bazası və həm də magistral ticarət yolu kimi əhəmiyyətini hələ də itirməmişdi. Söz yox ki, Səfəvi dövlətində təsərrüfatın bütün sahələri dərin tənəzzül keçirdiyi bir vaxtda Azərbaycan təkcə özünün daxili qüvvəsi ilə belə bir mövqe tuta bilməzdi. Burada rus dövlətinin bir vasitəçi kimi rolunu xüsusilə qeyd etmək lazımdır.

XVII əsrin axırları və XVIII əsrin əvvəllərində Rusiya Qərbi Avropa və Şərq ölkələri ilə daha fəal ticarət əlaqələri yaratmaq siyasəti aparmağa başlamışdı. Bunu, hər şeydən əvvəl, I Pyotrun hakimiyyəti illərində Rusiyada həyata keçirilən bir sıra yeniliklər tələb edirdi. Bu yeniliklər ölkənin iqtisadiyyatının yeni yüksəliş mərhələsinə qalxması üçün həlledici rol oynamalı idi. Lakin bununla belə Rusiya hələ də texniki və iqtisadi cəhətdən geridə qalmaqda idi. Məhz buna görə də I Pyotr bu geriliyi aradan qaldırmaq və ölkədə sənayeni inkişaf etdirmək məqsədi ilə bir sıra ciddi tədbirlər görməyə başlamışdı.

Məlum olduğu kimi, sənayenin inkişafı bilavasitə xammal bazasından asılıdır. Lakin Rusiyada sənayenin bəzi sahələri, xüsusilə toxuculuq, metaləritmə və s. sahələri üçün ölkə daxilində lazımi dərəcədə xammal ehtiyatı yox idi.

Artmaqda olan manufaktur sənayesini zəruri xammalla təmin etmək üçün I Pyotrun həyata keçirmək istədiyi tədbirlərdən başlıcası xammalla zəngin olan Şərq ölkələri ilə Rusiyanın ticarət münasibətlərini daha da möhkəmləndirməkdən ibarət idi.

Şərq ölkələri arasında Rusiya üçün başqa ölkələrə nisbətən Zaqafqaziya, xüsusilə Azərbaycan və eləcə də İran daha çox əhəmiyyət kəsb edirdi. Bu da təsadüfi deyildi. Məlum olduğu kimi, Azərbaycanın bir çox əyalətlərində, eləcə də Gilanda külli miqdarda xam ipək istehsal edilirdi. Artmaqda olan rus toxuculuq sənayesinə də elə bu lazım idi. Başqa sözlə desək, əgər I Pyotrdan əvvəlki dövrdə Şərq ölkələri ilə ticarət Rusiya üçün əsas etibarı ilə tranzit xarakteri daşıyırdısa, indi xüsusilə Volqa — Xəzər ticarət gəmiçiliyini canlandırmaq yolu ilə bu ticarət

başlıca olaraq artmaqda olan rus sənayesinə xidmət etməli idi. Məhz buna görə də Rusiya Xəzər dənizi ticarət yolundan Şərq ölkələri ilə ticarətdə geniş istifadə etmək[233], əvvəllər Xəzərdə hakim mövqe tutan İranı sıxışdırmaq və bu münasibətlə də Xəzər dənizinə yeganə hakim olmaq üçün tədbirlər görərək bu fikri həyata keçirmək üçün əlverişli bir fürsət axtarırdı. Doğrudur, Rusiya dövləti Xəzər dənizi vasitəsi ilə Şərq ölkələri ilə hələ I Pyotrdan əvvəl də ticarət aparırdı. Dəniz vasitəsi ilə həmçinin Şərq tacirləri, o cümlədən hindlilər, farslar, azərbaycanlılar, ermənilər və b. tacirlər də tez-tez Rusiyaya mal gətirir və oradan da lazımi şeylər aparırdılar[234]. Lakin bunu qənaətbəxş saymaq olmazdı. I Pyotr Volqa-Xəzər ticarətindan böyük gəlir əldə edə biləcəyini nəzərə alaraq Xəzər ticarətini qaydaya salmağı, hətta Xəzər dənizini özünün «daxili gölünə» çevirməyi qərara almışdı. Ona hələ hakimiyyətinin ilk günlərində gördüyü tədbirlər böyük ümidlər verirdi. XVII əsrin lap axırlarında Xəzər dənizi vasitəsi ilə Azərbaycandan keçib getmək şərti ilə Hindistana tacir S. Malenkinin başçılığı altında nümayəndə heyəti göndərilmişdi[235].

Lakin beşillik səfərdən qayıdan S. Malenki Şamaxı şəhərində qəflətən ölmüş və onun bütün sənədləri itib batmışdır. Onun prikazçiklərindən Andrey Semyonov isə S. Malenkinin yerli hakimlərlə apardığı söhbətlər haqqında məlumat verə bilməmişdir. Çünki A. Semyonovun dediyinə görə, S. Malenki danışıqlara öz prikazçiklərini dəvət etmirmiş[236]. Bundan sonra I Pyotr Xəzər dənizinin limanlarını öyrənmək üçün 1700-cü ildə Həştərxandan dəniz vasitəsi ilə cənuba rus dənizçi zabitlərindən Meyeri göndərmişdir. Görünür, Meyer səyahət zamanı Bakının gəmilər üçün təhlükəsiz daldalanacaq, təbii liman və həmçinin ticarət üçün əlverişli bir bazar olmasını nəzərə alaraq yerli hakimlərdən Bakı limanına rus gəmilərinin azad daxil olmasına icazə verilməsini tələb etmişdir. Lakin o zaman Bakıda hökmranlıq edən İran hakimləri bu tələbi rədd etmişlər[237]. Lakin sonralar bəzi üzürlü səbəblərə görə I Pyotr Xəzər dənizinə sahib olmaq məsələsini bir qədər təxirə salmalı oldu. Məlumdur ki, XVIII əsrin əvvəllərində Rusiya İsveçlə müharibə aparırdı. Eyni zamanda 1705-ci ildə Həştərxanda hökumətə qarşı böyük qiyam başlamışdı[238]. Bu qiyam 2 il davam etmiş və şəhərin ticarətinə böyük zərbə

---

[233] В. Пичета. Торговля и промышленная политика в России XVIII в. Книга длл чтения по истории нового времени, т. XII, 1911, səh. 619.

[234] Е. Спиридонов. Экономическая политика и зкономическая взгляды Петра I, М., 1952, səh. 219.

[235] V. Komarov. Göstərilən əsəri, səh. 554; Ə. Quliyev. Azərbaycan-Rusiya münasibətləri tarixindən, Bakı, 1959, səh. 16-20;

[236] P. Komarov. Göstərilən əsəri, səh. 554-555; Tarix elmləri doktoru Ə. N. Quliyev «Azərbaycan - Rusiya münasibətləri tarixindən» adlı kitabında yazır ki, S. Malenkinin başçılıq etdiyi... elçilər heyəti Azərbaycandan keçib Hindistana getmiş və burada müvəffəqiyyətlə danışıq aparmışdır (səh. 19).

[237] L. Lokhart. Göstərilən əsəri, səh. 62.

[238] А. Штылко. Астраханская торговля в старину, Астрахань, 1909, səh. 24; А. Чернов. Астраханское восстание в 1705-1707 гг., «Исторические записки», № 64, 1959, səh. 211.

endirmişdi[239]. İki il sonra 1709-cu ildə Həştərxanda böyük yanğın baş vermişdir. Yanğın zamanı bir çox karvansaralar və mallar yanmış və itmişdi[240]. Lakin rus dövlətinin müharibə aparması və ya daxili məsələlərlə məşğul olması Xəzər dənizi vasitəsi ilə Rusiyaya gələn bir sıra ölkələrin, xüsusilə Azərbaycan, Hindistan və İran tacirlərinin axınının qarşısını ala bilməmişdir. Sovet tədqiqatçılarından N. Q. Kukanova özünün çox da böyük olmayan, lakin «XVII əsrin axırı və XVIII əsrin əvvəllərində rus - İran ticarət münasibəti» adlı zəngin məqaləsində [241] arxiv sənədlərinə əsaslanaraq həmin vaxtlarda Rusiyaya axışıb gələn tacirlərin adını çəkmiş və konkret misallar gətirmişdir. N. Q. Kukanova inqilabdan əvvəlki tarixçilər kimi, səhv olaraq «İran» məfhumu altında o zaman Səfəvi dövlətinin tərkibində olan bütün ölkə və vilayətləri nəzərdə tutur. Belə olduqda Rusiyanın Xəzər dənizi vasitəsi ilə apardığı ticarətdə bir çox ölkələr kimi, Azərbaycanın da siması görünmür. Halbuki Rusiyanın ipəyə olan ehtiyacı da, rus gəmilərinin Xəzərdə sığınacaq tapdığı limanlar da, rus tacirlərinin axışıb gəldiyi əsas şəhərlər də, Rusiyadan cənuba gedən magistral karvan yolları da Azərbaycana mənsub idi. Ona görə də rus - İran ticarət münasibətlərindən danışarkən həmişə Azərbaycan tacirlərinin və ümumiyyətlə, müxtəlif xalqların nümayəndələrinin Azərbaycanda əldə edib satmaq üçün apardıqları mallar nəzərdən çıxarılmamalıdır. Bir də ki, bu və ya digər xalqların nümayəndələrinin Azərbaycanda əldə edib satmaq üçün apardıqları xam ipək və s. malların xarici bazarlarda satmalarına, daha doğrusu, Azərbaycan malları ilə Rusiyada ticarət etmələrinə yalnız Azərbaycanın xarisi və tranzit ticarəti kimi baxmaq lazımdır. Çünki çox zaman Azurbaycan tacirləri Həştərxan, Moskva, Peterburq və b. şəhərlərlə ticarətə bilavasitə özləri girişməyib, bunu dəllallar vasitəsi ilə həyata keçirirdilər.

Şübhəsiz, bu da əsassız deyildi. Bunu, hər şeydən əvvəl, azərbaycanlı tacirlərin əksəriyyətinin rus dilini və ya qeyri-xarici dili bilməmələrindən irəli gələn bir səbəb kimi izah etmək lazımdır. Digər tərəfdən məlumdur ki, XVIII əsrin əvvəllərində Səfəvi dövlətində olan feodalların əksəriyyəti müsəlman idi. Xristian təbəələr, ruhanilər istisna olmaqla, əsasən kəndlərdə rəiyyət və rəncbər, şəhərlərdə isə sənətkar və xırda alverçi kimi çalışırdılar. Məhz belə xırda alverçilər öz malikanələrindən ayrılmağa ehtiyat edən, xristian aləmi ilə yaxından tanış olmayan müsəlman feodalların ipək və s. xammallarını alıb, xarici bazara çıxarır və beləliklə də, tacir olurdular. Lakin bir sıra tarixi sənədlərdən aydın olur ki, artıq XVIII əsrin əvvəllərində azərbaycanlı və iranlı tacirlərin özləri də xaricə mal aparmağa başlamışdılar[242].

---

[239] A. Çernov. Göstərilən əsəri, səh. 211.
[240] A. Штылко. Астраханская торговля в старину, Астрахань, 1909, səh. 24;
[241] Н. Г. Куканова. Русско-иранские торговые отношения в конце XVII-нач. XVIII в., «Исторические записки», № 57, 1956.
[242] ÇQADA, fond 77, iş 1 (1711 - 1713 illər.), vərəq 330.

Lakin xarici ölkə tacirləri Azərbaycanda və eləcə də Azərbaycan tacirləri Rusiya və xarici ölkələrdən gətirdikləri malları asanlıqla istədikləri qiymətə sata bilmirdilər. Məhz elə həmin məsələ dövlətlər arasında narazılığa və bu barədə uzun-uzadı danışıqlar aparmağa səbəb olurdu.

1712-ci ildə İran hökuməti Fəzlulla bəyin başçılığı altında Moskvaya böyük səfarət göndərdiyi zaman səfir Rusiyanın dövlət kansleri qraf Qolovkinə İran təbəələrindən 22 tacirin şikayətini təqdim etmişdi. Tacirlər onların Rusiya şəhərlərində yerli hakimlər tərəfindən sıxışdırılmalarından şikayətlənirdilər. Səfir eyni zamanda çox təkidlə şahın dəllalları vasitəsi ilə satmaq üçün göndərdiyi mallarının Arxangelsk şəhərindən xaricə buraxılmasına və gömrüksüz satılmasına icazə verilməsini xahiş etmişdi[243].

Rusiya İran dövlətinin xahişlərinə əməl etmiş və öz növbəsində şikayətlənərək göstərmişdi ki, Culfa (İsfahan yaxınlığındakı yeni Culfa şəhəri nəzərdə tutulmuşdur) tacirlərinin xahişlərinə görə Şamaxıda ruslara xam ipək satmaq qadağan edilmişdir. Hətta 1712-ci ildə tacir İlyas İsayevin (çox güman ki, bu şəxs ya Kazan tatarlarından və yaxud da kalmıq olmuşdur) öz adamları ilə birlikdə Şamaxıdan pul ilə aldığı xam ipək zorla ondan geri alınmış, özünü köməkçiləri ilə birlikdə uzun müddət həbsdə saxlamışlar. İ. İsayev yalnız yazılı surətdə İran dövlətinin heç bir yerində pulla xam ipək almayacağına söz verdikdən sonra həbsdən azad olmuşdur[244].

Rusiya dövləti həmçinin təklif etmişdi ki, Culfa ermənilәri Gilandan aldıqları ipəyi xarici ölkələrə Türkiyə vasitəsi ilə deyil, Xəzər dənizi vasitəsi ilə Rusiyadan aparsınlar. Göründüyü kimi, Rusiya Şərq ölkələri ilə ticarət münasibətləri yaratmaqda iki məqsəd güdürdü: həm xaricə aparılan ipəkdən Rusiya şəhərlərində ticarəti canlandırmaqla eyni zamanda gömrük toplanılsın və həm də özünün imkişaf etməkdə olan toxuculuq sənayesini xam ipəklə təmin edə bilsin.

Lakin yuxarıda qeyd edilən tədbirlər gözlənilən nəticəni vermədi. Xam ipək ticarətində görkəmli rol oynayan yerli tacirlər Xəzər boyu əyalətlərdən topladıqları ipəyin çox hissəsini yenə də Türkiyə torpaqlarında satırdılar. Rus tacirləri yenə də Xəzər boyu əyalətlərdə, xüsusilə xam ipəklə zəngin olan Azərbaycan şəhərlərində yerli hakimlərin özbaşınalıqlarının qurbanı olurdular. Bu isə rus dövlətinə hərtərəfli zərər vururdu. Odur ki, I Pyotr hər cür vasitə ilə Xəzər boyu vilayətlərinin sərvətini Xəzər dənizi və Volqa çayı vasitəsi ilə Rusiyaya cəlb etmək üçün tədbirlər gördü. Əlverişli şəraitin olmaması I Pyotrun bu barədə İran hökuməti ilə yaxından danışıqlar aparmaq işini ləngitdi. Lakin tezliklə bu iş üçün fürsət ələ düşdü. 1712-ci ildə rus tacirlərinin Şamaxıda qarət olunması və Şah Soltan Hüseynin əfqan qəbilələrinə qarşı çıxmaq və xalq üsyanlarını boğmaq üçün rus

[243] N. Q. Kukanova. Göstərilən əsəri, səh. 234.
[244] ÇQADA, fond 77, iş 1 (1713-1714 illər), vərəq 244.

dövlətindən kömək almaq məqsədi ilə I Pyotra müraciəti imperatorun İrana A. P. Volınskinin simasında səfir göndərməsi işini sürətləndirdi.

I Pyotrun A. P. Volınskiyə verdiyi təlimatda əsas yerlərdən birini ticarət məsələləri tuturdu. Təlimatın 6-cı bəndində A. P. Volınskiyə tapşırılırdı ki, o, İranla ticarət münasibətlərini qaydaya salmaq üçün şah hökuməti ilə müqavilə bağlasın, Hindistanla ticarətin təsis edilməsinin mümkün olmasını, hindlilərlə iranlıların nə kimi mallarla ticarət etmələrini və onların nəyə daha çox ehtiyacları olduğunu öyrənsin[245].

Təlimatın 7-ci bəndində tələb olunurdu ki, A. P. Volınski nə kimi vasitə ilə olursa-olsun İranın bütün əyalətlərində rus təbəələrinin gömrüksüz ticarət etmələri üçün şahın razılığını alsın[246].

Rus dövlətinin İran hökuməti qarşısına qoyduğu təkliflər əsassız deyildi. Həqiqətən normal ticarətin aparılmasına bir çox səbəblər maneçilik törədirdi. Bu səbəblərdən biri də, yuxarıda qeyd edildiyi kimi, yerli hakimlər tərəfindən rus tacirlərinin hüquqlarının məhdudlaşdırılmasından ibarət idi. A. P. Volınski Səfəvi dövlətinə səfəri zamanı yolunu əsas etibarı ilə rus tacirlərinin daha çox ticarət etdikləri Azərbaycan şəhərlərindən salmış və Nizabadda, xüsusən, Şamaxıda rus təbəələrinin yerli hakimlər tərəfindən sıxışdırıldığının şahidi olmuşdur. O yazır ki, rus gəmiləri Nizabada gəldikdə yerli hakimlər rus tacirlərindən qeyri-qanuni pul almadan onları Şamaxıya buraxmırdılar. Müqavimət göstərən tacirin malları isə zorla Nizabadda saxlanılırdı. Bu isə tacirə böyük ziyan vura bilərdi. Odur ki, rus tacirləri tələb olunan məbləği verməyə məcbur olub, tezliklə özlərini zəngin bazarı olan Şamaxıya çatdırırdılar. Şamaxıda isə tacirləri başqa cür soyurdular. Qoyulan qaydaya görə əsnəbi tacirlərdən heç birinin bəylərbəyinin icazəsi olmadan malını satmağa ixtiyarı yox idi. Şəhərə gətirilən mallar əvvəlcə bəylərbəyinin adamları tərəfindən gözdən keçirilir, ən yaxşıları seçilir və çox ucuz qiymətləndirilirdi. Hələ bunlar bir tərəfə dursun, bəylərbəyi çox zaman malları nisyə götürür və borcunu yarım il və ya daha çox saxlayırdı, bəzən o, borcunu bir şərtlə qaytarırdı ki, tacir ona hər bir manata 10 qəpik güzəştə getmiş olsun. Yalnız bəylərbəyi mal seçdikdən sonra tacirə öz mallarını satmağa icazə verilirdi. Rus tacirlərinin gətirdiyi mallar çox nadir hallarda nəğd pula satılırdı. A. P. Volınski yazır ki, tacirlərimiz mallarını əksər hallarda nisyə verirdilər. Çox zaman nisyə mal alan şəxs müəyyən vaxtdan sonra pul əvəzinə yenə də həmin malı qaytarırdı. Belə hallarda rus tacirlərinə böyük zərər toxunmuş olurdu. Əks təqdirdə tacir ya alıcıya güzəştə gedib malını satır və ya malı tamamilə itib batırdı. Əgər həmin tacir bu barədə məhkəməyə

---

[245] V. Ulyanitski. Göstərilən əsəri, II hissə, səh. 200.
[246] Yenə orada.

şikayət etsəydi, o zaman malının ümumi məbləğinin 10 faizini qazıya verməli idi[247].

Əlbəttə, rus tacirləri belə haqsızlığın əleyhinə çıxmaya bilməzdilər. Onlar dəfələrlə öz hökümətlərinə müraciət edib bu hərc-mərcliyin qarşısını almağı xahiş etmişdilər. Məhz buna görə də İrana yola düşən A. P. Volınskiyə tapşırılmışdı ki, rus tacirlərinin yerli hakimlər tərəfindən sıxışdırılması hallarına son qoyulması haqqında şahın sarayında məsələ qaldırsın[248].

Qeyd edildiyi kimi, Şah Soltan Hüseyn iradəsiz və bacarıqsız bir hakim olduğu üçün bütün dövlət işlərini baş vəzir Fətəli xan öz əlinə almışdı. Odur ki, A. P. Volınski İsfahanda bilavasitə şahla deyil, baş vəzirlə danışıqlar aparmalı oldu. A. P. Volınski Fətəli xana aşağıdakı məzmunda müqavilə mətni təklif etmişdir.

1. İran ermənilərinə Rusiyada kilsə açmaq ixtiyarı verildiyi, həmçinin romalı iezuitlərin və başqalarının İran torpağında qanuni kilsələri olduğu üçün, ruslara da İranda kilsə inşa etməyə icazə verilməlidir.
2. Rus tacirlərinə İranın bütün vilayətlərində sərbəst ticarət etmək üçün icazə verilməlidir; İran təbəələri Rusiyada sərbəst ticarət etdikləri kimi, rus tacirləri də Gilanda və İran dövlətinin bütün əyalətlərində əldə etdikləri xam ipək və digər malları maneəsiz surətdə Rusiyaya aparmalıdırlar.
3. 1667 və 1673-cü illərin müqavilələrinə əsasən, Culfa erməni kompaniyası İranın bütün vilayətlərində hasil olan xam ipəyin hamısını və digər malları satmaq üçün Rusiyaya gətirməlidir. Türkiyəyə və başqa yerlərə gedən ticarət yollarına əhəmiyyət verilməməli və həmin kompaniyaya əmr edilməlidir ki, ticarətini yalnız Rusiya dövləti ilə aparsın, halbuki hazırda onlar (Rusiyaya) çox az ipək gətirirlər.
4. Dağıstan feodallarından bəzilərinin rus torpağına basqınları zamanı tutduqları əsirlər və xüsusilə Xəzər dənizinin İran sahillərində fəlakətə uğramış rus gəmilərində olan soldat və tacirlər həbsdən azad edilib (Rusiyaya) qaytarılsın.
5. Xəzər dənizinin sahillərindəki Nizabad və Dərbənd limanları dayaz olduğu üçün busalar[249] çox zaman torpağa oturur, ona görə də busalardan istifadə etmək əlverişli deyildir. Onların çoxu dənizdə itib batır. İndi dənizdə hər iki dövlətin ticarəti üçün gəmilər daha əlverişlidir, çünki onların dənizdə oturumu busalara nisbətən dərindir. Buna görə də Əlahəzrət şah buyurmalıdır ki, (tufanlı) havalarda gəmilərin dayanması üçün başqa yer axtarılsın və orada da ticarət müəssisəsi təsis

---

[247] A. P. Volınskinin jurnalı; səh. 9.

[248] V. Ulyanitski. Göstərilən əsəri, II hissə, səh. 201; П. П. Мельгунов. Очерки по истории русской торговли в IX—XVIII вв. М., 1905, səh. 249. Rus tacirlərinin qarət olunması və öldürülməsi haqqında bax: Письма и указы государей; Императора Петра Великого, императрицы Екатерины I, императора Петра 11, императрицы Анны Ивановны, императрицы Елизаветы Петровны и персидского шаха Тахмасиба к аншефу, сенатору орденов свитого апостола Андрея первозванного и свитого Александра Невского кавалеру Василью Яковлевичу Левашеву, М., 1808, səh. 10.

[249] Busa bütöv bir ağacdan oyulmuş burnu iti, dalı kəsik, döşəməsi isə dairəvi olan qayıqdır. Bu qayıqlar bir növ yerli qayıqlardan səndalları xatırladır.

edilsin. Həmçinin əmr edilsin ki, orada tacirlər üçün karvansara tikilsin, əks təqdirdə həm rus və həm də digər tacirlərə böyük zərər dəyə bilər.

Müqavilənin 6-cı bəndində bir çox şəhərlərdə, xüsusilə Şamaxıda və Nizabad limanında rus tacirlərinin yerli hakimlər, gömrükxana məmurları və borclarını verməyən tacirlər tərəfindən sıxışdırılmalarından, ərizəyə[250] əsasən alınan gömrüyün ağırlığından (hər tüməndən 1 manat), şahın icazəsinə baxmayaraq, Şamaxıda ipək alan rus tacirlərinin sıxışdırılmalarından, Rusiyada İran tacirlərindən alınan gömrükdən fərqli olaraq burada daha artıq və qanunsuz gömrük alınmasından, Şamaxıda işləyən Kazan tatarlarından şahın xəzinəsi üçün qanunsuz vergi toplanılmasından bəhs edilirdi[251].

A. P. Volınskinin İranın baş vəziri Fətəli xana təqdim etdiyi təkliflər 21 bənddən ibarət idi. 8-ci bənddən 21-ci bəndə kimi olan təkliflər əsasən rus tacirlərinin sıxışdırılmalarından, onların qarət olunmalarından, verdikləri borclarını geri ala bilməmələrindən, habelə yerli hakimlər, tacirlər, dəllallar və dilmanclar tərəfindən edilən haqsızlıqdan danışılırdı. A. P. Volınski bütün bu narazılıqların qarşısını almaq üçün Səfəvi dövlətində rus tacirlərinin mənafeyini qorumaq məqsədi ilə rus tacirlərinin daha çox alver etdikləri ticarət mərkəzlərinin birində konsulxana təsis etmək məsələsini irəli sürmüşdü[252].

A. P. Volınskinin İran dövlətinə təqdim etdiyi təkliflər hökumət tərəfindən közdən keçirilmiş və əsasən qəbul olunmuşdur. Lakin İran hökuməti də öz növbəsində baş vəzir Fətəli xanın sədarəti altında təkliflərini hazırlayıb A. P. Volınskiyə vermişdir. Səfir həmin təklifləri özü qayıtmazdan əvvəl Rusiyaya göndərmişdir. Eyni zamanda İran dövləti Rusiya ilə ticarət əlaqələrini qaydaya salmaq məqsədi ilə lazımi tədbirlər görmüşdür. Bu xüsusda şah on bənddən ibarət bir fərman vermişdir. Fərmanın I, II və III bəndlərinə əsasən Nizabada gələn rus tacirləri öz mallarını orada satmaq istəməsələr yerli hakimlər onları məcbur etməməli, yüklərini zorla açmamalı, yollarına davam etmək istədikdə onlara karvan tutmaqda və b. hallarda hər cür vasitə ilə kömək etməli, onlardan qanundan kənar gömrük almamalı idilər. Həmçinin yerli hakimlərdən tələb olunurdu ki, onlar Nizabaddan Şamaxıya gedən rus ticarət karvanlarının silahlı dəstələrlə müşayiət olunmalarını təmin etsinlər. Həmin dəstələr yol boyu rus tacirlərinə tabe olmalı və rusların əmin-amanlığı üçün məsuliyyət daşımalıdırlar.

Fərmanın IV bəndində Şirvan bəylərbəyindən tələb olunur ki, Şamaxıya gələn rus tacirlərinə öz mallarını satmaqda maneçilik törətməsin, onların mallarının qiymətini aşağı salmasın, zorla onlardan pulsuz mal almasın. Rus tacirləri

---

[250] Mətndə «челобитная» yazılmışdır. Həmin sözün mənası «yazılı ərizə» deməkdir. Çox güman ki, həmin ərizə bu və ya digər şəhərə mal aparmaq məqsədi ilə icazə almaq üçün yazılmış ərizələrdən imiş. Belə ərizələrdə tacir eyni zamanda özü ilə satmağa apardığı malların siyahısını da yazırdı.

[251] V. Ulyanitski. Göstərilən əsəri, II hissə, səh. 202.

[252] Пункты предложенные А. П. Волынским эхтимадевлету 1717г. Bax: V. Ulyanitski. Göstərilən əsəri, II hissə, əlavə 42.

Şamaxıda sıxışdırıldıqda, təhqir və qarət olunduqda, öz borclarını geri almaq üçün məhkəməyə müraciət etdikdə onlardan dəhyek (pulun onda biri) alınmasın və onlara hər cür kömək edilsin.

Fərmanın V bəndində yerli tacirlərdən tələb olunur ki, aldıqları borc və nisyə malın dəyərinin qaytarılması üçün vaxt müəyyən edilsin. Əgər yerli tacir borcunu vaxtında qaytara bilməsə, 1000 tümənə hər ay bir tümən faiz əlavə etməlidir. Nisyə alınmış mal xeyli vaxt saxlanıldıqdan sonra yiyəsinə qaytarıldıqda tacirə mütləq lazım olan faiz verilməlidir.

Fərmanın VI bəndində deyilir ki, öz malını Şamaxıda və ya başqa yerdə satmaq istəməyən rus tacirlərinə başqa şəhərlərə getməyə icazə verilməli və onlardan nə xərc və nə də rahdari alınmalıdır. Onlar yalnız öz mallarını satdıqda gömrük verməlidirlər.

Fərmanın VII bəndi rus tacirlərinə Şirvan və Şamaxıdan xam ipək almaqda maneçilik törədilməməsini, VIII bəndi rus tacirlərinə çoxlu ziyan vuran yerli dilmancların fırıldaqlarına son qoyulmasını, IX bəndi başqa tacirlərə nisbətən rus tacirlərindən çox gömrük alma hallarını aradan qaldırmağı və ən nəhayət, X bəndi Şamaxıdan Nizabada gedən rus ticarət karvanlarının tacirlərin hesabına atlı dəstələrlə müşayiət olunmalarını, yolda oğurlanmış və ya itmiş rus mallarının tapılıb tacirə qaytarılmasını, dənizdə baş verən tufan zamanı Şirvan, Gilan və Mazandaran sahillərində kənara atılan rus mallarına əl vurulmamasını və yiyələrinə qaytarılmasını tələb edirdi[253].

Həmin fərmanın surəti bütün ticarət mərkəzlərinə, xüsusilə Şirvan və Gilan hakimlərinə göndərilmiş və İranın Rusiya ilə ticarət müqaviləsi bağlaması haqqında onlara xəbərdarlıq edilmişdir[254].

İran şahının fərmanında əks olan məsələlərin heç biri yersiz deyildi. Qeyd edildiyi kimi, həqiqətən, Şamaxıda rus tacirləri İran məmurları tərəfindən çox sıxışdırılırdılar[255]. Lakin buna baxmayaraq, rus tacirləri başqa şəhərlərə nisbətən Şamaxıya daha artıq axışıb gəlirdilər.

Məhz elə buna görə də təsadüfi deyildir ki, A. P. Volınski rus tacirlərinin Şamaxı bazarına göstərdikləri marağı və eyni zamanda onların yerli hakimlər tərəfindən sıxışdırılmalarını nəzərə alaraq, rus dövlətinin ilk konsulxanasını başqa yerdə deyil, Şamaxı şəhərində təsis etmək məsələsini qaldırmışdı [256]. Konsulxananın əsas vəzifəsi rus tacirlərinin mənafeyini qorumaqdan, onların yerli tacirlərlə olan mübahisələrini həll etməkdən və s. ibarət olmalı idi. Əldə olan

[253] PSZRİ, t. V (1713-1719 illər.), SPb, 1830, səh. 500-503; V. Ulyanitski. Göstərilən əsəri, II hissə, əlavə 43; P. Butkov. Göstərilən əsəri, səh. 5-6; A. Штылко. Астраханская торговля в старину, Астрахань, 1909, səh. 25; С. Броневский. Новейшие географические и исторические известия о Кавказе, II cild, M., 1823, səh. 200.

[254] P. Butkov. Göstərilən əsəri, səh. 5; V. Ulyanitski. Göstərilən əsəri, I hissə, səh. 202.

[255] A. P. Volınskinin jurnalı, səh. 9.

[256] V. Ulyanitski. Göstərilən əsəri, I hissə, səh. 203.

sənədlərdən aydın olur ki, Şamaxıda konsulxana təsis edilməzdən əvvəl, tacirlər arasında mübahisə və ya narazılıq baş verdikdə onlar çox zaman dilmancların köməyinə müraciət edərlərmiş. V. Ulyanitski yazır ki, Şamaxıda və başqa şəhərlərdə tacirlərdən xüsusi «dilmanc pulları» toplanılırdı[257]. Lakin dilmancların ticarətin gedişinə köməkdən çox zərəri dəyirdi. Dilmanclar bir çox hallarda mübahisələrin baş verməsinə və həmçinin tacirlərin maddi cəhətdən zərər çəkmələrinə səbəb olurdular. Çünki dilmanclar əsasən yerlilərdən olduqları üçün çox zaman mübahisələri yerli tacirlərin xeyrinə həll etməyə çalışırdılar. Bəzi hallarda gəlmə tacirlərdən bir neçə dəfə «dilmanc pulu» alınırdı. A. P. Volınski şikayətlənərək yazırdı ki, Şamaxıda «dilmanc pulu» verən tacirlərdən haqsız olaraq başqa şəhərlərdə də həmin məbləği alırdılar[258]. Buradan elə bir qənaətə gəlmək olar ki, «dilmanc pulu» da rahdari və ya mizan vergiləri ilə yanaşı olaraq dilmancların xidmətindən istifadə edib-etmələrindən asılı olmayaraq əcnəbi tacirlərdən mütləq vergi kimi alınarmış. Lakin Şah Soltan Hüseynin 1717-ci ildəki fərmanına əsasən «dilmanc pulu»-nun eyni tacirdən bir neçə dəfə məcburi surətdə alınması qadağan edildi[259].

Çox güman ki, Şah Soltan Hüseyn həmin fərmanı A. P. Volınskinin şikayətindən sonra vermişdir. Deyilənlərdən aydın olur ki, «dilmanc pulu» əcnəbi tacirlərdən zorakılıqla alınan gömrüklərdən biri imiş. A. P. Volınski İsfahandan Peterburqa qayıdarkən uzun müddət Şamaxıda olmuşdur. O, Şamaxı bəylərbəyisi ilə söhbət zamanı demişdir ki, şahın əmrinə görə rus tacirləri heç bir «dilmanc pulu» verməməlidirlər. Onlar ildə 1000 manatdan artıq «dilmanc pulu» verdikləri halda, bu işdən zərərdən başqa xeyir görməmişlər[260].

Şübhəsiz, dilmancların tacirlərə az da olsa köməyi dəyirdi. Onlar rus, Azərbaycan və fars dillərini bilməyən tacirlər arasında vasitəçi olurdular. Lakin rus dövləti dilmancların fəaliyyətini qiymətləndirməməkdə, hər şeydən əvvəl, öz mənafeyini güdürdü. Bu da İran dövlətinin vilayətlərində rəsmi konsulxanalar təsis etməyə nail olmaqdan ibarət idi. Yuxarıda qeyd edildiyi kimi, A. P. Volınski rus tacirlərinin mənafeyini qorumaq məqsədi ilə İran dövlətinin ərazisində konsulxana təsis etmək məsələsini qaldırmışdı. Uzun danışıq və məktublaşmadan sonra Şah Soltan Hüseyn 1720-ci ildə konsulxananın təsis olunmasına icazə verdi[261].

İndi qarşıda konsulxananın hansı şəhərdə təsis edilməsi məsələsi dururdu. Azərbaycan və İranın bir çox şəhərlərini gəzmiş A. P. Volınski ticarət sahəsində Azərbaycan şəhərlərinin üstünlüyünün və rus tacirlərinin Azərbaycanda ticarətdən

---

257 Yenə orada.
258 A. P. Volınskinin jurnalı, səh. 9.
259 Перевод указов Шаховых, которые действо имеют жалованных для коммерции в Персии, оные за печатью шахова (1717), АКАК, т. II, доп. к I тому, Tiflis, səh. 1089.
260 V. Ulyanitski. Göstərilən əsəri, I hissə, səh. 203.
261 M. Çulkov. Göstərilən əsəri, səh. 102; А. Штылко. Астраханская торговля в старину, Астрахань, 1909, səh. 25.

daha çox gəlir əldə etdiklərinin şahidi olmuşdu. Buna görə də onlar Şamaxıda və ya Bakıda yerli hakimlər tərəfindən sıxışdırıldıqları halda belə həmin şəhərlərlə ticarət əlaqələrini kəsmək fikrində deyildilər. Əksinə, Şamaxıya daşınıb gələn yüksək keyfiyyətli Azərbaycan ipəyi, Bakı nefti və şəhərin zəngin bazarı xarici ölkə tacirlərinin, o cümlədən rusların diqqətini həmişə özünə cəlb edirdi. Odur ki, A. P. Volınski konsulxananın Şamaxı şəhərində təsis olunmasını təklif etmişdi[262]. Şamaxı şəhərinin konsulxana üçün əlverişli olması haqqında A. P. Volınski Xarici İşlər Kollekiyasında da məlumat vermişdi[263]. A. P. Volınski, hətta Şamaxıya kimin konsul göndərilməsini müəyyənləşdirməyi təklif etmişdi.

Tezliklə rus hökuməti qvardiya kapitanı S. Baskakovu konsul təyin edib, Şamaxıya göndərmək üçün hazırlıq gördü. Nəzərdə tutulan Şamaxı konsulxanası təkcə Azərbaycanda deyil, eyni zamanda İranın bütün şəhər və vilayətlərində rus tacirlərinə istiqamət verməli və həmçinin onların mənafeyini qorumalı idi. Lakin tezliklə İran hökuməti konsulxananın Şamaxı şəhərində təsis olunmasına qəti etiraz edərək bildirdi ki, konsulxana yalnız İranın paytaxtı İsfahanda yerləşməlidir. Əlbəttə, məsələnin şah hökümətі tərəfindən belə qoyulması aydın idi. Çox güman ki, Şah Soltan Hüseyn rus tacirlərini İsfahan şəhərinə cəlb etmək və burada ticarəti canlandırmaq məqsədini güdürdü. Lakin I Pyotr İran dövlətinin təklifinin tamamilə əksinə çıxdı və bildirdi ki, konsulxana ilk növbədə tacirlərin mənafeyini qorumaq üçün lazımdır, rus tacirlərinin əksəriyyəti isə Şamaxı şəhərində ticarət edir, odur ki, konsulxana elə şəhərdə təsis olunmalıdır ki, orada qızğın ticarət getmiş olsun.

Uzun danışıqlardan sonra İran dövləti ilə Rusiya belə qənaətə gəldilər ki, İsfahan paytaxt olduğu üçün konsulxana da orada yerləşdirilsin, Şamaxıda isə həmin konsulun müavini otursun[264].

İran dövlətinin paytaxtı İsfahana ilk rus konsulu Semyon Abramovu, Şamaxıya isə konsul müavini və ya konsulun canişini adı ilə A. Baskakovu göndərmək qərara alındı. Bu münasibətlə Xarici İşlər Kollegiyası 1720-ci il dekabrın 21-də İran dövlətinə xüsusi məktub göndərdi. Həmin məktubun Azərbaycana aid olan hissəsində deyilirdi ki, rus tacirləri əsas etibarilə Şamaxıda ticarət edirlər, lakin rus dövlətinin nümayəndəsi olmadığından orada bir çox qayda-qanunsuzluq baş verir, buna görə tacirlərimiz, Şamaxı ticarətini idarə etmək və tacirlərin mənafeyini qorumaq üçün tacir Aleksey Baskakovu konsul Abramovun canişini seçmişlər. A. Baskakov baş verən hər bir mübahisəli məsələni həll etmək üçün bəylərbəyi və ya digər yerli hakimlərin köməyinə müraciət etməli, onlar da bu işdə ədalətli olmalıdırlar. Lakin o, yerli hakimlərdən kömək ala bilməsə, məktub vasitəsi ilə bu barədə İsfahandakı konsul S. Abramova məlumat verməlidir. S.

[262] V. Ulyanitski. Göstərilən əsəri, II hissə, əlavə 43.
[263] V. Ulyanitski. Göstərilən əsəri, I hissə, səh. 205.
[264] V. Ulyanitski. Göstərilən əsəri, I hissə, səh. 205; V. Komarov. Göstərilən əsəri, səh. 553.

Abramov da öz növbəsində şahın hüzurunda məsələ qaldırmalı və həmin məsələnin həllinə nail olmalıdır.

A. Baskakovun - rus ordusunun qvardiya kapitanının bir tacir kimi qələmə verilməsi və onun Şamaxıya konsul müavini təyin edilməsi bir qədər dəqiqlik tələb edir. Qvardiya kapitanı A. Baskakovun tacir adı ilə konsul müavini və ya canişini «seçilməsi» ticarətdən çox siyasi məqsəd daşıyırdı. Məsələ burasındadır ki, 1718-ci ildə üçillik səfərdən qayıdan A. P. Volınskinin topladığı məlumatlar I Pyotra Xəzər boyu əyalətləri asanlıqla zəbt edə biləcəyinə böyük ümidlər verirdi[265]. Odur ki, I Pyotr nəzərdə tutduğu yürüşə hazırlıq münasibəti ilə bir sıra tədbirlər həyata keçirirdi. Bu tədbirlərdən biri də cənuba gedən yolların ordunun gedişi üçün rahat olub-olmadığını müəyyən etməkdən ibarət idi. Bunu bir çox tarixi sənədlər — A. Baskakov Şamaxıya gələrkən onu müşayiət edənlərin arasında dörd nəfər geodezistin olması[266] həmçinin I Pyotrun Həştərxana qubernator təyin edilmiş[267] A. P. Volınskiyə verdiyi əmr bir daha sübut edir. Əmrdə deyilirdi: «Konsul müavini vəzifəsinə elə zabit seçilməlidir ki, quru yolla Şamaxıya gedib geri qayıtdıqda yolların ordunun hərəkəti üçün nə dərəcədə rahat olub-olmadığını öyrənə bilsin və eyni zamanda Şamaxıda tacir adı ilə yaşayanları nəzərdən keçirsin»[268].

A. Baskakovun özünə verilmiş məxfi təlimatdan da eyni qənaətə gəlmək olar. «Terekdən Şamaxıya və oradan da Abşeron və Gilana gedən yollar öyrənilməli və ordunun hərəkəti üçün rahat olub-olmaması müəyyən edilməlidir. Yerlərdəki vəziyyətlə də yaxından tanış olmaq lazımdır»[269].

Həmin məsələlərin öyrənilməsi rus dövləti üçün böyük siyasi əhəmiyyət kəsb edirdi. Rus dövləti hər cür vasitə ilə türklərin Zaqafqaziyanı ələ keçirmək təhlükəsinin qarşısını almağa çalışırdı. Deməli, A. Baskakov Şamaxı şəhərinə eyni zamanda bir hərbi kəşfiyyatçı kimi də göndərilmişdi. Lakin I Pyotr bu məsələni hər cür vasitə ilə pərdələməyə çalışırdı. Bunu A. Baskakovun Şamaxıya ezam edilməsi haqqında I Pyotrun Şah Soltan Hüseynə göndərdiyi məktubundan müəyyən etmək olar. Məktubda deyilir ki, A. P. Volınski ilə Etimad-üd-Dövlə arasında aparılan danışıqlara əsasən Şamaxıya «ticarətdə mahir olan Aleksey Baskakov» göndərilir[270].

A. Baskakovun Şamaxıya ezam edilməsi haqqında Şirvan bəylərbəyisinə də müvafiq məktub göndərilmişdi. Məktubun müəllifi olan kansler qraf Q. İ.

---

[265] Д. Корсаков. А. П. Волынский (Биографический очерк), «Древняя и новая Россия», т. I, 1877, səh. 84.
[266] ЦГАДА, кабинет Петра I, отд. I, кн. 30, vərəq 125-126.
[267] D. Korsakov. Göstərilən əsəri, səh. 85-89.
[268] V. Ulyanitski. Göstərilən əsəri, I hissə, səh. 209.
[269] Yenə orada, səh. 210; S. Solovyov. Göstərilən əsəri, səh. 35.
[270] Грамота от царского величества к шаху персидскому. Bax: V. Ulyanitski. Göstərilən əsəri, II hissə, əlavə 44; M. Çulkov. Göstərilən əsəri, səh.103, 113; A. Ştılko. Göstərilən əsəri, səh. 25; ЦГАДА, кабинет Петра Великого, отд. I, кн. 30, vərəq 125-126.

Qolovkin də yerli hakimlərdən A. Baskakova müstəqillik verməyi tələb etmiş və A. Baskakovun Şamaxıya yalnız ticarət xatirinə gəlməsini göstərmişdir[271].

Beləliklə, qeyd etmək lazımdır ki, A. Baskakovun Şamaxı şəhərinə göndərilməsi bir daha Şamaxının zəngin ticarət şəhəri olmasını və həmçinin Rusiyanın Azərbaycanda öz ticarət əməliyyatını möhkəmlətmək məqsədini güddüyünü, XVIII əsrin birinci yarısında bir çox tarixçilərin «rus— İran ticarəti» dedikdə bu ticarətdə əsas yerlərdən birini Azərbaycan şəhərlərinin tutmasını və rus tacirlərinin əsasən Azərbaycanda məskən salmasını sübut edən təkzibedilməz dəlillərdən biridir. Heç də təsadüfi deyildir ki, A. P. Volınski və I Pyotrun kabinəsi «rus—İran ticarətini» qaydaya salmaq məqsədi ilə konsulxananın məhz Şamaxı şəhərində təsis olunmasını təkid edirdilər. Maraqlı burasıdır ki, hətta İsfahana konsul göndərilən S. Abramova verilən təlimatın bir çox bəndləri də Şamaxıdan bəhs edirdi. S. Abramova tapşırılmışdı ki, Şamaxıdakı konsul müavinin işinə daima nəzarət etsin, onunla mütəmadi surətdə məktublaşsın[272], bir çox şəhərlərdən, o cümlədən Şamaxıdan Türkiyəyə aparılan ipəyin hamısının Rusiyaya göndərilməsinə nail olsun və həmin tacirlərə bildirsin ki, rus dövləti onlara gömrük və s. barədə xeyli güzəştə hazırdır[273].

Şamaxıya göndərilən konsul müavini A. Baskakova aşağıdakı məzmunda təlimat verilmişdi: 1. Şamaxı və Nizabadda işə başlayan zaman özünü İranda olan başqa ölkələrin tam hüquqlu konsulları kimi aparmalı və imperatorun hakimiyyəti və gücünə arxalanaraq rus təbəələrinin mənafeyini qorumalı; 2. Şamaxıda hansı Qərbi Avropa tacirlərinin ticarət etdiklərini, oraya nə kimi mallar gətirdiklərini və hansı yollarla gətirdiklərini öyrənməli; 3. Öz mallarını Türkiyə torpaqlarına aparıb satan tacirləri Rusiya bazarlarına cəlb etməli və bildirməli ki, Rusiyaya gedən yol qısa, rahat və ucuz başa gəlir, rus dövləti gömrük barəsində xeyli güzəştə gedəcəkdir; 4. Ölkədə işlədilən pullar, çəki və ölçü vahidləri haqqında məlumat toplayıb, ticarət kollegiyasına verməli; 5. İsfahandakı konsul S. Abramov ilə müntəzəm surətdə məktub vasitəsi ilə əlaqə saxlamalı; 6. Rus təbəələri ilə yerli tacirlər arasında baş verən mübahisələri ədalətlə həll etməli; 7. Konsul müavini mübahisəli mühüm bir məsələni həll etməzdən əvvəl rus tacirlərinin Şamaxıda və Nizabadda olan başçılarını toplamalı, sonra isə məsələni əksəriyyətin nəfinə həll etməlidir, mübahisə edənlər konsul müavini daxil olmaqla, müzakirədə iştirak etməlidirlər; 8. İsfahandakı konsul öldükdə onu Şamaxıda yaşayan müavini əvəz etməlidir; 9. Əgər Şamaxıdakı konsul müavini ölərsə, onu adlı-sanlı rus tacirlərindən iki nəfəri müvəqqəti əvəz edib, bu barədə ticarət kollegiyasına xəbər verməlidir; 10. Nizabada rus dövlətinin gəmiləri yanaşdıqda konsul müavini özünü Nizabada yetirməli və gəmilərin boşaldılması və ya yüklənməsinə şəxsən

---

[271] Письмо Шемахинскому хану от канцлера гр. Головкина о консуле Баскакове. Bax: V. Ulyanitski. Göstərilən əsəri, II hissə, əlavə 44; M. Çulkov. Göstərilən əsəri, səh. 105.
[272] M. Çulkov. Göstərilən əsəri, səh. 107; V. Ulyanitski. Göstərilən əsəri, II hissə, əlavə 45.
[273] M. Çulkov. Göstərilən əsəri, səh. 208.

nəzarət etməlidir. Əgər konsul özü gələ bilməzsə, bu iş üçün iki nəfər və ya daha çox etibarlı tacirlərdən göndərə bilər: 11. Gəmilərin yüklənməsi və ya boşaldılmasını asanlaşdırmaq məqsədi ilə Nizabadda çoxlu miqdarda yastı oturacaqlı qayıqlar saxlanılmalıdır və s.

L. Baskakova verilən təlimat 21 bəiddən ibarət idi. Lakin yerdə qalan bəndlərdə ümumi məsələlərdən bəhs edildiyi üçün onun üzərində dayanılmayacaqdır[274].

İstər S. Abramov və istərsə də A. Baskakova verilən təlimatların məzmunlarından belə bir qənaətə gəlmək olar ki, Rusiya konsul və konsul müavininin vasitəsi ilə özünun ticarət sahəsindəki Şərq siyasətini həyata keçirməyə can atırdı [275]. Konsulxana nümayəndələri Azərbaycan və İranın təsərrüfat xüsusiyyətini yaxından öyrənməli, Səfəvi dövlətinin xarici ölkələrlə İran körfəzi vasitəsi ilə və eləcə də Türkiyə ilə olan ticarət əlaqələrinin Xəzər dənizinə köçürülməsinə nail olmalı idilər.

Beləliklə, Rusiya Avropa ilə Şərq ölkələri arasında aparılan ticarətdə bir vasitəçi kimi çıxış etməyə çalışırdı. Bunun isə, göstərildiyi kimi, Rusiya üçün həm böyük təsərrüfat və həm də siyasi əhəmiyyəti vardı: bir tərəfdən Şərq ilə Qərb arasında aparılan ticarətin sayəsində Rusiyanın daxili bazarları zənginləşəcək, gömrükxananın gəliri artacaq, digər tərəfdən isə Qərbi Avropa və Şərq ölkələri tranzit ticarəti sayəsində Rusiyadan asılı vəziyyətdə qalacaqdılar. Məhz buna görə də I Pyotr nəyin bahasına olursa-olsun Xəzər dənizi vasitəsi ilə aparılan ticarəti ələ keçirmək və sahil boyu şəhərlərdə möhkəmlənmək siyasətini yürüdürdü. Lakin I Pyotr beynəlxalq vəziyyət ilə əlaqədar olaraq hələlik açıq siyasət yürüdə bilmirdi. Lakin bu ona heç də Xəzər dənizinin sahillərini öyrənməyə mane olmurdu. 1717-ci ildə I Pyotrun təklifinə görə donanma poruçiki fon Verden[276] və 1719-cu ildə isə leytenant F. Soymonov Xəzər dənizinin limanlarını, körfəzlərini, sahillərini və habelə Xəzərə axan çayların xüsusiyyətlərini öyrənmək məqsədi ilə ekspedisiyaya çıxdılar. İmperatorun əmrinə görə bu ekspedisiyaların yığdığı məlumatlara əsasən Xəzər dənizinin mükəmməl xəritəsi tərtib olunmalı idi. Nəhayət, 1721-ci ildə nəzərdə tutulan xəritə hazır oldu[277] F. Soymonov və fon Verdenə Xəzər sahillərini

[274] Инструкция данная из Государственной коммерц-коллегии определенному в Шемахию и в Низовую вице-консулу Алексею Баскакову. Bax: V. Ulyanitski. Göstərilən əsəri, II hissə, əlavə 45; M. Çulkov. Göstərilən əsəri, səh. 113-120.

[275] P. Butkov. Göstərilən əsəri, I cild, səh. 6.

[276] V. Komarov. Göstərilən əsəri, səh. 564.

[277] В. Могутов. Редкое и достопамятное известие, о выбывшей из России в Великую Татарию экспедиции под именем посольства. СПб, 1777, səh. 40; А. Соколов. Астрахань, о ее прошлом и настоящем, ЖМВД, т. XII, СПб, 1845, səh. 62: А. Штылко. Волжско-Каспийское судоходство в старину, СПб, 1896, səh. 35; P. Butkov. Göstərilən əsəri, 1 cild, səh. 6; A. P. Volınskinin verdiyi məlumata görə, I Pyotr Xəzər dənizinin xəritəsini çəkməyi hələ o, 1715-ci ildə İrana yola düşməzdən əvvəl bir neçə dənizçi zabitlərə tapşırmışdı. Bax: Оправдание о персидском деле. См.: Чтение в императорском обществе истории и древностей российских при Московском Университете, в

öyrənmək kimi əsas məsələdən başqa, ticarət məsələləri ilə də yaxından tanış olmaq tapşırılmışdı. Məhz buna görə də onlar, xüsusilə F. Soymonov Azərbaycana və İrana mal aparan tacirlərlə söhbət etmiş və onlardan müəyyən məlumat toplamışdı. Rus tacirlərinin əksəriyyəti İranda ticarət edən tacirlər üçün şirkət yaradılmasını təklif etmişdir. Onların fikrincə, əsas şirkət Həştərxanda yerləşməli, İsfahanda, Tiflisdə, Şamaxıda, Astrabadda və Rəştdə isə bu şirkətin filialları açılmalıdır. Rus tacirləri həmçinin təklif etmişlər ki, İrana əsas etibarilə buğda unu və mahud aparılmalı, oradan isə ipək, pambıq və düyü gətirilməlidir.

F. Soymonovun fikrincə, Xəzər dənizində mal daşınması üçün ən əlverişli nəqliyyat vasitəsi uzunluğu 60-70 fut olan qukar[278] və qaliot[279] tipli gəmilər olmalıdır. Nizabad limanı isə belə gəmilər üçün yararlı deyildir. Məhz buna görə də o, təklif etmişdir ki, Kür çayının ağzında yeni ticarət limanı salınsın və beləliklə, Kür çayı bütün Şirvanın və eləcə də Gürcüstanın ticarət arteriyasına çevrilsin. Kür çayı vasitəsi ilə Xəzər dənizinə axışıb gələn ticarət malları gəmilərlə Volqa çayı vasitəsi ilə Rusiyaya, oradan isə Qərbi Avropa bazarlarına çıxarılmalı idi. F. Soymonovun fikrincə, Ənzəli İranla ticarətdə ikinci dərəcəli liman olmalı idi[280]. I Pyotr eyni zamanda Astrabadı ələ keçirdikdən sonra Hindistan ilə də normal ticarət əlaqələri yaratmağı nəzərdə tutmuşdu[281]. Rus dövləti Kür çayının ağzında salınacaq limanı tədricən Rusiyanın bütün Şərq ölkələri ilə apardığı ticarətin düyüm nöqtəsinə çevirməyi qərara almışdı[282].

Rusiya hökuməti 1717-ci ildə İran ilə bağladığı ticarət müqaviləsinə böyük ümidlər bəsləyirdi. Lakin müqavilənin hər iki dövlət tərəfindən təsdiq olunmasına baxmayaraq, bu, Rusiyanın gözlədiyi nəticəni vermədi; əvvələn, müqavilədə I Pyotrun tələb etdiyi əsas məsələ, yəni Culfa ticarət şirkəti üzvlərinin İran və Azərbaycanda əldə etdikləri xam ipəyi ya Rusiyaya satmalı və ya xaricə yalnız Rusiyanın ərazisindən aparmaları haqqındakı tələb şah tərəfindən qəbul edilməmişdi. Şah bildirmişdi ki, tacirlər öz mallarını istədikləri yerə də aparmalıdırlar, bu onların şəxsi mənafeyindən asılıdır[283].

Culfalıların Aralıq dənizi tərəfə meyl göstərmələrinə səbəb onların Qərbi Avropa mallarını, xüsusilə mahudun bilavasitə avropalı tacirlərdən nisbətən ucuz qiymətə almalarından irəli gəlirdi. Həştərxanda isə onlar həmin malları rus tacirlərindən baha qiymətə almalı olurdular. Digər tərəfdən İran hökuməti rus

---

статье «Дело Салитеева, Архимандрита Казанского монастыря», кн. 3, М., 1868, səh. 111.

[278] Qukar (hollandca hoeker) iki dor ağacı, enli burnu və dal tərəfi dairəvi olan ticarət gəmisidir.

[279] Qaliot (italyanca galeotta) çox da böyük olmayan iki dor ağaclı və iti burunlu ticarət gəmisidir.

[280] Ф. Л. Соймонов. Описание Каспийского моря... яко часть истории государя императора Петра Великого, СПб, 1763, сəh. 333—337; A. Bakıxanov. Göstərilən əsəri, səh. 106.

[281] A. Bakıxanov. Göstərilən əsəri, səh. 106.

[282] N. Q. Kukanova. Göstərilən əsəri, səh. 247.

[283] V. Ulyanitski. Göstərilən əsəri, II hissə, əlavə 42.

gəmilərinə Nizabaddan başqa, digər bir limanda daldalanmağa icazə vermirdi. Bu isə ticarətin genişlənməsinə xeyli maneçilik törədirdi.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, 1717-ci il müqavilənaməsinin maddələrinin həyata keçirilməsinə şah özü razılıq versəydi də, Səfəvi dövlətində baş verən hərc-mərclik onsuz da buna mane olacaqdı. Beləliklə, Rusiya ilə İran arasında bağlanılmış ilk ticarət müqaviləsi yalnız kağız üzərində qaldı.

Qeyd edildiyi kimi, I Pyotr cənuba doğru yürüşə elə A. P. Volınski İsfahandan qayıtdıqdan sonra hazırlıq görməyə başlamışdı. Bununla əlaqədar olaraq o, A. P. Volınskini Həştərxan quberniyasının qubernatoru təyin etmişdi. P. Butkov I Pyotrun yürüşünün əsil mahiyyətinə varmadan yazır ki, A. P. Volınski «Rus sərhədlərinin əmin-amanlığı üçün»[284] tədbirlər görmüş və məhz bu məqsədlə də tezliklə yürüşə başlamağı təklif etmişdir.

Lakin qeyd etmək lazımdır ki, P. Butkovun müddəaları birtərəflidir. Çünki I Pyotru cənuba doğru yürüşə başlamağa sövq edən bir neçə başqa səbəb var idi.

I Pyotr əfqan qəbilələrinin İrana soxulmasını, Şamaxı şəhərində rus tacirlərinin mallarının qarət edilməsini, Səfəvi dövlətini bürümüş üsyanları yatırmağı bəhanə edərək yürüşə başladı. Türklər də bu zaman Zaqafqaziyanı ələ keçirməyə çalışırdılar[285]. Türklərin Zaqafqaziyanı tutmaları və Xəzər dənizinə gəmi salmaları Rusiyanın Şərq ticarətinə və cənub sərhədlərinin əmin-amanlığına ağır zərbə endirə bilərdi. Belə şəraitdə I Pyotrun yürüşə başlaması Rusiyanın mənafeyinə tamamilə uyğun gəlirdi[286]. Bu yürüşün Rusiya dövləti üçün böyük iqtisadi əhəmiyyəti var idi. I Pyotrun fikrincə, cənuba doğru yürüş etməklə o, Rusiyanın mövqeyinin Xəzər dənizinin qərb sahillərində möhkəmlənməsinə, Xəzər boyu əyalətlərdə yetişdirilən ipəyin hamısının Rusiyaya daşınmasına, həmçinin oradakı təbii sərvətləri ələ keçirməyə nail olacaqdı, çünki Rusiyada artmaqda olan sənayeni, xüsusilə toxuculuq sənayesini inkişaf etdirmək üçün ölkə daxilində kifayət qədər xammal yox idi. Xəzər boyu əyalətlər, xüsusilə Azərbaycan zəruri xammal ilə zəngin idi. Rusiyanın inkişaf etməkdə olan ipəkçilik və başqa sənayesinin Azərbaycan ipəyinə, faydalı xammalına böyük ehtiyacı var idi. Buna görə də I Pyotr ilk növbədə xammal ilə zəngin olan əyalətləri ələ keçirmək və həmin yerlərin sərvətinə sahib olmaq məqsədini güdürdü. I Pyotr eyni zamanda Xəzərin əsas limanlarını ələ keçirməklə dəniz ticarətində yeganə hakim olmağa can atırdı. Bu cəhətdən Fransanın Peterburqdakı səfiri de Kampredonun öz kralına yazdığı məktub çox maraqlıdır[287]. Pyotrun zənnincə, o, Xəzər dənizində aparılan bütün ticarəti ələ keçirəcək və bu ticarətdən külli miqdarda gəlir əldə edə biləcəkdir[288].

---

[284] P. Butkov. Göstərilən əsəri, I cild, səh. 6.
[285] Yenə orada.
[286] Ф. Ф. Веселаго. Очерки о русской морской истории, т. I, СПб, 1875, səh. 375.
[287] СИРИО, т. 49, СПб, cəh. 384
[288] С. Идаров. Значение Индии в политике России. «Руский вестник», кН. 6, 1884, səh. 487-553.

I Pyotr Xəzər boyu əyalətlərə sahib olduqdan sonra buranın sərvətindən həm ölkənin daxilində istifadə etməyi və həm də xarici bazara çıxarmağı nəzərdə tutmuşdu[289].

I Pyotrun Xəzər boyu əyalətlərin, xüsusilə Azərbaycanın xammal və təbii sərvətinə böyük maraq göstərməsini yürüş başa çatdırılandan sonra gördüyü tədbirlər bir daha sübut edir. Rus qoşunları Xəzər boyu əyalətləri tutduqdan sonra I Pyotr təbii sərvətlərdən ilk növbədə mis yataqlarının kəşf edilməsi göstərişini vermişdi[290]. Pyotrun bu barədəki fikrini bilən Qarabağ erməniləri ona Qarabağda gümüş, mis, qurğuşun və dəmir filizinin mövcud olması haqqında məlumat vermişdilər[291]. I Pyotr Xəzər dənizinin sahillərini zəbt edən rus qoşunlarının komandanı, briqada generalı Levaşova bildirmişdi ki, konsul S. Abramovun və İran səfiri İsmayıl bəyin verdiyi məlumata görə, bir çox şəhərlərin ətrafında, xüsusən Ərdəbildə külli miqdarda faydalı qazıntılar, o cümlədən qurğuşun yataqları vardır. Onu axtarmaq və istismar etmək lazımdır[292].

A. P. Volınskinin dəstələrinin üzvlərindən olan C. Belin verdiyi məlumata görə, Təbriz ətrafı mərmərə bənzər ağ daşlarla zəngin idi. Bu daşların tikinti üçün yararlı olub-olmamasını yoxlamaq üçün hələ 1720-ci ildə Həştərxan qubernatoruna təklif edilmişdi ki, Təbrizə adam göndərib, həmin daşların xüsusiyyətini öyrənsin[293], Rus qoşunları Xəzər sahillərini ələ keçirdikdən sonra Levaşov Peterburqa Təbriz daşı göndərmişdi. Bu daş adi mərmərdən heç də seçilmirdi[294].

Xəzər boyu əyalətlərin faydalı qazıntıları arasında ən mühüm yerlərdən birini neft tuturdu. II fəsildə neftdən bir qədər ətraflı məlumat verilmişdir. Lakin yeri gəlmişkən qeyd etmək lazımdır ki, rus qoşunları 1723-cü ildə Matyuşkinin başçılığı altında Bakını aldıqda Bakıdan 10-20 verstlik bir məsafədə 88 neft quyusu və 53 neft anbarına təsadüf etmişdilər[295]. Peterburqa qayıtmaq ərəfəsində olan Matyuşkin sentyabr ayında I Pyotrdan bir məktub almışdı. Həmin məktubda I Pyotr yazır: «Əmr et ki, Bakıdan ağ neft toplasınlar, onu ya göndər və ya özünlə gələndə gətir[296].

---

[289] Инструкция бригадиру Левашову об управлении новоприобротенных от Персии провинции по Каспийскомү морю, ПСЗРИ, т VII (1723-1727 гг), СПб, 1830, səh.114.

[290] V. Komarov. Göstərilən əsəri, səh. 606.

[291] A. Ezov. Göstorilən əsəri, səh. 379.

[292] Письма и указы государей: ...В. Левашову. Göstərilən əsəri, səh. 21; Инструкция бригадиру Левашову об управлении новоприобретенных от Персии провинции, по Каспийскому морю, ПСЗРИ, т. VII (1723-1727 гг ) СПб, 1830, səh.114.

[293] C. Bel. Göstərilən əsəri, səh. 71.

[294] V. Lıssov. Göstərilən əsəri, səh. 18.

[295] Yenə orada, səh. 22.

[296] Инструкция, когда даст бог Баку возьмем, что чинит. Bax: V. Komarov. Göstərilən əsəri, əlavə, səh. 604.

Matyuşkin yenidən Peterburqdan Xəzər boyu əyalətlərə qayıdarkən Pyotr ona ikinci dəfə tövsiyə etmişdir ki, «min pud və ya mümkün qədər ağ neft göndərsin»[297].

Neftin Rusiyaya göndərilməsini və I Pyotrun yenidən «nə qədər mümkünsə» neft istəməsi artıq o zaman Rusiyada Bakı neftinə ehtiyac hiss olunduğunu göstərir.

I Pyotrun dövründə Rusiyada inkişaf edən sənaye sahələrindən biri də kükürd istehsalı idi. Lakin bu sənaye üçün əsas xammal olan şora artmaqda olan tələbatı lazımınca ödəmirdi. Məhz buna görə də I Pyotr Levaşova verdiyi göstərişlərin birində əldə edilmiş Xəzər boyu əyalətlərində eyni zamanda şora yataqları üçün kəşfiyyat aparmağı tapşırmışdı[298].

I Pyotrun hakimiyyəti illərində Rusiyanın toxuculuq sənayesində ipəkçilik olduqca zəif inkişaf etmişdi. Kustar karxanalarda toxunulan ipək məmulatı heç də rus dvoryan və zadəganlarının ehtiyacını ödəmirdi[299]. Avropadan alınan ipək isə Rusiya üçün çox baha başa gəlirdi[300].

Ölkə daxilində ipəyə olan ehtiyacı ödəmək və bu sahədə Rusiyanın xarici ölkələrdən asılılığını ləğv etmək məqsədi ilə I Pyotr Rusiyada ipək manufaktur sənayesi yaratmaq təşəbbüsünü irəli sürmüşdü. Bu məqsədlə o, ilk növbədə Rusiyaya xaricdən toxunulmuş parçaların gətirilməsini qadağan etmiş, hətta Rusiyada ipəkçiliyin inkişaf etdirilməsi üçün geniş imkanlar yaradıb, bir sıra güzəştlərə də getmişdi[301]. Hətta belə məlumat vardır ki, I Pyotr Ukrayna, Həştərxan və digər cənub şəhərlərdə tut ağaclarının əkilməsi, baramaçılığın inkişaf etdirilməsi əmrini vermişdi. 1725-ci ildə Matyuşkin Peterburqa bildirir ki, Bakıdan tutulmuş «şübhəli» adamlardan Sadıq Şirbət və onun 30 nəfər «yoldaşı» mahir ipəkçidirlər. Əgər etiraz edilməzsə, onları ipəkçiliyi inkişaf etdirmək üçün Ukraynaya göndərmək olar[302]. Lakin Matyuşkinin təşəbbüsünün nə yerdə qaldığı barədə hələ heç bir məlumat əldə edilməmişdir.

I Pyotrun ipəkçiliyə verdiyi qiyməti bununla izah etmək olar ki, o, tut ağaclarını xarab edən və ya qıranlara ölüm cəzası verilməsini əmr etmişdi[303]. Dövlət tərəfindən ipəkçiliyin inkişafı üçün şərait yaradılmasına baxmayaraq, Rusiyanın sərt iqlimi buna mane oldu. Terek rayonlarında yetişdirilən ipək isə keyfiyyətcə Xəzər boyu əyalətlərindən gətirilən ipəkdən xeyli aşağı idi[304]. I Pyotrun tədbirləri və göstərişləri ipəkçiliyin Rusiya sənayesi və zadəganları üçün

[297] Yenə orada, səh. 606.
[298] PSZRİ, t. VII, səh. 114.
[299] П. Любомиров. Очерки по русской промышленности, М., 1947, səh. 110-111; P. Lıssov. Göstərilən əsəri, səh. 26.
[300] О позволении вывозе парчу из Европейских Государств, ПСЗРИ, т. V, səh. 694.
[301] Заботы Петра Великого о щелководстве, «Русский вестник», т. 100, 1872, səh. 472.
[302] АВПР, ф. Сношения России с Персией, siyahı 77/1, iş 5 (1725), vərəq 359.
[303] Заботы Петра Великого о шелководстве, səh. 472.
[304] И. Крылов. Цветущее состояние Всероссийского государства, СПб, 1876, səh. 32.

nə qədər əhəmiyyətli olduğunu sübut edən dəlillərdəndir. I Pyotrun Rusiyanın cənub rayonlarında baramaçılığı inkişaf etdirmək haqqında gördüyü tədbirlər boşa çıxdı. Əvvəllərdə olduğu kimi Rusiyanın ipəkçilik sənayesi bilavasitə xaricdən gətirilən xammaldan asılı vəziyyətdə qaldı. Məhz buna görə də təsadüfi deyildir ki, I Pyotr Xəzər boyu əyalətlərə yürüşə hazırlaşarkən, xüsusilə ipəkçilik rayonlarını ələ keçirməyi nəzərdə tutmuşdu.

Xəzər boyu əyalətlərdə ipək ən çox Şirvan və Gilanda hazırlanırdı. A. P. Volınski yazırdı ki, əhali Şirvanda daha çox ipəkçiliklə məşğul olur. Xüsusilə dəniz və çay kənarlarında elə kənd tapılmaz ki, orada ipəkçilik inkişaf etməmiş olsun[305]. I Pyotr Xəzər boyu əyalətləri ələ keçirdikdən sonra topladığı xam ipəyi Qərbi Avropa ölkələrinə, o cümlədən İngiltərəyə, Hollandiyaya, Fransaya, Polşaya və digər ölkələrə də ixrac etməyi nəzərdə tutmuşdu[306].

I Pyotrun dövründə Xəzər rayonları Rusiyanın tərkibinə daxil edildikdən sonra rus tacirləri Azərbaycanda öz ticarətlərini daha da fəallaşdırmışdılar.

Lakin 1724-cü il İstanbul müqaviləsinə görə Azərbaycanın zəngin ticarət mərkəzlərindən olan Şamaxı, Təbriz və başqa şəhərlərin türklərin əlinə keçməsi ilə əlaqədar olaraq rus tacirləri xarici ölkəyə, o cümlədən Azərbaycanın daxili şəhərlərinə mal aparmaqdan ehtiyat etdilər. Lakin arxiv sənədləri həmin dövrdə Təbrizdən və Şamaxıdan bir çox tacirlərin Həştərxana mal aparmaları haqqında məlumat verir[307].

I Pyotr Rusiyanın ələ keçirdiyi Xəzər boyu vilayətlərdə təsərrüfat həyatını və xüsusilə ticarəti bərpa etmək üçün bir çox tədbirlər həyata keçirmişdi. I Pyotrun 1723-cü ildə «Rusiya ilə ticarətin bərpa edilməsi və ermənilərə Rusiyaya köçməyə icazə verilməsi» [308] haqqındakı fərmanı belə tədbirlərdən biri idi. Həmin ilin sentyabr ayında Senat yeni bir qərar qəbul etdi. Bu qərara əsasən bütün Şərq ölkələri tacirlərinə əvvəllərdə olduğu kimi adi qaydada gömrük vermək şərti ilə Həştərxana mal gətirmək və aparmaq icazəsi verildi[309]. Xəzər boyu əyalətlərdəki rus qoşunlarının ordu briqadiri Levaşova Psterburqdan göndərilən əmrdə tapşırılmışdı ki, «Erməniləri Xəzər boyu əyalət və şəhərlərə, xüsusilə Bakıya, Dərbəndə, Gilana və Mazandarana köçürtsün və onlarla elə rəftar etsin ki, onlardan şikayət eşidilməsin»[310]. I Pyotr eyni zamanda İranda yaşayan erməniləri də Xəzər ticarətinə cəlb etmək üçün onlara müraciət etmişdi. Xəzər boyu əyalətlərlə daha sıx ticarət aparmaq məqsədi ilə I Pyotrun həyata keçirdiyi tədbirlərdən biri də aksioner

[305] F. Soymonov. Göstərilən əsəri, səh. 37-38.
[306] N. Kukanov. Göstərilən əsəri, səh. 251.
[307] АВПР, ф. Сношения России с Персией, siyahı 77/1, iş 4 (1726), vərəq 93.
[308] Собрание актов, относящихся к образованию истории армянского народа, I hissə, M., 1883, səh. 43.
[309] PSZRİ, t. VII, səh. 115.
[310] Письма и указы государей... В. Я. Левашову, М., 1808, səh. 272; АВПР, ф. Сношения России с Арменией, fond 100, siyahı 160/4, iş 8 (1724 г.) vərəq 1, АВПР, Ф. Сношения России с Персией, siyahı 71/1, iş 5, vərəq 1.

şirkətinin təşkili idi. I Pyotrun vaxtında hər birinin qiyməti 150 manat olan 4 min aksiya buraxılmışdı. Həştərxan tacirləri bu şirkətə 50 min manat pul qoymuşdular[311]. Həmin şirkətin fəaliyyəti haqqında hələlik heç bir məlumat əldə edilməmişdir. Lakin 1723-cü ildə Həştərxana gətirilən malların miqdarından müəyyən etmək olar ki, aksioner şirkətinin fəaliyyəti ilk vaxtlarda səmərəli olmuşdur. 1723-cü ilin baharında Bakı, Dərbənd və Ənzəli şəhərlərindən 140 tay və iki bağlama xam ipək, 55 tay və 64 bağlama işlənmiş ipək, 131 tay və 192 bağlama parça gətirilmişdir[312].

Xəzər ticarətinin sonrakı illərə aid vəziyyəti haqqında hələ lazımi material əldə edilməmişdir. Lakin tarix elmləri namizədi Y. S. Zevakinin sırf arxiv sənədləri əsasında yazdığı «Xəzər boyu əyalətləri XVIII əsrdə rus işğalı dövründə» adlı məqaləsində tərtib etdiyi cədvəllər əsasında elə qənaətə gəlmək olar ki, Xəzər boyu əyalətlərdən (Rusiyaya birləşdirildikdən sonra) alınan gəlir tədricən çoxalmışdır[313]. Doğrudur, Y. S. Zevakinin tərtib etdiyi cədvəl bir o qədər dəqiq deyildir. Məsələn, onun yazdığına görə 1723-cü il avqustun 10-dan 1725-ci il yanvar ayının 12-nə qədər keçən vaxt ərzində Bakıda neft və neft məmulatı satılışından 25.449 manat 25 1/2 qəpik gəlir, tacirlərdən isə 1.797 manat 171 3/4 qəpik dükan pulu və gömrük alınmışdır. Lakin əldə edilən arxiv sənədində isə 1723-cü il avqustun 11-dən 1725-ci il avqustun 1-nə Bakıda neft satışından 36 çervon, 16.638 manat 95 1/4 qəpik gömrük alınmışdır[314]. Həmin vaxt ərzində Bakıdan toplanılan ümumi ticarət gömrüyü isə 49 çervon 24.058 manat 43 1/2 qəpiyə[315] bərabər olmuşdur. Göründüyü kimi, Bakıda Y. S. Zevakinin göstərdiyindən daha artıq gəlir toplanılmışdır. Sonrakı illər haqqında başqa dəqiq material olmadığı üçün aşağıda Y. S. Zevakinin tərtib etdiyi cədvəl verilir (1-ci cədvəl).

**1-ci cədvəl**

| № | İllər | Satılan ağ, qara neft və neft məmulatından alınan gəlir | Tacirlərdən alınan dükan pulu və gömrük |
|---|---|---|---|
| 1 | 10. VIII. 1723-cü ildən 12. I. 1725-ci ilə qədər | 25 449 man. 25 1/2 qəp. | 1797 man. 17 3/4 qəp. |
| 2 | 12. I. 1725-ci ildən 1. II. 1726-cı ilə qədər | 3 228 man. 81 qəp. | 1087 man 87 1/4qəp. |
| 3 | 1. II.1276-cı ildən 1.I.1727-ci ilə qədər | 11 793 man. 29 ¾ qəp. | 1811 man. 50 3/4 qəp. |

[311] М. Мельгунов. Поход Петра Великого в Персию, «Русский вестник», т. 110, 1874.
[312] ЦГАДА, кабинет Петра I, отд. II, кн. 94, vərəq 308.
[313] Е. С. Зевакин. Прикаспийские провинции в зпоху русской оккупации XVIII века, Изв. Об-ва абследования и изучения Азсрбайджана, № 5, Bakı, 1927, səh. 132.
[314] АВПР, ф. Сношения России с Персией, siyahı 77/1, iş 1 (1726 г.), vərəq 23.
[315] Yenə orada.

| | | | |
|---|---|---|---|
| 4 | 1727 | 15 983 man. 84 3/4 qəp. | 2 085 man. 50 1/2 qəp. |
| 5 | 1728 | 15 597 man. 49 qəp. | 1 905 man. 30 qəp. |
| 6 | 1729 | 10 922 man. 85 1/4 qəp. | 1542 man. 84 qəp. |
| 7 | 1730 | 15 981 man. 20 3/4 qəp. | 2022 man. 48 1/4 qəp. |

Cədvəldən göründüyü kimi, 1723-1725-ci illərdə sonrakı illərə nisbətən Bakıda daha artıq neft və neft məmulatı satılmışdır.

Bu, bir daha onu göstərir ki, I Pyotrdan[316] sonrakı dövrlərdə rus höküməti Xəzər ticarətinə lazımi əhəmiyyət verməmişdir. Maraqlı burasıdır ki, çar hökuməti, hətta bu ticarəti tamamilə qadağan etmək fikrinə də düşmüşdü. Bunu aşağıdakı dəlildən də görmək mümkündür. Həştərxan quberniyasının qubernator müavini İ. İ. Zaxarov 1730-cu ildə Dövlət Xarici İşlər Kollegiyasının adından Rusiyanın işğal etdiyi Xəzər boyu əyalətlərə və həmçinin Buxara və Xivə şəhərlərinə karvan və dəniz yolu vasitəsi ilə rus və xarici ölkə tacirlərinin mal aparmalarını qadağan edən əmr vermişdi[317].

Halbuki Azərbaycan Moskva manufakturasının böyük bir hissəsini xam ipəklə təmin edirdi. Məhz buna görədir ki, bir ildən sonra rus dövləti Xəzər boyu əyalətlərlə keçmişdə aparılan ticarəti bərpa etmək haqqında qərar çıxarmağa məcbur oldu[318]. Tezliklə Xəzər boyunca zəbt olunmuş «İran torpaqlarına» və əyalətlərinə karvan və dəniz yolu ilə mal aparıb ticarət etmək istəyən rus və digər ölkələrin tacirlərinə Həştərxan quberniyası dəftərxanasından pasport[319] verilməsi haqqında xüsusi qərar qəbul edildi.

Həmin il hərbi kollegiya «iranlılardan alınmış qalaları təmir etmək» haqqında xüsusi qərar qəbul etdi. Lakin, görünür, bu təmir işləri çox da böyük deyilmiş. Çünki qərara əsasən təmir işlərinə yalnız 3000 manat sərf etmək nəzərdə tutulmuşdu[320].

Dəniz yolu karvan yollarına nisbətən təhlükəsiz olduğu və ucuz başa gəldiyi üçün Rusiya dövləti hələ Xəzər boyu əyalətləri ələ keçirməzdən əvvəl bir sıra ticarət gəmiləri tikdirmişdi. XVIII əsrin 20-ci illərində Xəzər dənizində üzən böyük gəmilərin, demək olar ki, hamısı rus dövlətinə mənsub idi. Lakin bu heç də o demək deyildir ki, bu ticarətdə yalnız Rusiya dövlətinin təbəələri iştirak edirdilər. Dövrün rəsmi sənədlərindən məlum olur ki, azərbaycanlı tacirlərin şəxsi gəmiləri olmadığı halda, onlar Rusiya ilə ticarətdə heç də başqa xalqların

[316] I Pyotr 1725-ci ilin yanvar ayında ölmüşdür.
[317] QAAO, fond 389, siyahı 1, iş 261 (1731), vərəq 167.
[318] QAAO, fond 389, siyahı 1, iş 261 (1731), vərəq 167.
[319] Burada «pasport» xarici ölkəyə getmək üçün verilən vəsiqə mənasındadır.
[320] QAAO, fond 394, siyahı1, iş 185 (1731), vərəq 1.

nümayəndələrindən geridə qalmırdılar. Onlar rus gəmi sahiblərinə yol xərci vermək şərti ilə öz mallarını Xəzərin istədikləri limanına apara bilirdilər. Şübhəsiz, azərbaycanlılar ən çox Həştərxan və qismən də Ənzəli limanına mal çıxarırdılar. Arxiv sənədləri əsasında belə qənaətə gəlmək olar ki, bəzi hallarda Rusiyaya mal gətirən azərbaycanlı tacirlər orada uzun müddət qalmalı olurdular. Belə hallarda onlar özləri ilə birlikdə ailələrini, hətta kiçik yaşlı uşaqlarını da aparırdılar. Həştərxan Dövlət Vilayət arxivindən əldə edilən maraqlı bir sənəd bunu bir daha təsdiq edir. Bu sənəd «Həştərxan quberniyası dəftərxanasından şimalı rus şəhərlərində ticarət etmək üçün pasport verilmiş Bakı və Salyan tacirlərinin siyahısı»[321] adlanır. Həmin siyahıda Bakı və Salyandan öz arvad-uşaqları ilə birlikdə Həştərxana gəlmiş və buradan da şimal şəhərlərinə mal aparmaq istəyən 60 nəfərdən artıq azərbaycanlı tacirin adı vardır. Hərçənd sənəddə həmin tacirlərin Həştərxana nə qədər və necə mal gətirdikləri göstərilmir, lakin belə bir qənaətə gəlmək olar ki, öz ailəsi ilə uzaq yerə səfərə çıxan tacir heç də xırda alverçi deyildir. Digər tərəfdən bu sənəd göstərir ki, azərbaycanlılar da rus, hind və ya erməni tacirləri ilə yanaşı, Xəzər ticarətində yaxından iştirak edirdilər. Ümumiyyətlə, qeyd etmək lazımdır ki, rus işğalı dövründə Xəzər ticarətində Zaqafqaziya, İran və hind tacirləri əvvəllərə nisbətən daha çox fəallıq göstərirdilər[322].

Zaqafqaziya və xüsusilə Azərbaycandan Rusiyaya müxtəlif ticarət malları aparılırdı. Əlbəttə, yuxarıda dəfələrlə qeyd edildiyi kimi, ticarət malları arasında əsas yeri ipək təşkil edirdi. Azərbaycandan ipək müxtəlif şəkillərdə, o cümlədən xam ipək, sap, qurudulmuş, rənglənmiş, bişirilmiş hallarda, həmçinin toxunulmuş ipək və yaxud yarıipək parçalar — məxmər, zərbafta, qənavat, mov, qaytan, qurşaq, atlas və s. şəkildə ixrac edilirdi. Moskva bazarlarında Həştərxandan gətirilmiş mallara, «yaşıl Şamaxı movlarına» və yaxud «müxtəlif boyalarla rənglənmiş Şamaxı ipəyinə» tez-tez təsadüf etmək olardı[323].

Ümumiyyətlə, Xəzər vasitəsi ilə Həştərxana gətirilən ipək üç növdə olur və adətən istehsal edildiyi yerlərin adı ilə «Gilan ipəyi», «Şamaxı ipəyi» və «Gəncə ipəyi» adlandırılırdı[324]. İpək və ipək məmulatından sonra ixrac edilən mallar arasında pambıq və pambıq parçalar ikinci yeri tuturdu. İxrac edilən kənd təsərrüfatı məhsulları arasında yun məmulatı da müəyyən əhəmiyyət kəsb edirdi.

---

[321] Список бакинских к сальянских купцов, которым выдан паспорт в Астраханской губернской канцелярий для торговли в верховые Российские города в 1729 г., ГААО, fond 394, siyahı 1, iş 163, vərəq 2-3.
[322] QAAO, fond 391, siyahı 1, (1733), iş 283, vərəq 1.
[323] Е. Н. Кушева. Торговля Москвы в 30-40-х годах XVIII в., «Исторические записки», № 23, 1947, səh. 68.
[324] А. Юхт. Восточная торговля России в 30-х годах XVIII в., и роль в ней армянских купцов, «Изв. АН Арм. ССР», № 8, 1956, səh. 48.

Azərbaycandan Rusiyaya qoyun, keçi, dəvə yunu və bu yunlardan hazırlanmış baş örpəkləri, yun corablar və s. ixrac edilirdi[325].

Azərbaycandan eyni zamanda xaricə ağ neft, müxtəlif ölçülü ipək və yun xalçalar, mis, sənətkarlar tərəfindən hazırlanmış müxtəlif əşyalar, gön və dəri, düyü, şərab, quru meyvə, ədviyyat və s. aparılırdı.

Azərbaycan vasitəsi ilə Rusiyaya həmçinin İran və hind malları da gətirilirdi.

1732-ci ildə Rusiya ilə İran arasında bağlanılan Rəşt müqaviləsinə əsasən Xəzər boyu əyalətlər Kür çayına qədər İrana qaytarıldıqdan sonra Azərbaycanın, xüsusilə Bakı şəhərinin Rusiya dövləti üçün ticarət əhəmiyyəti daha da çoxaldı. Hər iki dövlət Rəşt müqaviləsində ticarət məsələlərinə böyük yer vermişdi. Müqavilənin üçüncü bəndində deyilir ki, İranın hər bir vilayət və əyalətlərinə gələn və bu yerlərdən keçib Hindistana mal aparıb və oradan mal gətirən rus dövlətinin təbəələrindən heç bir gömrük alınmayacaq və rus tacirlərinə bu yerlərdə sərbəst ticarət etmək üçün hər cür şərait yaradılacaqdır. Müqavilənin dördüncü bəndində isə Rusiya İran dövləti tacirlərinin Rusiyada normal ticarət etmələri üçün şərait yaradacağına söz vermişdi[326].

Həştərxan Dövlət Vilayət arxivində həmin illərə aid Azərbaycan tacirlərinin və həmçinin Azərbaycan vasitəsi ilə xarici ölkə tacirlərinin apardıqları ticarət haqqında bir sıra maraqlı sənədlər vardır.

Lakin bu sənədlər həmin dövrdə aparılan ticarətin hamısını əhatə etmir. Ən dolğun sənədlər 1735-ci ilin noyabr ayına aiddir.

1735-ci il noyabr ayında Bakı vasitəsi ilə Azərbaycanın müxtəlif şəhərlərindən, İran və Hindistandan Həştərxana azərbaycanlı, hind və rus tacirləri aşağıdakı malları gətirmişdilər (2, 3, 4, 5, 6-cı cədvəllər).

---

[325] П. Любомиров. Проект таможенного тарифа для Астрахани 1757 года (этюд из истории восточной торговли), журн. «Наш край», Астрахань, № 2, 1927, səh. 66.

[326] Т. Юзефович. Договоры России с Востоком, СПб, 1869.

**2-ci cədvəl**

<table>
<tr><th>Tacir</th><th>Tacirin adı</th><th>Malın miqdarı</th><th>Malın adı</th><th>Malın qiyməti</th><th>Alınan gömrük</th></tr>
<tr><td></td><td></td><td>6 ədəd</td><td>Miyana kəşan qurşağı</td><td>12 man</td><td rowspan="7">Hər bir manatdan 5 qəp. Hesabı ilə 17 man. 56 qəp</td></tr>
<tr><td></td><td></td><td>20 ədəd</td><td>Cənamaz</td><td>26 man</td></tr>
<tr><td></td><td></td><td>30 ədəd</td><td>Darayi</td><td>26 man.</td></tr>
<tr><td>3 noyabr 1735-ci il</td><td>Mixaylov</td><td>21 ədəd</td><td>Birrəngli naxışlı kətan</td><td>18 man. 90 qəp.</td></tr>
<tr><td></td><td></td><td>31 ədəd</td><td>Yarıipək parça</td><td>34 man. 10 qəp</td></tr>
<tr><td></td><td></td><td>6 ədəd</td><td>Köynəkli parça</td><td>4 man. 80 qəp</td></tr>
<tr><td></td><td></td><td>171 ansır**</td><td>Müxtəlif rəngli ipək</td><td>229 man. 50 qəp.</td></tr>
</table>

**Ansır ölçü vahididir (1 funt və yaxud 1 1/3 funta bərabərdir).

Misal gətirilmiş cədvəllər, qeyd edildiyi kimi, yalnız 1735-ci ilin noyabr ayına aiddir. Göründüyü kimi, bir ayın ərzində Bakıdan Həştərxana o dövrün pulu ilə 5.330 manatlıq mal gətirilmişdir. Sonrakı illərə aid Azərbaycan şəhərlərindən Həştərxana gətirilən malların adı və miqdarı haqqında material olmasa da, həmin illərdə Xəzər boyu vilayətlərindən dəniz vasitəsi ilə Həştərxana gətirilən malların qiyməti haqqında mötəbər məlumat vardır. 1737-1744-cü illər arasında İran və Azərbaycandan Həştərxana və Həştərxandan da əks istiqamətə aşağıdakı məbləğdə mal aparılmışdır[327]. (Bax: 7-ci cədvəl).

[327] Ведомость об отпускных из России в Персию и о провозимых в Персию товаров; 1 марта 1746 году из кабинета при именном ее императорского Величества Высокодержавного рукою подписанном указе в Москве получено. Письма и указы государей..., səh. 91

**3-cü cədvəl***

| Tarix | Tacirin adı | Malın miqdarı | Malın adı | Malın qiyməti | Alınan gömrük |
|---|---|---|---|---|---|
| 3 noyabr 1735-ci il | Rmjes Jeluyev | 4 tay | tumac | 150 man | Hər manatdan 5 qəpik hesabı ilə 73 man. 60 qəp. |
| | | 4 ədəd | Köhnə xalça | 8 man | |
| | | 47 tay | Qırmızı tumac | 170 man. 50 qəp. | |
| | | 140 funt | Müxtəlif rəngli dəri | 189 man. | |
| | | 13 ədəd | Şəffaf duvaq | 15 man. 60 qəp. | |
| | | 3 kosyak*** | Nadir şəffaf ipək parça | 12 man. | |
| | | 13 funt | Yaşıl və açıq çəhrayı rəngli ipək | 55 man. | |
| | | 12 ədəd | İpək və yarıipək parça | 22 man. 80 qəp. | |
| | | 8 ədəd | Kiçik Təbriz yeratı**** | 4 man. | |
| | | 83 kosyak | Alabəzək Təbriz parçası (ipək) | 166 man. | |
| | | 1 ədəd | kasa | 3 man. | |
| | | 340 parça | Bez (xüsusilə Mazanadaran və Nişapur bezi) | 95 man. 35 qəp. | |
| | | 1 (orta) ədəd | ipək parça | 4 man. 50 qəp. | |
| | | 1 (kiçik) ədəd | ipək parça | 20 man. 50 qəp. | |
| | | 20 funt | Rənglənmiş ipək | 27 man. | |
| | | 8 kosyak | qanovuz | 89 man. | |
| | | 54 kosyak | - | 215 man. | |
| | | 4 ədəd | Yarıipək Gilan parçası | 9 man. | |
| | | 16 ədəd | Zərbafta | 180 man. | |

* QAAO. fond 394, siyahı 1. iş 539, vərəq 78.
** Çox güman ki, bu ad dəftərxana işçiləri tərəfindən təhrif olunmuşdur.
***Parça (uzunluğu 24 metr).

**** “Yerat” sözü hələ müəyyən edilməmişdir.

1735-ci ilin noyabr ayında Bakıdan Həştərxana gətirilən malların miqdar və qiymətini nəzərə alaraq ehtimal etmək olar ki, 1737-1744-cü illər arasında dənizlə Həştərxana gətirilən malların böyük bir hissəsi Azərbaycan şəhərlərindən ixrac edilmişdir.

Həştərxana gətirilən malların bir hissəsi Həştərxanın özündə satılır, mübadilə olunur, digər hissəsi isə Moskva, Peterburq və Arxangelsk vasitəsi ilə Hollandiyaya, İngiltərəyə və b. Qərbi Avropa ölkələrinə aparılırdı. Cədvəllərdən göründüyü kimi, Rusiyaya gətirilən malların əksəriyyəti tərkib etibarı ilə rəngarəng olmaqla bərabər, coğrafi adlarla da müşayiət olunurdu.

**4-cü cədvəl***

| Tarix | Tacirin adı | Malın miqdarı | Malın adı | Malın dəyəri | Alınan gömrük |
|---|---|---|---|---|---|
| 21 noyabr 1735-ci il | Şamaxı taciri Qurban İmanov | 34 kosyak | İpək parça zolaqlı | 64 man. 60 qəp. | Hər manatdan 5 qəp. hesabı ilə 29 man. 74 qəp. |
| | | 5 parça | Təbriz ipəyi | 11 man. | |
| | | 4 parça | Bakı bezi | 2 man. 40 qəp. | |
| | | 4 kosyak | Alabəzək ipək parça | 7 man. 60 qəp. | |
| | | 375 funt | Rənglənmiş ipək | 506 man. | |
| | | | | | |
| 22 noyabr 1735-ci il | Yakovlev | 52 parça | Alabəzək Təbriz ipəyi | 88 man. 40 qəp. | 10 man. 4 qəp. |
| | | 79 ədəd | Şamaxı ipəyi | 102 man. 70 qəp. | |
| | | 7 parça | Kətan basma çiti | 6 man. 30 qəp. | |
| | | 2 ədəd | Bafta | 3 man. 40 qəp. | |

* QAAO, fond 394, siyahı 1, iş 539, vərəq 28, 65.

Hind və ya rus tacirlərinin gətirdikləri mallar arasında çoxlu miqdarda «Təbriz ipəyi»nin, «Şamaxı movu»nun və s. olması, başqa sözlə desək, Xəzər vasitəsi ilə Rusiyaya müxtəlif ölkələrdən axışıb gələn tacirlərin malları arasında çoxlu Azərbaycan mallarının olması Azərbaycanın beynəlxalq ticarətdə mühüm rol oynamasını göstərirdi. Cədvəldəki malların siyahısından göründüyü kimi, Rusiyaya gətirilən malların əksəriyyətini xam ipək, yarıipək parça və ipək məmulatı, həmçinin pambıq, pambıq parça, dəri, mis və s. təşkil edirdi. Məlumdur

ki, Azərbaycandan ixrac edilən hazır parçalar arasında əsas yeri ipək və qismən də pambıqdan toxunulmuş müxtəlif parçalar, o cümlədən qənovuz, darai, mov, kisəyi, düvaq, zərbafta, qurşaq, bez, basma çit, burmet, toxunma haşiyə və s. parçalar tuturdu. Bütün bu parçalar İranın bir sıra şəhərləri ilə yanaşı, Azərbaycanın Şamaxı, Bakı, Gəncə, Ərdəbil, Təbriz kimi ticarət və sənətkarlıq mərkəzlərində istehsal edilirdi[328].

**5-ci cədvəl***

| Tarix | Tacirin adı | Malın miqdarı | Malın adı | Malın dəyəri | Alınan gömrük |
|---|---|---|---|---|---|
| 23 noyabr 1735-ci il | Hindli Larmidas Dalayev | 6 pud 15 Funt 7 pud | Mis, pambıq | 35 man, 50qəp. 17 man | 2 man. 62 qəp. |
| 25 noyabr 1735-ci il | Hindli Devizas Tolsaram | 14 ədəd | Xalça | 606 man. 25 qəp. | 30 man. 31 qəp. |
| | | 2 ədəd | Kisəyi | | |
| | | 5 ədəd | Palaz | | |
| | | 2 parça | Basma çit | | |
| | | 242 ədəd | Mazandaran bezi | | |
| | | 48 parça | Şamaxı movu | | |
| | | 20 ədəd | Örtük | | |
| | | 29 ədəd | İpək parça | | |
| | | 7 ədəd | Şamaxı qurşağı | | |
| | | 30 parça | Köynəklik ipək | | |
| | | 14 kosyak | Ensiz alabəzək ipək | | |
| | | 3 ədəd | Enli zərbafta | | |
| | | 58 parça | Basma kətan çiti | | |
| | | 8 ədəd | Köynəklik növ | | |
| | | 37 parça (enli və ensiz) | Bakı bezi | | |
| | | 250 ədəd | Nişapur bezi | | |
| | | 1 (kiçik) kosyak | Alabəzək ipək parça | | |
| | | 200 parça | Pambıq örtük | | |
| | | 18 ədəd | Hamar bez | | |
| | | 5 kosyak | Toxuma haşiyə | | |

[328] A. Yuxt «Восточная торговля...» məqaləsində əsassız olaraq Təbriz və Ərdəbil şəhərlərini İran şəhərləri kimi vermişdir. Bax: həmin məqalə, səh. 49.

| | | | | | |
|---|---|---|---|---|---|
| | | 8 ədəd | Gümüşü sapla toxunulmuş örtük | | |

* QAAO, fond 394. siyahı 1. iş 539, vərəq 38, 39, 89, 91,

Qeyd edildiyi kimi, Azərbaycan və İrandan ixrac edilən xammalların təkcə rus ticarəti üçün deyil, həmçinin rus sənayesi üçün də böyük əhəmiyyəti var idi. Buna görə də Həştərxandan Moskvaya gətirilən ipəyin əksəriyyətini birinci növbədə ipək istehsalı müəssisələrinin sahibləri alırdılar [329]. Moskva ipək müəssisələri ipəyə o qədər maraq göstərirdilər ki, bəzən gətirilən ipəklə kifayətlənməyib, xam ipək almaq üçün öz agentlərini Xəzər boyu vilayətlərə göndərməli olurdular[330].

**6-cı cədvəl***

| Tarix | Tacirin adı | Malın miqdarı | Malın adı | Malın dəyəri | Alınan gömrük |
|---|---|---|---|---|---|
| 25 noyabr 1735-ci il | Hindli Tolarame Hebaquyev | 306 kosyak | Alabəzək Təbriz ipəyi | 1301 man. 85 man. | 65 man. 9 qəp. |
| | | 113 ədəd | Təbriz duvaqı | | |
| | | 68 parça | Təbriz ipəyi | | |
| | | 3 kosyak | Zərbasma | | |
| | | 6 kosyak | Kətan basma çiti | | |
| | | 1 parça | Bez | | |
| | | 1 ədəd | İpək parça | | |
| | | 3 ədəd | Xalça | | |
| | | 15 parça | Bakı bezi | | |
| | | 10 parça | Hamar bez | | |
| | | 50 kosyak | Yarıipək alabəzək parça | | |
| | | 96 ədəd | Enli duvaq | | |
| | | 30 kosyak | Alabəzək ipək parça | | |
| | | 25 ədəd | Ensiz kətan | | |
| | | 2 pud 2 funt | Mis | | |
| | | 58 parça | Mazandaran bezi | | |
| 25 | | 2 ədəd | Bakı bezi | | |
| | | 8 parça | Təbriz basma çiti | | |
| | | 160 ədəd | Təbriz duvaqı | | |
| | | 108 kosyak | Alabəzək Təbriz ipəyi | | |

[329] Y. N. Kuşyeva. Göstərilən əsəri, səh. 69.
[330] А. Семенов. Изучение исторических сведений о Российских внешней торговле и промышленности, Г. I, СПб, 1859, səh. 226.

| | | | | | |
|---|---|---|---|---|---|
| noyabr 1735-ci il | Jequ Sitalov | 329 parça | Təbriz ipəyi | 842 man. 20 qəp. | 42 man. 11 qəp. |
| | | 3 kosyak | Ensiz alabəzək Təbriz ipəyi | | |
| | | 1 ədəd | Pərdə (örtük) | | |
| | | 1 ədəd | Burmet | | |
| | | 20 ədəd | Pambıq örtük | | |

* QAAO, fond 394, siyahı 1. iş 539. vərəq 87, 88, 91, 92.

Sovet tarixçisi J. H. Kuşyeva bir çox zəngin arxiv sənədlərinə əsaslanaraq yazır ki, XVIII əsrin 40-cı illərində «Şamaxı və İrandan gətirilən ipək Moskva fabriklərinin tələbini tamamilə ödəyirdi»[331]

XVIII əsrin ortalarında Qərbi Avropa ölkələri vasitəsi ilə gətirilən xam ipəyin Rusiyada iki dəfə baha satılmasını nəzərə alaraq, o zaman Azərbaycan və İrandan gətirilən ipəyin Moskva ipək müəssisələri sahibləri üçüp nə qədər böyük əhəmiyyət kəsb etdiyini daha aydın təsəvvür etmək olar.

**7-ci cədvəl**

| **İllər** | **İdxal** | | **İxrac** | | **Cəmi** | |
|---|---|---|---|---|---|---|
| | **manat** | **qəpik** | **manat** | **qəpik** | **manat** | **qəpik** |
| 1737 | 176.017 | 51 | 164.944 | 54 | 340.962 | 05 |
| 1738 | 97.489 | 38 1/2 | 347.408 | 39 | 445.597 | 77 1/2 |
| 1739 | 274.086 | 46 | 293.907 | 20 | 567. 993 | 666 |
| 1740 | 275.173 | 68 | 309.480 | 25 | 584.653 | 93 |
| 1741 | 244.684 | 10 1/8 | 424.283 | 16 | 668. 967 | 26 1/2 |
| 1742 | 101.817 | 78 1/2 | 521.322 | 25 | 623.140 | 3 1/4 |
| 1743 | 551.913 | 89 1/2 | 674.153 | 2 | 1 226.066 | 91 1/2 |
| 1744 | 708.736 | 53 2/4 | 861.665 | 7 | 157.098 | 60 2/4 |
| **Cəmi** | 2.429.913 | 35 1/8 | 3.598.163 | 88 | 6.028.077 | 93 1/8 |

Bəzi müəlliflərin verdikləri məlumata görə həmin dövrdə Xəzər dənizi vasitəsi ilə Rusiyaya 3.000 puddan artıq xam ipək gətirilirdi[332]. Çox güman ki, bu ipəyin əksəriyyətini Şamaxı, Gəncə və Gilan ipəyi təşkil edirmiş. Çünki həmin dövrdə Həştərxana Orta Asiyadan çox cüzi miqdarda xam ipək ixrac edilirdi[333].

Azərbaycandan ixrac edilən xammallar arasında mis və xüsusilə gönə Rusiyada böyük tələbat var idi. Cədvəllərdən göründüyü kimi, təkcə 1735-ci ildə

[331] Y. N. Kuşyeva. Göstərilən əsəri, səh. 69.

[332] П. Любомиров. Шелкоткацкая промышленность в России всередине XVIII в., «Ученые записки Саратовского Гос. Университета», т. XV, 1927, səh. 136—137.

[333] Н. Озерецковский. Описание Коли и Астрахани, СПб, 1804, səh. 129; Yenə orada; Нечто об Астрахани (из старинных записок), журнал департамента народного просвещения, № IV, 1823, səh. 337; П. Любомиров. Ткацкая промышленность в Астрахани в XVIII в. н первой половине XIX в., Астрахань, 1926, səh. 7.

Azərbaycandan Həştərxana bir neçə pud mis ixrac edilmişdi. Bu təsadüfi bir hal deyildir. 1732-ci ilə aid olan arxiv sənədində həmin ildə Moskva taciri Yakov Vasilyevin dəniz vasitəsi ilə Həştərxana, hətta 40 pud mis gətirməsi haqqında məlumat vardır[334]. XVIII əsrin birinci yarısında Azərbaycandan bir neçə pud misin ixrac edilməsi haqqında məlumat təzə və çox maraqlı faktdır. Çünki Rusiyanın Şərq ölkələri ilə apardığı ticarətin tədqiqatına bir neçə elmi məqalələr həsr edən prof. P. Lyubomirov yazır ki, Şərq ölkələrindən Rusiyaya mis yalnız hazır məmulat şəklində ixrac edilirdi[335]. Lakin yuxarıdakı faktlar prof. Lyubomirovun müddəasını rədd edir. Məlumdur ki, Azərbaycanda mis əsasən Gədəbəydə istehsal edilirdi. Deməli, buradan belə bir qənaətə gəlmək olar ki, Gədəbəy misi yerli sənətkarların tələbini ödəməklə bərabər, həmçinin bəzi hallarda ixrac da edilirmiş.

XVIII əsrin birinci yarısında cənub-şərq ölkələrindən gətirilib, Moskva bazarında satılan dəriyə olan tələbat haqqında bəhs edərkən sovet tarixçisi Y. H. Kuşyeva yazır ki, Moskvada gətirilmə qoyun dərisi ilə heç də Sibir xəzlərindən az maraqlanmırdılar[336]. Arxiv sənədlərindən məlum olduğu kimi, təkcə 1735-ci ilin noyabrında şamaxılı tacir Əli Əliyev Həştərxana 131 manat 40 qəpiklik 220 ədəd «Şirvan qoyunu dərisi» aparmışdı[337].

Yuxarıda verilən cədvəllər, göründüyü kimi, XVIII əsrin birinci yarısında Azərbaycandan ixrac edilən malların hamısını əhatə etməmişdir. Bir çox mənbələrin verdiyi məlumata görə, həmin dövrdə Azərbaycandan neft, quru meyvə, şərab, quru balıq və b. mallar da ixrac edilirdi. Azərbaycandan Rusiyaya gətirilən malların əksəriyyəti, xüsusilə xammallar başqa Şərq ölkələrindən gətirilən mallar kimi, əsasən Rusiyanın sənaye mərkəzlərinə daşınırdı. Rusiyanın sənaye mərkəzləri arasında Moskva ön sırada dururdu. Buna görə də təsadüfi deyildir ki, 1730-1740-cı illərdə Həştərxana gətirilən Şərq mallarının 1/3 hissəsi Moskva şəhərinə daşınırdı. Həştərxan vasitəsi ilə Moskvaya aparılan Şərq, o cümlədən Azərbaycan malları üçün Moskva bazarında xüsusi «Həştərxan» və «Pambıq» cərgələri ayrılmışdı[338]. Birinci cərgədə Həştərxan vasitəsi ilə cənubdan gətirilən hər cür mallar, ikinci cərgədə isə pambıq və pambıq parçalar satılırdı.

Bəs Rusiyadan Azərbaycan və İrana nə kimi mallar ixrac edilirdi?

Rus qoşunları Xəzər boyu əyalətləri tutana qədər Həştərxandan cənuba, demək olar ki, ərzaq mallarının aparılması büsbütün qadağan edilmişdi[339]. Lakin

---

[334] QAAO, fond 394, iş 283 (1732), vərəq 1.

[335] П. Любомиров. Проект таможенного тарифа для Астрахани 1757 года (Этюд истории восточной торговли), журн. «Наш край, Астрахань, № 2, 1927, səh. 67.

[336] Y. N. Kuşyeva. Göstərilən əsəri, səh. 69.

[337] QAAO, fond 1, iş 539 (1735), vərəq 55.

[338] Y. N. Kuşyeva. Göstərilən əsəri, səh. 69.

[339] QAAO, fond 681, siyahı I (1752), iş 4, vərəq 7; А. Юхт. Восточная торговля России в 30—40-х годах XVIII в. и роль в ней армянских купцов, «Изв. АН Арм. ССР», № 8, 1956.

rus qoşunları Xəzər boyu əyalətləri tutduqdan sonra ərzaq mallarına olan məhdudluq aradan götürüldü və Azərbaycana hazır mallarla yanaşı, ərzaq malları da axışıb gəldi. Amma bu hal çox davam etmədi. Rus qoşunları Azərbaycan ərazisini tərk edib getdikdən sonra Rusiya hökuməti ərzaq mallarının ixracını tamamilə qadağan etmədisə də, ticarətin bu sahəsini xeyli məhdudlaşdırdı. Xəzər vasitəsi ilə cənuba ərzaq malları aparmaq istəyən tacir belə hallarda hökumətdən xüsusi icazə almalı idi.

İxrac edilən digər malların vəziyyəti necə idi? Burada bir məsələyə xüsusi diqqət vermək lazımdır. Məlum olduğu kimi, Rusiyanın inkişaf etməkdə olan sənayesinin xammala böyük ehtiyacı var idi. Belə olduqda, şübhəsiz, hökumət xammalın ixracına qəti surətdə yol verməzdi. Rusiyadan xaricə hazır sənaye mallarının ixrac edilməsinə isə hökumət etiraz etmirdi. Buna misal olaraq dəri aşlama sənayesini göstərmək olar.

Rusiyada sənayenin başqa sahələri kimi, dəri aşlama sənayesinə böyük əhəmiyyət verilirdi. Odur ki, 30-40-cı illərdə hökümət aşlanmış dərinin ixracına icazə verdiyi halda, xam dərinin xarici ölkələrə, xüsusilə Şərq ölkələrinə, o cümlədən Azərbaycana aparılmasını tamamilə qadağan etmişdi. Rusiyanın xam dərinin xarici ölkə bazarına ixracını qadağan etməsi ölkə daxilində dəri aşlama sənayesini inkişaf etdirmək və xarici bazara xammal əvəzinə, hazır mallar aparmaq məqsədini güdürdü. Lakin buna baxmayaraq, bəzi hallarda ayrı-ayrı tacirlər Həştərxandan xaricə xam dəri və gön aparmağa müvəffəq olurdular. Məsələn, 1735-ci ilə aid olan sənədlərin birində rus gəmi sahiblərindən birinin Həştərxan qubernatoruna verdiyi məlumatından aydın olur ki, onun gəmisində «şamaxılı tatar müsəlman Əhməd» Gilan və Mazandarana on tay xam dəri, 150 dənə aşlanmış dəri, on beş tuluq yağ və s. aparır[340]. Çox güman ki, şamaxılı tacir Əhməd Həştərxandan apardığı xam dəri üçün yalnız qızıl pul verdiyi üçün ona bu qədər xam dəri ixrac etməyə icazə verilmişdi. Çünki 1745-ci ildə də Həştərxandan dəri ixrac edilmişdir. Həmin ildə hökumət Həştərxan taciri Kubyakova Xəzər dənizi ilə Xəzər əyalətlərinə və İrana başqa ticarət malları ilə yanaşı, 10.000 manatlıq qaramal və at dərisi aparmağa icazə vermişdi. Bunun müqabilində Kubyakov qazandığı pulun əvəzində xəzinəyə yalnız qızıl və qızıl pul təhvil verməli idi. Kubyakov getdiyi səfərdən 1754-cü ildə qayıtmış və xəzinəyə 35 funta yaxın qızıl təhvil vermişdir[341].

Rusiyadan Azərbaycan və İrana daha bir sıra malların ixracı qadağan edilmişdi. C. Eltonun fəaliyyəti nəticəsində[342] ingilislərin Xəzər dənizində fəallığı artdıqdan sonra rus dövləti Xəzər boyu əyalətlərinə taxta, qatran, yelkənlik material, lövbər və s. mallar aparılmasını qadağan etmişdi.

---

340 QAAO, fond 394, iş 544, vərəq 4.
341 QAAO, fond 394, iş 1176 (1745-1754), vərəq 1.
342 Bu barədə IV fəsildə müfəssəl bəhs ediləcəkdir.

Başqa ölkələrdə olduğu kimi, Rusiyada da xaricdən gətirilən mallardan müəyyən məbləğdə gömrük alınırdı.

Lakin XVIII əsrin birinci yarısında gömrükalma siyasətində Rusiyanın Şərq ölkələri ilə Qərbi Avropa ölkələri arasında apardığı ticarətdə müəyyən fərq var idi. Qərb ölkələri ilə ticarəto gəldikdə, artıq I Pyotrun hakimiyyəti illərində hər bir ölkə ilə ixrac və idxal edilən mallardan alınan gömrük üçün xüsusi qiymət cədvəli tərtib olunmuşdu. Həmin qiymət cədvəllərində mallardan alınan gömrüyün miqdarı müəyyən edilmişdi. Bunun sayəsində hökumət ticarətdən əldə etdiyi qazancı nəzərə alaraq özünə daha mənfəətli olan (ixrac və idxal etdiyi) malların say və miqdarını bu və ya digər tərəfə çoxaldır və azaldırdı.

Həmin qaydanın əksinə olaraq, Rusiyanın Şərq ölkələri ilə ticarəti XVIII əsrin ortalarına kimi hələ də Pyotrdan əvvəlki dövrlərdə olduğu kimi aparılırdı[343]. Şərq ölkələrinə ixrac və əksinə, həmin ölkələrdən idxal edilən mallardan adətən eyni miqdarda gömrük alınırdı — 1 manat 5 qəpik[344]. Bu, misal gətirilən cədvəllərdən də aydın görünür. Doğrudur, həmin cədvəllər 1735-ci ilə aiddir. Lakin sonrakı dövrlərə aid olan sənədlərdə də külli miqdarda eyni faktlara təsadüf edilir[345]. Lakin onu da qeyd etmək lazımdır ki, Rusiyada sənayenin ehtiyacı olduğu xammallardan heç bir gömrük alınmırdı. Bu siyasətlə rus hökuməti ehtiyacı olduğu xammalın miqdarını artırmaq və başqa yerlərdən gələn tacirləri şirnikdirmək məqsədini güdürdü. Gömrüksüz satış birinci növbədə xam ipəyə aid idi. 1725-ci ilin qərarına əsasən Rusiyaya gətirilib, Moskva və Peterburqda satılan xam ipəkdən gömrük alınmamalı idi[346]. Amma, əgər xam ipək Rusiyanın şəhərlərində satılmaq üçün deyil, xarici bazara aparmaq üçün gətirilmişdisə, o zaman ipəkdən artıqlaması ilə gömrük alınırdı[347]. Belə hallarda gömrük haqqı pul və yaxud da mal halında toplanılırdı[348]. 1725-ci il noyabrın 6-da Matyuşkinin Həştərxandan verdiyi məlumatda deyilirdi ki, təkcə iyul ayının 8-dən avqustun 1-nə kimi Həştərxanda 5.982 manat 5 qəpik, həmçinin 276 bağlama və 248 batman 10 funt ipək və 62 ədəd darayi gömrük alınmışdır[349]. Belə ipəkdən Rusiyanın digər şəhərlərində də gömrük alınırdı[350]. Belə ki, başqa şəhərlərdə toplanılan gömrüyün miqdarı ilk dəfə verilən gömrüyün miqdarından qat-qat artıq olurdu[351]. İpəkdən başqa, Həştərxana

---

[343] П. Любомиров. Проект таможенного тарифа для Астрахани 1757 года (Этюд истории восточной торговли), səh. 61.
[344] Yenə orada.
[345] QAAO, fond 394, iş 708, 709 (1739).
[346] QAAO, fond 394, iş 1043 (1725).
[347] П. Любомиров. Проект таможенного тарифа для Астрахани 1757 года (Этюд истории восточной торговли), səh. 62.
[348] АВПР, ф. Сношения России с Персией, 77/1, iş 5 (1725), vərəq 357.
[349] Yenə orada.
[350] П. Любомиров. Проект таможенного тарифа для Астрахани 1757 года (Этюд истории восточной торговли), səh. 62.
[351] QAAO, fond 394, iş 1043, vərəq 1.

gətirilən digər mallardan, yuxarıda qeyd edildiyi kimi, malın dəyərinin 5 faizə qədəri, yəni hər manata 5 qəpik gömrük alınırdı. Əgər mal Həştərxanda deyil, başqa şəhərlərdə satılmaq üçün aparılsaydı, o zaman gəlmə tacir öz malını yalnız topdansatış şəklində satmalı idi [352]. Xam ipəyin satışına edilən güzəşt ipək məmulatına edilmirdi. Rənglənmiş, işlənmiş və sap halına salınmış ipəkdən, qoyulmuş qayda üzrə gömrük alınırdı. Nazik və zərif sap halında əyrilmiş və Rusiya toxuculuq fabriklərində işə gedə bilən yun və pambıq saplardan isə gömrük alınmırdı[353].

Rusiyada yalnız xam ipək satışına deyil, eyni zamanda burada hazırlanmayan və yaxud cüzi miqdarda hazırlanan gətirilmə mallara da güzəşt edilirdi. Belə hallarda gömrük yalnız limanda malın dəyərinin 3 faizi qədər alınırdı[354]. Rusiyada neft idxalına da güzəştə gedilirdi. Doğrudur, neftdən də 5 faiz gömrük alınırdı. Lakin onu Rusiyada baha qiymətə alırdılar, ağ neftin pudu 2 manata, qara neftin pudu isə 50 qəpiyə satılırdı. Bununla yerli hökumət Rusiyada istehsal edilməyən neft üçün əlverişli bazar yaratmaq məqsədini güdürdü[355].

Xəzər vasitəsi ilə İran və Azərbaycandan Həştərxana gətirilən mallardan gömrük alınması haqqında rəsmi qanunun olmasına baxmayaraq, bəzi hallarda Həştərxan gömrükxanasının işçiləri mövcud qayda-qanunu pozaraq gömrük pulunun miqdarını çoxaldırdılar. Bu eyni zamanda Rusiya ilə İran arasında 1732-ci və eləcə də 1735-ci illərdə bağlanılmış sülh müqaviləsinin bəzi müddəalarına zidd idi. 1736-cı ildə Nadir şah tərəfindən Peterburqa göndərilən səfir Mirzə Məhəmməd Kafi Şamaxıdan keçərkən Həştərxandan qayıtmış Şamaxı tacirləri ona müraciət edərək bildirmişlər ki, Həştərxan gömrükxanasında onlardan artıqlaması ilə xərc və gömrük alınmışdır. Mirzə Məhəmməd Kafi Həştərxanda olarkən knyaz Qolitsinlə görüşmuş və rus - İran müqavilələrinə əsaslanaraq bildirmişdir ki, Şamaxı tacirlərinin dediyinə görə, Həştərxan gömrükxanasında onlardan artıqlaması ilə alınan gömrükdən əlavə, keşikçi haqqı da alınır, onlara Rusiyanın daxili şəhərlərinə getmək üçün pasport verilməsi işi xeyli yubadılır və s. [356]. Şübhəsiz, Azərbaycan tacirləri tərəfindən edilən şikayətə Peterburqda laqeyd baxa bilməzdilər. Odur ki, xüsusi qərarla Həştərxan qubarnatoruna bildirilmişdi ki, bundan sonra «İran» tacirlərindən gömrük alınması qaydaya salınsın və onlardan əlavə xərc və rüşvət alınmasın, onlara yersiz əziyyət və zərər verilməsin. Belə ki, bu barədə bir daha şikayət eşidilməsin [357]. Rusiyanın Azərbaycanla ticarət

[352] П. Любомиров. Проект таможенного тарифа для Астрахани 1757 года (Этюд истории восточной торговли), səh. 62.
[353] Yenə orada, səh. 71.
[354] PSZRİ, t. 12, № 9424, səh. 727.
[355] П. Любомиров. Проект таможенного тарифа для Астрахани 1757 года (Этюд истории восточной торговли), səh. 71.
[356] QAAO, fond 394, iş 581, vərəq 7.
[357] Yenə orada.

münasibətlərinə  nə qədər əhəmiyyət verməsini ondan müəyyən etmək olar ki, Peterburqdan Həştərxana göndərilən əmrdə ciddi surətdə bildirilmişdi ki, gömrükxana işçiləri Şirvan tacirlərini nahaqdan incitsələr, rüşvət alsalar və onlara pasport verilməsini yubatsalar bu işdə müqəssir tutulan şəxs ölümlə cəzalandırılacaqdır[358]. Eyni zamanda Peterburqdan Qolitsinə tapşırılmışdı ki, o, gömrükxana işçilərindən qoyulan gömrükdən əlavə artıq xərc və rüşvət almayacaqları barədə onlardan yazılı vəd alsın[359].

Bəzi arxiv sənədlərindən görünür ki, gömrükxana işçiləri qoyulal qayda-qanuna o qədər də riayət etmirdilər. Buna görə də tacirlər bir çox fırıldaqlara əl atmalı olurdular. 1732 və 1735-ci illər müqaviləsinə əsasən şahın malları Həştərxanda heç bir gömrük verilmədən satılmalı idi[360]. Bəzi tacirlər müqavilələrin həmin bəndindən istifadə edib saxta sənədlər düzəldərək özlərini «şahın taciri» kimi qələmə verir, gömruk vermədən mallarını Rusiya bazarlarında satırdılar. Belə tacirlər müəyyən vaxtdan sonra ifşa olunub cəzalandırılırdılar[361]. Hər halda belə bir faktın mövcud olması Həştərxanda gəlmə tacirlərin sıxışdırılması demək idi.

Azərbaycan və eləcə də İran tacirlərinin Xəzər dənizi ilə ticarət etmələrinə maneçilik törədən amillərdən biri də həmin tacirlərin uzaq məsafələri qət edə bilən gəmilərinin olmaması idi. Həştərxandakı gəmilərin kapitanları isə bundan sui istifadə edərok yol xərcini bahalaşdırır və onlara rüşvət və ya artıq pul verməyən tacirlərə öz mallarını gəmilərə yükləməyə icazə vermirdilər. Yuxarıda adını çəkdiyimiz səfir Mirzə Məhəmməd Kafi Həştərxanda ikən belə halların şahidi olmuş və Peterburqda hökumət başçıları ilə görüşərkən yazılı surətdə bildirmişdi ki, İran tacirləri Həçtərxandan dəniz vasitəsi ilə qayıtmaq istədikdə kapitanlar gəmilərin özlərinə lazım olduğunu bəhanə gətirirlər. Lakin tacirlərin dəfələrlə etdikləri xahişdən və onlardan külli miqdarda pul aldıqdan sonra onlara yalnız şəxsi gəmilərə minməyə icazə verilir.

Rus hökuməti bu özbaşınalığın qarşısını almaq üçün xüsusi qərar qəbul etdi. Bu münasibətlə Həştərxana göndərilən əmrdə müqəssirlərin ağır cərimə olunacaqları bildirildi[362].

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, bəhs edilən illərdə Rusiyanın özünün Xəzər dənizində kifayət qədər gəmisi yox idi. Təkcə bunu göstərmək kifayətdir ki, XVIII əsrin 40-cı illərində Rusiya dövlətinin Xəzər dənizi vasitəsi ilə ticarət malları və sərnişinləri daşıyan otuzdan bir qədər artıq gəmisi var idi[363]. Gəmilərin yükgötürmə qabiliyyəti üç tondan beş tona çatırdı[364].

---

358 Yenə orada.
359 Yenə orada.
360 Yenə orada, iş 708, vərəq 126.
361 Yenə orada, vərəq 130.
362 QAAO, fond 394, iş 10, vərəq 20-21.
363 QAAO, fond 394, iş 1118  (1746), vərəq 312-313.
364 QAAO, fond 394, iş 1450 (1749), vərəq 126.

Rus ticarət gəmiləri Xəzər dənizində başlıca olaraq Dərbənd, Bakı, Lənkəran, Ənzəli və Astrabad limanlarına yan alırdı. Lakin bu limanlar arasında Bakı hər cəhətdən üstün idi. Bütün rus dənizçiləri Bakını Xəzər dəiizində ən yaxşı gəmi dayanacağı kimi qələmə verirdilər. 1745-ci ildə Həştərxan limanının rəisi leytenant Qornyakov Həştərxan qubernatoru V. N. Tatişşeva bildirmişdir ki, «...bütün Xəzər dənizində qumlu sahillərin müqabilində Bakıdan başqa, gəmilərin təhlükəsiz dayanmaları üçün yer yoxdur, çünki burada şəhərin lap yaxınlığına gəlmək və qışlamaq mümkündür, ticarət gəmiləri burada rahat alver edə bilər, bu yerdə heç bir tufandan ehtiyat etmək lazım gəlməyəcək»[365].

1740-cı ildə İranla daha yaxından ticarət aparan rus tacirləri Ənzəli limanının qumla dolduğuna görə gəmilərin sahilə yaxınlaşa bilməməsi barədə şikayət etdilər[366].

1745-ci ildə Həştərxanda Şərq ölkələri ilə ticarət etmək üçün əsas limanı, «rus qoşunlarının İrana gəlməzdən əvvəl», rus gəmilərinin həmişə yan aldıqları Lənkəranda inşa etmək qərara alındı[367]. Lakin bu qərarın həyata keçirilməsi haqqında hələlik arxiv sənədlərində məlumat əldə edilməmişdir. Hər halda rus çinovniklərinin İran da daxil olmaqla, Şərq ölkələri ilə ticarət aparmaqda əsas liman kimi Bakı və yaxud Lənkəranı seçmələri Azərbaycan şəhərlərinin rus-şərq ticarətindəki əhəmiyyətini bir daha göstərir.

Rus tacirlərinin Azərbaycanda və Azərbaycan tacirlərinin tez-tez Rusiyada olmaları yalnız iqtisadi xaraktermi daşıyırdı? Bu suala da arxiv sənədləri cavab verir. Rusiyanın Azərbaycanla əlaqəsi eyni zamanda hər iki ölkənin xalqlarını yaxınlaşdırmış və bir-biri ilə daha yaxından tanış olmaq üçün şərait yaratmışdır. Təsadüfi deyildir ki, öz ailələri ilə Rusiyaya uzun müddətə ticarət etmək üçün gələn azərbaycanlı tacirlərin bir çoxu İran qoşunlarının qanlı hücumlarına məruz qalan Azərbaycana qayıtmaqdan imtina edərək, Rusiyanın təbəəliyinə keçməyi daha üstün tuturdular. Bu barədə Həştərxan Dövlət Vilayət arxivində maraqlı bir sənəd mövcuddur. 1744-cü ildə Həştərxandakı «Gilan» karvansarasının sahiblərindən olan Mustafa Nadir Məmmədov və İmamquliyev rus dövlət başçılarına müraciət edərək karvansarada öz ailə və qohumları ilə yaşayıb, ticarətlə məşğul olan və ya muzdurluq edən bir neçə azərbaycanlının Rusiya təbəəliyinə keçmək istədikləri haqqında məlumat vermişlər. Aşağıda həmin şəxslərin siyahısı verilir (8 və 9-cu cədvəllər).

Nəzərdən keçirilən arxiv sənədində həmin şəxslərin rus təbəəliyinə qəbul olunmaları haqqında məlumata təsadüf edilmir. Lakin digər bir rəsmi sənəd həmin

[365] QAAO, fond 394, iş 1078 (1745); müqayisə et: Донесение капитана Рентеля адмиралу Апраксину, 1710 г. «Материалы для истории русского флота», ч. IV. səh. 289; Донесение капитана Вердена Петру I, 1719, yenə orada, səh. 286-287; F. Soymonov. Göstərilan əsəri, səh 2.
[366] QAAO, fond 394, iş 1046 (1745), vərəq 8.
[367] Yenə orada, 1078 (1745), vərəq. 8.

azərbaycanlıların rus təbəəliyinə qəbul olunmaları haqqında məlumat verir. Doğrudur, bu sənəddə bəhs edilən dövrə aid olan başqa sənədlərdə olduğu kimi «azərbaycanlı» sözü yazılmışdır. Lakin yuxarıda qeyd edildiyi kimi «Gilan» karvansarasında əsil iranlılarla yanaşı, «Şamaxı, Dərbənd, Təbriz tatarları», «iranlı» kimi qələmə verilən azərbaycanlılar da yaşayırdılar.

Ölkəni idarə edən senat azərbaycanlıların və Şərq ölkələrindən gələn digər tacirlərin rus təbəəliyinə qəbul olunmaları haqqında 1744-cü il aprelin 13-də aşaqıdakı məzmunda qərar qəbul etmişdir: 1. «İrandan gəlmiş» tacirlər Rusiya təbəəliyini qəbul etmək istəsələr onları nəzakətlə, müvəqqəti olaraq təbəəliyə qəbul etməli, lakin bu barədə heç bir məlumat dərc etməməli. 2. Müvəqqəti olaraq rus təbəəliyinə qəbul olunmuş «iranlılardan» bələdiyyə idarəsinin qanunu üzrə hamıdan alınan qədər vergi alınsın; 3. həmin tacirlərdən Rusiyada yaşamaq istəməyib geri dönmək istəyənlərə icazə verilsin; 4. Lazım gəldikdə onlar öz adət və qanunları ilə mühakimə edilsinlər; 5. Onlara dini ayinlərin icrasında maneçilik törədilməsin və müsəlmanlar xaç vurmağa məcbur edilmsinlər; 6. Onlar heç bir icbari işə cəlb edilməsinlər; 7. Karvansarada yaşamaq istəməyənlərə şəhərdə yaşamağa icazə verilsin; 8. Onlara milliyyətlərinə görə şəhərdə yer ayrılsın; 9. Əgər onların biri Həştərxanda toxuculuq fabriki və yaxud manufakturası açmaq istəsə, Manufaktura kollegiyasının razılığı ilə icazə verilsin[368].

**8-ci cədvəl***

| № | Şəxsin adı | Haradan gəlmişdir | Yaşı | Məşğuliyyəti |
|---|---|---|---|---|
| 1. | Ramazan Məhəmmədov | Şamaxı | 40 | ticarətlə məşğul olur və can vergisi verir |
| | a) qardaşı Qurban Əli | - | 38 | |
| | b) qardaşı İbrahim | - | 25 | |
| | c) oğlu Əhməd | - | 2 | |
| 2. | Hacı İsmayıl Sarı Əhməd | Şamaxı | 55 | ticarətlə məşğul olur və can vergisi verir |
| | a) oğlu Ağa Mirzə | - | 22 | |
| | b) oğlu İbrahim | - | 18 | |
| | c) oğlu Akşin | - | 20 | |
| 3. | Səfər Hacı Qulamov | Dərbənd | 32 | muzdurluq edir |
| | a) oğlu Həmid | - | 3 | |
| | b)Yarməhəmməd | - | 1 | |
| 4. | Şaban Abdulhəmidov | Dərbənd | 52 | Xırda ticarətlə məşğul olur, can vergisi verir |
| | a) oğlu Malik | - | 26 | |
| | b) oğlu Məhəmməd Hüseyn | - | 6 ay | |
| 5. | Məhəmməd Əli Sadıqov | Dərbənddən 1714-cü ildən gəlmişdir | 70 | Ticarətlə məşğul olur və can vergisi |

[368] PSZRİ, t. 12, № 8919, səh. 77-78;

| | | | | |
|---|---|---|---|---|
| | a) oğlu Şaban | - | 19 | verir |
| | b)Şabanın oğlu İsmayıl | - | 5 ay | |

*QAAO, fond 394, siyahı 1, iş 1025 (1744 q.)

**9-cu cədvəl***

| № | Şəxsin adı | Haradan gəlmişdir | Yaşı | Məşğuliyyəti |
|---|---|---|---|---|
| 1. | İsmayıl Əbdül Əziz | Şamaxı | 50 | Ticarətlə məşğul olurlar |
| | a) qardaşı Yaqub və ögəy atası tacir Mövlad Verdi | Şamaxı (Həştərxana 1743-cü ildə gəlmişdir) | 12ay<br>28 | |
| 2. | Məhəmməd İbrahim | Şamaxı | 19 | muzdurluqla dolanır |
| | a)qardaşı Şaban | - | 15 | |
| | b)qardaşı Məhəmməd | - | 10 | |
| 3. | Qasım İmambəyov | Təbriz (Həştərxana 1738-ci ildə gəlmişdir) | 30 | xırda alverlə məşğuldur |
| | a) oğulluğu Məhəmməd | - | 4 | |
| 4. | Məhərrəm Bayramov | Dərbənd | 25 | muzdurluqla dolanır |
| | a)qardaşı İsa | - | 19 | |
| | b)qardaşı Musa | - | 23 | |
| | c)Musanın oğlu Mustafa | - | 3 | |
| | ç)qaynı Həsən Camalov | - | 25 | |
| 5. | Musa Həsənbəyov | Dərbənd | 24 | tacirdirlər |
| | a) qardaşı Mustafa | - | 16 | |
| 6. | Səfərəli Şıxməmmədov | Dərbənd (Həştərxana 1714-cü ildə gəlmişdir) | 54 | Əvvəllər ticarət edərdi, indi isə muzdurluqla məşğuldur. |
| | a) Oğlu Kərimbəy | - | 4 | |

* QAAO, fond 394, iş 1025 (1744 q.)

1747-ci ildə Nadir şah öldükdən sonra onun qılınc gücü ilə saxladığı və onsuz da parçalanmaqda olan dövlətinin tənəzzülü daha da sürətləndi. Nəticədə İranın əyalətləri hesab edilən bir çox ölkələr, o cümlədən Azərbaycan İran boyunduruğundan xilas olub müstəqillik əldə etdi. Lakin tarix səhnəsində bu zaman Azərbaycan vahid bir dövlət kimi deyil, müstəqil və yarımmüstəqil xanlıqlar halında çıxış etdi[369]. Həmin dövrdən başlayaraq Azərbaycanın Rusiya ilə siyasi və iqtisadi əlaqəsi daha da möhkəmləndi. Artıq təkcə ayrı-ayrı azərbaycanlı tacirlər deyil, eyni zamanda bir çox feodallar da rus dövləti ilə yaxından əlaqə

[369] F. M. Əliyev. Şimali Azərbaycan şəhərləri, səh. 3.

saxlamaq siyasəti yürüdürdülər[370]. Bu, o demək idi ki, Azərbaycan xalqının bir çox nümayəndələri İranın hədə-qorxusuna baxmadan Rusiya ilə yaxınlıq etmək istəyirdilər. Bunu bir sıra arxiv sənədləri də sübut edir. Doğrudur, əldə olan sənədlər Quba, Şamaxı və Bakı xanlıqlarına aiddir, lakin şimali-şərqi Azərbaycanın bu başlıca xanlıqlarındakı əhval-ruhiyyə Rusiyaya qarşı olan təmayülü aydın göstərmək üçün kifayət edər.

1749-cu ilin əvvəllərində Bakı, Quba, Dərbənd xanlıqlarında olmuş rotmistr A. Çerneski həmin il aprel ayının 8-də Həştərxanda olarkən rus ordusunun kapitanı Konıtovskiyə Azərbaycanda ona, rus dövlətinin nümayəndəsi kimi göstərilən hörmət haqqında yazılı surətdə məlumat vermişdir. A. Çerneski yazırdı ki, Bakıya gələn kimi general-leytenantın göndərdiyi məktubu Bakı xanı Mirzə Məhəmməd xana verdim. Xan mənim gəlişimlə sevindi, mənə çox hörmət edərək bildirdi ki, əgər yoluma davam etməliyəmsə, o, məni məmnuniyyətlə müşayiət edə bilər, sonra o atı olmayan ruslara öz atlarından verdi və məni dənizin sahilinə qədər yola saldı. Sahildə rus gəmisində Çerkasov məni gözləyirdi. O, tez mənim üçün qayıq göndərdi və mən Çerkasovla görüşüb, onun üçün göndərilən məktubu ona verdim. Mən Bakıda on gün qaldım. Bakı xanı kazaklara mənzil verdi, onları ərzaqla və atlarını arpa-samanla təmin etmək üçün üç nəfər ayırdı. Mənim özümü isə xan öz sarayında saxladı. Mən Bakıdan gedənə kimi sarayda yaşadım[371].

Rotmistr A. Çerneski Bakıdan sonra Dərbənd və Qubada olmuşdur. Onun yazdığına görə, Quba xanı Hüseyn Əli xan demişdir ki, İran hücum edərsə o, və Bakı xanı İrana tabe olmayacaqlar[372]. Sonra Quba xanı A. Çerneskidən xahiş etmişdir ki, o, general-leytenanta bildirsin ki, əgər Rusiyadan İrana iş dalınca getmək istəyən olsa, Quba hakimi heç bir zərər toxundurmadan məmnuniyyətlə onları qəbul edib, yola salmağa hazırdır. Hazırda yollarda ruslar üçün heç bir təhlükə yoxdur[373].

Bakı, Quba, Şəki və b. xanlıqlar ilə Rusiya arasında iqtisadi əlaqələrin olması haqqında da arxiv sənədlərindən hələlik az da olsa maraqlı məlumat əldə edilmişdir.

1749-cu ildə Bakı xanlığını İran hücumu hədələdiyi bir zamanda Bakı xanı öz şimal qonşusu Rusiyaya müraciət edərək bildirmişdi ki, Bakı qalasında müqavimət göstərmək üçün taxıl azuqəsi yoxdur. Odur ki, xan öz qiymətində Bakı əhalisinə çata biləcək[374] taxıl göndərməyi və əgər dövlətin taxılı olmasa, o zaman rus tacirlərinə satmaq üçün Bakıya un aparmaqlarına icazə verməsini xahiş

---

[370] H. B. Abdullayev. Из истории Северо-восточного Азербайджана в 60-80-х гг. XVIII в., Баку. 1958.

[371] QAAO, fond 394, iş 32 (1749), vərəq 204.

[372] Yenə orada, vərəq 205.

[373] QAAO, fond 394, iş 32 (1749 q.), vərəq. 205.

[374] Sənəddə taxılın miqdarı göstərilmir.

etmişdir[375]. Xan göstərmişdir ki, Bakıya un gətirən rus tacirləri öz mallarını istədikləri qiymətə sata bilərlər[376].

Qızlar şəhərindən karvan yolu ilə Azərbaycanda ticarət etmək üçün Qubaya gələn rus təbəələri qubalı Hüseyn Əli xan tərəfindən nəzakətlə qarşılanmış və xan onların təhlükəsizliyini təmin etmək üçün onlara silahlı dəstələr də qoşmuşdur. Hüseyn Əli xan Qızlar şəhərinin komendantı general-leytenant Devizə yazdığı məktubunda bildirmişdir ki, o, rus tacirlərini keşikçi dəstələri ilə təhlükəsiz yolla öz dostu Hacı Çələbinin vilayətinə, yəni Şəki xanlığına göndərmişdir, onlar Şəkidən Şirvana, Şirvandan isə yenə də Qubaya qayıdacaqlar. Məktubun sonunda xan bildirmişdir ki, o, rus tacirlərini bir qonaq kimi qarşılamış və onları lazım olan hər bir şeylə təmin etmişdir[377].

Beləliklə, XVIII əsrin birinci yarısında Azərbaycanın iqtisadiyyatı ümumi tənəzzül dövrü keçirdiyi bir zamanda ticarətin arası uzun müddət kəsilməmişdir. Hətta XVIII əsrin ikinci rübündə Azərbaycanın Xəzər boyu əyalətləri Rusiyanın himayəsi altına keçdikdən sonra burada ticarət sahəsində müəyyən canlanma da hiss olunmuşdur. Doğrudur, bu zaman müvəqqəti olaraq Türkiyənin hakimiyyəti altına düşən Azərbaycan vilayətləri türk feodalları tərəfindən işğal edilmiş və xalq qarət olunmuşdur. Lakin bu Azərbaycan tacirlərinin Xəzər boyu əyalətlərinə gedişinə və ticarət etmələrinə tam mane olmamışdır. XVIII əsrin ikinci rübündə Azərbaycanın tranzit və xarici ticarətində əmələ gələn canlanmada Rusiyanın rolunu xüsusilə qeyd etmək lazımdır. Rusiyanın Azərbaycanla ticarət etməsi eyni zamanda rus tacirlərini uzaq Hindistana aparıb çıxarırdı. Həştərxanda və xüsusilə Abşeronda yurd salan hindlilər Rusiya və Azərbaycanın mallarını Hindistana aparır və oradan yerli mallar gətirirdilər.

Azərbaycan-rus ticarət münasibətləri siyasi əlaqələrin yaranmasına və Azərbaycanın inkişafına müsbət təsir göstərirdi. Ticarət rus və Azərbaycan xalqları arasında qarşılıqlı əlaqənin yaranmasında və hər iki xalqın yaxınlaşmasında böyük rol oynamışdır. Buna görə də təsadüfi deyildir ki, Azərbaycan tacirləri qonaqpərvər rus xalqı ilə bir ölkədə — Rusiyada yaşamaq üçün buraya, hətta öz ailələri ilə axışıb gəlirdilər. Rus xalqının səmimiyyəti azərbaycanlılar arasında onlara hədsiz hüsn-rəğbət qazandırdı.

## IV FƏSİL

[375] QAAO, fond 394, iş 90 (əlavə), vərəq 461.
[376] Yenə orada.
[377] Yenə orada, vərəq 306.

## XƏZƏR TİCARƏTİ UĞRUNDA RUSİYA İLƏ İNGİLTƏRƏ RƏQABƏTİ VƏ AZƏRBAYCAN

XVIII əsrdən hələ xeyli əvvəl ingilislər xam ipək mənbələrini ələ keçirməyə, hazır mallar üçün yeni əlverişli bazar tapmağa və Şərq ilə Qərb ölkələri arasında ən rahat yol sayılan Volqa-Xəzər ticarət yolunda hakim mövqe tutmağa can atır, rus tacirləri ilə ciddi rəqabət aparırdılar.

Azərbaycan və İran xam ipək mənbələri ilə çox zəngin idi. Əsas xam ipək mənbələri Gilan, Şamaxı, Gəncə, Şəki, Təbriz və Astrabadda yerləşmişdi.

Azərbaycanın qədim şəhərləri — Təbriz, Şamaxı, Gəncə, Bakı, Ərdəbil Şərq ilə Qərb arasında əlverişli coğrafi mövqe tuturdu. Bu isə həmin şəhərlərin tranzit ticarətindəki rolunu və beynəlxalq bazar kimi əhəmiyyətini çoxaldırdı.

Volqa — Xəzər ticarəti yolunda Azərbaycanın liman şəhərləri olan Dərbənd, Nizabad, Bakı və Lənkəranın əhəmiyyəti az deyildi.

Bütün bunları nəzərə alaraq, Rusiya ilə İngiltərə arasında Xəzər ticarəti uğrunda aparılan rəqabətdə Azərbaycanın əsas mübarizə obyektlərindən biri olduğunu qeyd etmək lazımdır.

İngilislər hələ XVI əsrdə Arxangelsk limanı vasitəsi ilə Volqa—Xəzər ticarət yolundan istifadə etməyi qərara almış və bu məqsədlə də ticarət şirkəti təsis etmişdilər[378].

XIX əsr tarixçisi S. Bronevskinin yazdığına görə, ingilislərin hələ o zaman əsas məqsədi İranla, xüsusilə Şirvan əyaləti və onun zəngin bazara malik olan Şamaxı şəhəri ilə ticarət aparmaqdan ibarət idi[379].

Şirvanın ingilislər üçün Xəzər dənizi ticarətində nə kimi böyük əhəmiyyətə malik olmasını C. Hanvey də qeyd edir: «O vaxt bizim şirkətin yeri Şirvan idi və bir çox ingilis təbəələri də elə bu idarədə işləyirdilər[380].

Qeyd etmək lazımdır ki, dəniz ticarətində təcrübəli olan ingilisləri Rusiyada və eləcə də Xəzər dənizində ticarət aparmağa I Pyotrun özü dəvət etmişdi. Şübhəsiz, bu da səbəbsiz deyildi. Bunu, hər şeydən əvvəl, Rusiyada sənayenin, xüsusilə toxuculuğun inkişafı tələb edirdi. Məhz buna görə də I Pyotr ingilislərə Gilan, Şirvan və Ərəşdən aldıqları xam ipəyi yalnız Volqa—Xəzər yolu ilə aparmaq şərti ilə Rusiyadan getməyə icazə vermişdi[381]. Bununla da I Pyotr xam ipəklə aparılan ticarəti Volqa—Xəzər yoluna köçürməklə Rusiyanın toxuculuq sənayesini zəruri xammalla təmin etmək, xarici tacirlərdən toplanılan gömrük hesabına dövlətin qazancını çoxaltmaq və ən nəhayət, dəniz texnikasında təcrübəli

---

[378] C. Hanvey. Göstərilən əsəri, səh. 1.
[379] С. Броневский. Новейшие географические и исторические известия о Кавказе, II cild, M., 1823, səh. 190.
[380] C. Hanvey. Göstərilən əsəri, I cild, səh. 5.
[381] Yenə orada, səh. 8; M. Çulkov. Göstərilən əsəri (müqəddimə), səh. 82.

olan ingilislərdən gəmiçilik işlərində istifadə etmək məqsədlərini güdürdü. Məlum olduğu kimi, I Pyotrun hakimiyyətinin ilk çağlarında Rusiyanın dənizçilik texnikası Qərbi Avropa ölkələrinə, xüsusilə İngiltərəyə nisbətən aşağı səviyyədə idi. Buna görə də rus dənizçiləri Xəzərdə uzaq səfərlərə çıxmaqdan ehtiyat edərək çox zaman Nizabad limanından uzağa getmirdilər.

XVIII əsrdə ilk dəfə Azərbaycan şəhərlərində Con Bel olmuşdur. O, I Pyotrun İrana göndərdiyi səfir A. P. Volınskinin dəstəsində həkim sifəti ilə çalışarkən Azərbaycanın bir çox şəhərlərində, o cümlədən Dərbənd, Nizabad, Şamaxı, Təbriz, Lənkəran, habelə Muğanda olmuşdur. Con Bel ikinci dəfə Azərbaycana 1722-ci ildə I Pyotrun qoşunlarının tərkibində gəlmişdir. Həmin səyahətlər zamanı C. Bel Azərbaycanın şəhərləri və iqtisadiyyatı haqqında zəngin məlumat toplamışdır[382].

I Pyotrun qoşunlarının tərkibində H. P. Bryus adlı başqa bir ingilis zabiti də var idi. Bryus, həmçinin 1723-cü ildə Matyuşkin tərəfindən Bakının alınmasında da iştirak etmişdir. O da Bel kimi, olduğu yerlər haqqında iqtisadi vəziyyətə dair məlumat toplamışdır[383]. Daha sonra Xəzər boyu əyalətlərdə olmuş Cems Spilman öz xatirələrində Azərbaycanın ticarətindən bəhs etmişdir[384]. Beləliklə, qeyd edilən müasirlərin təsərrüfat və ticarət haqqındakı məlumatları ingilislərin Xəzər ticarətinə olan marağını daha da artırdı.

1723-cü ildə Rusiyada Azərbaycan və eləcə də İranla ticarət edən tacirlərin şirkəti təşkil edildi.

Həmin şirkətin üzvləri üçün hər biri 150 manata bərabər olan 400 aksiya tərtib edildi. Bu şirkət 40 il fəaliyyət göstərdi[385].

1721 - 1725-ci illər arasında Rusiyada Xəzər dənizi üçün onlarca gəmi quraşdırıldı[386].

Lakin qeyd etmək lazımdır ki, sonralar rus dövləti Xəzər dənizindəki fəaliyyətini xeyli zəiflətdi. Xəzər dənizi üçün Kazan və Nijni Novqorodda tikilməkdə olan gəmilər yarımçıq qaldı. A. Ştılko rusların Xəzər ticarətinin I Pyotrdan sonrakı dövrü haqqında yazır ki, Pyotr öldükdən sonra elə bir dövlət xadimi tapılmadı ki, onun Xəzərdə başladığı işləri davam etdirsin. Gəmi tikilməsi üçün buraxılan 147.000 manat puldan yalnız 80.000 xərclənmişdi[387]. I Pyotrun təklifi üzrə Xəzər dənizinin şimalında yerləşən «Четыре угол» adasında tikilən liman yarımçıq qalıb, ləpələr altında məhv olub getmişdi[388].

---

[382] C. Bel. Göstərilən əsəri.
[383] S. B. Aşurbəyli. Göstərilən məqaləsi, səh. 63.
[384] C. Spilman. Göstərilən əsəri, səh. 10 və b.
[385] S. Bronevski. Göstərilən əsəri, II cild, səh. 208.
[386] F. Veselaqo. Göstərilən əsəri, səh. 55; А. Штылко. Волжско-Каспийское судоходство в старину, СПб, 1896, səh. 40
[387] А. Штылко. Волжско-Каспийское судоходство в старину, səh. 40.
[388] Н. Попов. В. К. Татищев и его время, СПб, 1896, səh. 378.

İmperatriça Anna İvanovna hökumətinin siyasəti onun Xəzər ticarəti və Xəzər boyu əyalətləri haqqında olan laqeydliyini tamamilə biruzə verdi. 1732-ci il Rəşt, 1735-ci il Gəncə müqavilələrinə əsasən Rusiya hökuməti vaxtı ilə I Pyotrun Rusiyaya birləşdirdiyi Xəzər boyu əyalətlərdən də əl çəkməli oldu. Bununla əlaqədar olaraq Xəzər üçun nəzərdə tutulan gəmilərin hazırlanması da yarımçıq qaldı. Anna İvanovna hökümətinin İrana güzəştə getməsini görən şah, hətta Rusiyadan Həştərxan limanındakı gəmiləri İrana satmağı və İrana gəmiçilik ustalarının göndərilməsini kobudcasına tələb etmişdi[389].

Yeri gəlmişkən göstərmək lazımdır ki, bu tələbləri İran özü deyil, bilavasitə ingilislərin təkidi ilə edirdi. Xam ipək mərkəzlərində gözü olan ingilislər rusları İran və Azərbaycandan sıxışdırıb çıxarmaq məqsədi ilə «düşməni başqasının əli ilə vur» — siyasətini yürütməyə başladılar. İngilislər İran hökümətini tədricən öz təsirləri altına alaraq, iranlıların köməyi ilə ruslara qarşı mübarizəyə başladılar.

İngiltərə ilə Rusiya arasında Xəzər ticarəti uğrunda rəqabət başladı. Lakin bu mübarizə əvvəlcə birtərəfli idi. İngilislər Londonda, Peterburqun özündə və İranda rus ticarətinə qarşı qəsd hazırladıqları halda, siyasətdə çox sadəlövh olan Anna İvanovna höküməti Rusiyanın Şərq ticarətinə dəyəcək zərbəni hiss etmədi və əksinə, Rusiyada ticarət edən və ya Rusiyadan keçib İran, Zaqafqaziya və sair Şərq ölkələrinə mal aparan ingilis tacirləri üçün hər cür şərait yaratdı. İngiltərə həmin dövrdə Rusiyanın Qərbi Avropa ölkələri ilə ticarətində əsas yerlərdən birini tuturdu[390]. Rusiyanın xarici ticarətində belə bir mövqe tutmaları ingilislərə 1734-cü ildə Rusiya ilə yeni ticarət müqaviləsi bağlamağa imkan verdi [391] . Həmin müqavilənin 8-si bəndi ingilislərin Rusiya ərazisindən keçib, İranla ticarət etmələri məsələsinə həsr edilmişdi. P. A. Ostrouxov yazır ki, ingilislər düz 150 ildən artıq bir müddət ərzində belə bir hüquq qazanmaq üçün can atırdılar[392].

Bu müqavilə Rusiyaya tranzit ticarətdən böyük qazanc əldə etmək ümidi verirdi. Digər tərəfdən rus tacirləri ingilislərin köməyi ilə xam ipəyin Volqa — Xəzər yolu ilə Rusiyaya daşınmasına ümid bəsləyirdilər.

1739-cu ildə Həştərxandan cənuba İngiltərənin nümayəndəsi C. Elton yola düşmüşdür.

Tarix elmləri namizədi S. Aşurbəyli vaxtı ilə Rusiyada xidmət edən C. Eltonun 1740-cı ildə Nadir şah tərəfindən İrana dəvət olunduğunu və şahın təklifi üzrə onun İran üçün donanma yaratdığını öz qısa və ümumi məqaləsində qeyd edir və göstərir ki, Elton və onun yoldaşı kapitan Vudrufun hərəkətləri rus dövlətinin

[389] А. Штылко. Волжско-Каспийское судоходство в старину, səh. 46.
[390] С. А. Покровский. Внешняя торговля и внешнеторговая политика России, М., 1947, səh. 99.
[391] Yenə orada.
[392] П. А. Остроухов. Англо-русский торговый договор 1734 г.. СПб, 1914, səh. 109; В. Лебедев. Русско-английские торговые отношения и договор 1734 г., «Ученые записки МГУ им. М. В. Ломоносова кафедра истории СССР», вып. 167, səh. 126.

narazılığına səbəb olmuş və nəticədə «Rusiya kompaniyasının» əleyhinə bir sıra tədbirlər görülmüşdür[393].

Bu məsələni bir qədər dəqiqləşdirmək və genişləndirmək lazım gəlir.

Rusiya ilə rəsmi müqavilə bağladıqdan sonra İran, Zaqafqaziya, Hindistan və Çinə Rusiya ərazisindən daha rahat, ucuz və yaxın yol axtaran İngiltərə 1735-ci ildə özünün məxfi agentini, dəniz kapitanı C. Eltonu Rusiyaya göndərmişdi. O, bir neçə il rusların Orta Asiyaya göndərdikləri ekspedisiyalarda iştirak etmişdi. C. Elton ekspedisiya zamanı yerli şəraiti, həmçinin Kama, Volqa və b. çayların xüsusiyyətini öyrənmiş və hətta həmin yerlərin coğrafi xəritəsini də tərtib etmişdir. Qazağıstan və Orta Asiya tərəfindən əlverişli yol olmadığına bir daha əmin olan C. Elton yeganə rahat ticarət yolu olan Xəzər dənizinə çıxmağı qərara almışdır. C. Hanveyin yazdığına görə, C. Eltonun məqsədi guya yalnız Astrabaddan Buxaraya getmək idi[394]. Əslində isə C. Elton Xəzər dənizi ticarətini qaydaya salmaq və İranı Rusiyanın əleyhinə qaldırmaqla rusları Xəzər dənizindən sıxışdırmaq məqsədi ilə İngiltərədən göndərilən rəsmi bir şəxsiyyət idi[395].

C. Elton 1738-ci ildə Orenburq ekspedisiyasından sonra Peterburqa qayıtmış və İngiltərə tacirləri ilə müəyyən danışıqlar apardıqdan sonra Munqo Qrem adlı bir ingilis taciri ilə Moskvaya gəlmiş, 1739-cu il martın 19-da Moskvadan çıxaraq, Həştərxana yola düşmüşdür. C. Elton özü yazır ki, Həştərxandan Rəştə tezliklə gəmi getmədiyi üçün biz 3 həftə burada qalmalı olduq. Bu müddət ərzində biz İran ticarətinin xarakterini və bu ticarətdə rus və erməni tacirlərinin iştirakını öyrəndik. Erməni tacirləri məqsədimizi duyub, bizə məlumat vermək istəmədilər[396].

Lakin bununla belə C. Elton Xəzər ticarətinin müəyyən məsələləri ilə tanış oldu. C. Elton Rəştə gəldikdən sonra mustofi[397] ilə söhbət zamanı bildirmişdir ki, o, bura yalnız ticarət xatirinə gəlmiş və özü ilə bir qədər ingilis mahudu gətirmişdir ki, onu yaxşı sata bilsə, şahın qarşısında İranda öz şirkətlərini təsis etmək məsələsini qoysun[398].

C. Elton həmçinin bildirmişdir ki, onu eyni zamanda həm Xəzər dənizinin sahilləri və həm də bu dənizdə üzən İran gəmiləri maraqlandırır. Əgər gəmilər yararsız olarsa, o zaman onlar İran üçün gəmi də tikə bilərlər[399].

Onu da qeyd etmək lazımdır ki, Nadir şah dövlətin gəlirini çoxaltmaq, müharibələrin xərcini ödəmək məqsədi ilə zorakılıqla həyata keçirdiyi bir çox tədbirlərlə yanaşı, İranın başqa ölkələrlə ticarət etməsi üçün də şərait yaratmaq

---

[393] S. Aşurbəyli. Göstərilən əsəri, səh. 69.
[394] C. Hanvey. Göstərilən əsəri, I cild, səh. 9; P. Butkov. Göstərilən əsəri, I cild, səh. 221.
[395] QAAO, fond 394, iş 871 (1743 q.), vərəq 68-70.
[396] C. Hanvey. Göstərilən əsəri, I cild, səh. 11
[397] İstifadə edilən mənbədə Mustofinin adı qeyd edilməmişdir.
[398] Bax: C. Hanvey. Göstərilən əsəri, I cild, səh. 15.
[399] K. Əşrəfyan. Göstərilən əsəri, səh. 184.

fikrində idi. Məhz bu məqsədlə də şah İranla ticarət edən bir çox ölkələrə imtiyazlar vermişdi.

Nadir şahın xarici ölkələrlə ticarətə müsbət münasibət bəsləməsi C. Eltonun ümidlərini qanadlandırdı. Lakin C. Elton birdən-birə Nadir şahla görüşə bilmədi. Şah hərbi səfərdə olduğu üçün onu Məşhəd şəhərində oturan oğlu Rza Qulu Mirzə əvəz edirdi. Odur ki, C. Elton vaxt itirmədən şahzadəyə müraciət etdi. C. Elton M. Qremlə birlikdə Böyük Britaniyanın tacirlərinə də İranda imtiyazla ticarət etmək üçün səlahiyyət verilməsi haqqında 10 bənddən ibarət xahişnamə tərtib edib, Məşhəddəki şahzadə Rza Qulu Mirzəyə göndərdi[400].

Həmin xahişnamənin birinci bəndi İngiltərənin Xəzər dənizində nə kimi siyasət yürütmək istədiyini açıqdan-açığa göstərir: «Britaniya şirkətinin üzvlərinin hər zaman və məhdudlaşdırılmadan öz mallarını şahın bu dənizdə olan hər hansı bir limanına aparmağa ixtiyarları olmalıdır» və s.[401]

Rza Qulu Mirzə ingilislərə müsbət cavab göndərdi. Doğrudur, C. Elton ilə Rza Qulu Mirzənin məktublarında bilavasitə Azərbaycandan danışılmırdı. Lakin C. Elton sonrakı məktublarında İranda ingilis tacirlərinin maraq göstərdikləri üç xam ipək mərkəzlərindən bəhs edərkən bunlardan ikisinin — paytaxtı Şamaxı olmaqla Şirvanı və Ərəşi göstərirdi[402].

Rza Qulu Mirzədən müsbət cavab aldıqdan sonra C. Elton M. Qremi Rəştdə qoyaraq, tezliklə özünu Peterburqa yetirdi. Burada onun səfərinin müvəffəqiyyətlə başa çatması xəbəri bütün ingilis tacirlərinin sevincinə səbəb oldu. C. Elton öz təkliflərini İngiltərənin Peterburqdakı səfiri E. Fincə yazılı surətdə bildirdi. C. Elton məktubunda yazırdı ki, ingilislər Xəzərdə möhkəmləndikdən sonra Hindistan və Çinlə də yaxından əlaqə saxlaya bilərlər[403].

C. Elton gəmiçilik sahəsində Xəzər dənizinin əhəmiyyətini[404] və ingilislərin bu ticarətdə güclü rəqiblərinin olmamasını göstərirdi[405]. O yazırdı ki, ingilislərdən başqa, heç bir xalq buranı külli miqdarda və ucuz qiymətə parçalarla təmin edə bilməz və eyni zamanda heç kəs buradan aldığı xam ipəyə bizim qədər qiymət verə bilməz [406]. Hərçənd erməni tacirlərinin nümayəndəsi patriarx bizə verilən güzəştlərin ləğv olunmasını xahiş etdi, lakin Rza Qulu Mirzə bu xahişi qəbul etmədi [407]. Britaniya tacirləri yəqin etdilər ki, nə qədər Rusiya imperiyasının

[400] C. Hanvey. Göstərilən əsəri, I cild, səh. 17.
[401] Yenə orada.
[402] C. Hanvey. Göstərilən əsəri, I cild, səh. 23; Донесения и другие бумаги антлийских послов, посланцев и резидентов при русском дворе с 1740 по 3 марта 1741 года; Донесение Ед. Финча лорду Гаррингтону 1740 г. (приложение «В»), СИРИО, т. 85, səh. 129; P. A. Ostrouxov. Göstərilən əsəri, səh. 114; C. Spilman. Göstərilən əsəri, səh. 58.
[403] C. Hanvey. Göstərilən əsəri, I cild, səh. 24.
[404] Yenə də orada, səh. 24; müqayisə et: C. Spilman. Göstərilən əsəri, səh. 39.
[405] C. Hanvey. Göstərilən əsəri, I cild, səh. 24.
[406] C. Hanvey. Göstərilən əsəri, I cild, səh. 24.
[407] Yenə orada.

ərazisindən keçməyə və Xəzər dənizində azad üzməyə icazə verilir, onları heç vaxt bu ticarətdən sıxışdırmaq mümkün olmayacaqdır. Xəzər dənizi ticarətinin üstünlüyündən və bu ticarətdən alınacaq mənfəətdən bəhs edən C. Elton yazır ki, Gilan və Şirvan vilayətlərinin dəniz kənarında olması bizim üçün mənfəətlidir[408]. Mənə elə gəlir ki, dünyanın heç bir yerində qazanc barəsində başqa belə bir ticarətin mövcud olmasını təsəvvür etmək mümkün deyildir. İpək emal edən sənaye böyük gəlir verəcəkdir və bu ticarətin nəticəsində qızıl, qaş-daş, pambıq, zərif yun və s. qiymətli mallar əldə etmək mümkün olacaqdır[409].

Daha sonra C. Elton səfir E. Fincə bildirmişdi ki, o, iranlılarla türklərin arasında gedən rəqabətdən istifadə edərək İran və Azərbaycan ipəyinin Türkiyənin ərazisindən deyil, Xəzər vasitəsi ilə Rusiyadan Londona aparmaq üçün Rza Qulu Mirzənin razılığını almışdır[410].

C. Elton məktubunun sonunda bildirmişdir ki, rusların Rəştdə konsulxanası olduğu kimi, ingilislər də Məşhəddə öz ticarət məntəqələrini təsis etməlidilər[411].

Britaniyanın səfiri E. Finc C. Eltonun yazılı təkliflərini öz məktubu ilə birlikdə Britaniyanın dövlət katibi hersoq Nyukestelə göndərmişdir. Hətta Finc bildirmişdir ki, İrandan xam ipək alan bir ingilis taciri onu Amsterdamda sataraq 80 faiz mənfəət götürmüşdür[412]. İngiltərədən Moskvaya gətirilib, arşını 1 manat 40 qəpiyə satılan mahudu erməni tacirlərindən biri 1 manat 90 qəpiyə alıb, İrana aparmış və ingilis tacirinə 35 faiz gəlir vermişdi[413]. Beləliklə, həm idxal, həm də ixracetmə ingilislərə əhəmiyyətli qazanc əldə etməyə ümidlər verirdi. Hersoq kralın əmri ilə həmin təklifləri iri ticarət nümayəndələrinin müzakirəsinə vermişdir. Bütün tacirlər qərara alıb krala bildirmişlər ki, bu ticarət Böyük Britaniya üçün Türkiyə ərazisindən aparılan ticarətə nisbətən iki qat mənfəətlidir. Yəni bu ticarətin xərci ingilislərə 50 faiz ucuz başa gələcəkdir. Xəzər ticarətinin ingilislər üçün başqa bir üstünlüyü də var idi[414]. İspaniya və ya Fransa ilə münasibətlərin hər zaman pozulması İngiltərənin toxuculuq sənayesini xammalsız qoya bilərdi. Məhz buna görə də ingilislər belə bir vəziyyətin qarşısını almağı yalnız Volqa —Xəzər ticarət yolunun istifadəsində görürdülər[415]. İngilis tacirləri bu yolun əhəmiyyəti haqqında İngiltərə kralına yazmışdılar ki, «əgər həmin yoldan keçməyə icazə verilməsə, biz belə bir (mənfəətli) ticarətdən tamamilə məhrum olacağıq»[416].

---

[408] Yenə orada, səh. 23.
[409] Yenə orada.
[410] Yenə orada, səh. 26.
[411] Yenə orada, müqayisə et: Донесение Ед. Финча лорду Гаррингтону, 1740 г. (приложение «В»), СИРИО, т. 85, səh. 129, 140.
[412] SİRİO, t. 85, səh. 69, 362.
[413] P. P. Ostrouxov. Göstərilən əsəri, səh. 116
[414] C. Hanvey. Göstərilən əsəri, I cild, səh. 32.
[415] Yenə orada. səh. 33.
[416] Yenə orada.

Xəzər dənizi ilə aparılan ticarətin bütün üstünlüyünü qeyd etməklə bərabər, C. Elton yazır ki, bu ticarəti aparmaq üçün bizə ilk növbədə heç olmasa bir və ya iki gəmi lazım gələcəkdir. O, bu gəmilərin Kazan şəhərində quraşdırılması təklifini vermiş və göstərmişdir ki, ingilis tacirləri üçün rus dövlətində belə gəmilərin quraşdırılması üçün icazə almaq onlar üçün çox çətin olacaqdır[417].

Peterburqla London arasında aparılan danışıqların nəticəsində ingilis tacirlərinə Xəzər dənizində sərbəst üzməyə və xam ipək məhsullarını Rusiya ərazisindən İngiltərəyə aparmağa icazə verildi.

İlk baxışda C. Eltonun təklifləri həm Rusiya və həm də İngiltərə üçün əlverişli idi. Odur ki, ingilislər Kazan şəhərində gəmi quraşdırmaq icazəsi almaq istədikdə rus hökuməti heç bir tərəddüd etmədən onlara razılıq verdi[418]. Lakin rus hökuməti hiss etmədi ki, o, belə bir hərəkət etməklə özünün Xəzər ticarətinə ağır zərbə endirəcək və bir neçə ildən sonra bu ticarətdə ingilislərin simasında güclü rəqiblərlə qarşı-qarşıya durmalı olacaqdır. Çox güman ki, rus çinovniklərinin bəzisi belə vəziyyəti bəlkə də hiss edirlərmiş. Çünki C. Hanveyin yazdığına görə, onlar ikinci belə bir gəminin quraşdırılması üçün çox çətinliklə razılıq almağa müvəffəq oldular. Göründüyü kimi, çar hökuməti burada öz siyasi kütlüyünü büruzə vermişdir.

Kazan şəhərində quraşdırılmaqda olan iki gəmi hazır olduqdan sonra C. Elton Həştərxandan İrana yola düşdü[419]. Onu da qeyd etmək lazımdır ki, ingilis tacirləri əsasən rus gəmilərində Xəzər boyu əyalətlərə mal aparırdılar.

Çox keçmədən ingilislər Xəzər ticarətində böyük fəallıq göstərməyə başladılar. Rus tacirlərinin əldən-ələ alıb Şamaxı, Təbriz, Bakı və yaxud da Rəşt bazarlarında üzərinə bir qədər də qoyub satdıqları ingilis və ya holland mahudunu indi artıq ingilis tacirləri özləri həmin bazarlarda satırdılar. İngilis mallarına İran bazarlarında daha çox ehtiyac hiss olunurdu. Təkcə bunu qeyd etmək kifayətdir ki, 1742-ci ildə rus tacirləri Xəzər boyu əyalətlərə 29.685 manatlıq mal gətirdikləri halda, ingilislər həmin ildə Xəzər sahillərinə 230.592 manatlıq mal çıxartmışdılar[420].

Maraqlı burasıdır ki, ingilis tacirlərinin Həştərxandan cənuba dörd ilin ərzində (1741, 1742, 1743, 1744-cü illər) ixrac etdikləri malın ümumi məbləği rus tacirlərinin 8 il ərzində (1737, 1738, 1739, 1740, 1741, 1742, 1743, 1744-cü illər) ixrac etdikləri malın ümumi məbləğdən 262.128 manat artıq idi[421]. Həmin rəqəmlər özü-özlüyündə 40-cı illərdə ingilislərin Xəzər ticarətində rus tacirlərini sıxışdırmalarını göstərən təkzibedilməz dəlildir. İngilis tacirlərinin Rusiya

[417] Yenə orada.

[418] Yenə orada, səh. 30; P. Sayks. Göstərilən əsəri, səh. 364; V. V. Lebedyev. Göstərilən əsəri, səh. 126.

[419] А. Штылко. Волжско-Каспийское судоходство в старину, səh. 47.

[420] Ведомость об отпускных из России в Персию и о привозимых из России в Персию товаров. Письма и указы государей: ... Левашову, səh. 91; P. Butkov. Göstərilən əsəri, I cild, səh. 222.

[421] Yenə orada.

ərazisindən keçib cənuba mal aparmaları tezliklə rus və erməni tacirlərinin ciddi etirazına səbəb oldu. Lakin ilk vaxtlar hökumət buna əhəmiyyət vermədisə də bir qədərdən sonra rus tacir və matroslarının Həştərxana gətirdikləri xəbərlər rus hökumətini narahat etməyə başladı.

Alınan məlumatlara görə, C. Elton İranda Nadir şahla yaxınlaşmış, Xəzərin Qafqaz və s. sahillərində İran qoşunlarını lazım gəldikdə azuqə və hərbi ləvazimatla təmin etməyə və hətta İran üçün ticarət və hərbi gəmilər tikməyə söz vermişdir[422].

Belə bir məlumatın, əlbəttə, əsası var idi. Dövrün şahidi olan C. Hanveyin özü bunu etiraf edir. O yazır ki, 1741-ci ildə Nadir şah Şirvanda olarkən onun qoşunları demək olar ki, tamamilə azuqəsiz qalmışdı. Şirvan iranlılar tərəfindən o dərəcədə talan edilmişdir ki, ordunu yemək ilə təmin etmək iqtidarında deyildi. Karvan yollarından istifadə etmək qeyri-mümkün idi. Buna görə də Nadir Dərbəndə tərəf hərəkət etdi. Burada o, gəmilərə nə qədər ehtiyacı olduğunu hiss etdi. Nadirin gəmiləri olsaydı öz ordusunu dəniz vasitəsi ilə gətirilən azuqə ilə təmin edər və yerli xalqın müqavimətini qıra bilərdi. Məhz Nadir şahın belə bir arzusu bilavasitə C. Eltonun əsil məqsədinə uyğun gəldi[423].

C. Elton Xəzərdə tutduğu bütün işlərin əsil mahiyyətini gizlədib bəzi kütbaş məmurları aldadır, öz pozucu fəaliyyətini «ticarətin inkişafı» pərdəsi altında genişləndirirdi.

Rus dövləti ingilislərə verdiyi səlahiyyət üçün peşiman oldu. İngilislərin Xəzər dənizində fəaliyyət göstərmələri Rusiyanın dəniz ticarətinə ağır zərbə endirdi. Bu münasibətlə Peterburqda uzun-uzadı götür-qoydan sonra Həştərxan qubernatoru V. İ. Tatişşevə 1742-ci il noyabrın 23-də göstəriş verildi ki, vaxt itirmədən Xəzər dənizi üçün yeni gəmilər tikdirsin[424].

Tezliklə on gəmi hazırlanıb suya salındı. Bundan əlavə, Kazan şəhərində daha üç gəminin quraşdırılması qərara alındı[425].

Lakin bu gəmilər say etibarilə I Pyotrun dövründə Xəzərdə üzən rus gəmilərinin onda bir hissəsini ancaq təşkil edirdi. Bu, bir tərəfdən Rusiyanın I Pyotrun ölümündən sonra Xəzər ticarətinə az əhəmiyyət verdiyini, digər tərəfdən hökumətin yenidən Xəzərdə fəaliyyətə başlamaq təşəbbüsündə olduğunu göstərir.

Lakin bu barədə ingilislərlə iranlılar heç də ruslardan geridə qalmırdılar. Əksinə, başda C. Elton olmaqla İranda ingilis mütəxəssislərinin rəhbərliyi altında

---

[422] Н. Попов. Göstərilən əsəri, səh. 384-385; А. Штылко.Волжско-Каспийское судоходство в старину, səh. 47; А. П. Соколов. Астрахань о ее прошлом и настоящем. Государственный архив Астраханской области, инв. 29832, səh. 72.

[423] C. Hanvey. Göstərilən əsəri, II cild, səh. 209.

[424] N. Popov. Göstərilən əsəri, səh. 378.

[425] Yenə orada.

sürətlə gəmilər tikilirdi[426]. C. Eltonun xidmətində iranlılardan başqa, çar mütləqiyyətinin zülmündən qaçıb özünə xoş güzəran axtaran rus ustaları, dülgərləri və matrosları da var idi. Əldə edilən məlumatlara görə, hətta bir neçə rus təbəəsi müsəlmanlığı qəbul edib, İranda yaşamışdır[427]. Lakin tezliklə ruslar, hətta iranlıların çoxu ağır istismara dözməyib C. Eltonu tərk etdilər. C. Elton isə sözündən çıxanları qulaqlarından mıxlatdırır, döydürür və işgəncə verdirirmiş[428]. C. Eltonun gəmilərində işləyən rus matros və muzdurları Rusiyanın İrandakı konsulu Arapova müraciət edərək şikayətlənmişlər ki, dənizdə üzərkən C. Elton onlara içməli suyu belə doyunca vermirdi, onları yerli-yersiz döydürtdürürdü və s.[429].

İngilislərin aktiv fəaliyyəti Rusiya hökümətini daha çox təşvişə saldı və Xəzər ticarətinin müqəddəratı haqqında ciddi tədbirlər görməyə məcbur etdi. Çünki, sonralar məlum olmuşdur ki, C. Elton İrana ticarət mallarından əlavə, tikinti və digər strateji əhəmiyyəti olan mallar da daşıyırmış. 1742-1743-cü illər arasında C. Elton Rəştə hər biri 12 pud ağarlığında olan 15 sal qalay, hər biri 20 pud ağırlığında içində naməlum mal olan 40 çəllək çıxarmış və şaha göndərmişdir[430].

Belə fəaliyyəti ilə Nadir şahın etimadını qazanan və ona arxalanan C. Elton Rusiyanın qəzəbindən ehtiyat etmirdi. Rus konsulu Arapov Peterburqa bildirmişdir ki, C. Elton İranda ticarət edən rus tacirləri ilə çox kobud rəftar edir və onları İrandan sıxışdırıb çıxarmaq üçün rus tacirləri ilə iranlıların arasını vurur[431]. Daha sonra Arapov bildirmişdir ki, C. Elton üç ilin ərzində Nadir şah üçün hərəsi 34 arşın uzunluğunda olan gəmi tikəcək və İran gəmiləri üçün lövbər hazırlayacaqdır. Bu münasibətlə şah ona ildə 2.000 manat pul verməyi vəd etmişdir[432]. Peterburqa həmçinin xəbər gəlib çatmışdır ki, C. Elton İranın hərbi xadimlərini Xəzərin sahillərini öyrənmək üçün tez-tez öz gəmilərində gəzdirir.

Rusların Dərbənddəki rezidenti Bratişşevin yaranan vəziyyət haqqında Rusiyaya göndərdiyi məktubları Peterburqda daha artıq narahatlığa səbəb oldu. O yazırdı ki, İranda dörd rus ticarət gəmisi müsadirə edilmişdir[433]. Konsul Arapovun Bratişşevə yazdığı məktubda eyni zamanda deyilirdi ki, C. Elton öz xüsusi gəmisini İrana satmaq fikrindədir[434]. Əlbəttə, «satmaq» məsələsinin özü C. Eltonun fırıldaqlarından biri idi. Bu, bir daha göstərir ki, C. Elton əsil düşmən fəaliyyətini

[426] А. Штылко.Волжско-Каспийское судоходство в старину, səh. 47; M. S. İvanov. Göstərilən əsəri, səh. 100-101.
[427] А. Штылко.Волжско-Каспийское судоходство в старину, səh. 47.
[428] П. Юдин. Россия и Персия в конце 1712 года (из писем переводчика Братищева к канцлеру князю Черкасскому) «Российский архив» № 3, 1899, səh. 384; N. Popov. Göstərilən əsəri, səh. 285.
[429] N. Popov. Göstərilən əsəri, səh. 385.
[430] Yenə orada.
[431] N. Yudin. Göstərilən əsəri, səh. 384.
[432] N. Popov. Göstərilən əsəri, səh. 386.
[433] N. Yudin. Göstərilən əsəri, səh. 384.
[434] Yenə orada.

pərdələyir və İran üçün hazırladığı gəmiləri öz adından guya İrana satırmış kimi qələmə verir.

Şübhəsiz, Peterburqda belə xəbərlər nəticəsiz qala bilməzdi. Tezliklə rus hökuməti rəsmi surətdə İngiltərənin Peterburqdakı səfarətxanasına müraciət edərək C. Eltonun geri çağırılmasını və həbs edilməsini tələb etdi.

Əks təqdirdə rus hökuməti ingilislərin fəaliyyətini məhdudlaşdıracağını bildirdi. Peterburqdan V. N. Tatişşevə tapşırılmışdı ki, C. Elton iş dalınca Həştərxana gəlmiş olsa, onu o saat həbs etsin[435]. Əgər C. Eltonun özü Həştərxana gəlməsə, onu müxtəlif yollarla ora çağırsın və ələ keçirsin[436].

İranda olan rus konsulu Arapov da öz növbəsində bu barədə Dərbənddəki Bratişşevə tapşırıq vermişdi ki, C. Elton Dərbəndə gəldikdə onu müxtəlif üsullarla Həştərxana göndərməyə çalışsın[437]. Peterburqda, hətta C. Eltonu tutub dövlətə təhvil verən adam üçün mükafat da ayrılmışdı[438].

Lakin rus hökumətinin məqsədindən xəbərdar olan C. Elton artıq bir daha Həştərxana qayıtmadı. V. N. Tatişşevə isə yalnız C. Eltonun hərəkətlərini izləmək və ya müşahidə etmək qaldı. Bu sahədə heç bir müvəffəqiyyət əldə etməyən rus hökuməti ingilislərin şirkətini sıxışdırmağa başladı. Artıq Rusiyanın ərazisindən İrana gedən gəmi ustalarına xaricə getmək üçün pasport verilmirdi. Nəhayət, məsələ o yerə qalxdı ki, ingilislər öz parlamentlərinə müraciət etməli oldular. Tezliklə Londondan Peterburqa Vıq (Wyah) adlı bir nümayəndə göndərildi. Vıq Peterburqdan Rəştə öz agentlərindən birini göndərməli idi. Agent guya C. Eltonun fəaliyyətini təftiş etməli və onun mədaxil və məxaric dəftərini yoxlamalı idi. Vıq bunun üçün Peterburq kabinəsindən icazə aldıqdan sonra 1743-cü ildə tarixdə çox zaman səyyah kimi qələmə verilən ingilis ticarət kompaniyasının agenti C. Hanveyi Həştərxana göndərdi[439].

V. N. Tatişşev C. Hanveylə şəxsi söhbət zamanı bildirmişdir ki, əgər C. Elton həqiqətən Nadir şahın xidmətinə keçmişsə, onun bu hərəkəti Xəzər ticarətində ingilislərə çox baha oturacaq və Peterburq sarayının qəzəbinə səbəb olacaqdır. V. N. Tatişşev eyni zamanda C. Hanveyə məsləhət görmüşdü ki, C. Eltonu İrana xidmət etmək fikrindən yayındırsın[440]. V. N. Tatişşev C. Hanveyə İranın donanmaya sahib olmasının rusların Xəzər ticarəti üçün nə kimi qorxu törədəcəyini bildirdikdə, C. Hanvey cavabında demişdir: «Bu vaxtı ilə isveçlərin Baltik dənizində Rusiyanın donanmaya malik olmasına razılıq verməmələrinə,

---

[435] N. Popo v. Göstərilən əsəri, səh. 385.
[436] A. Штылко.Волжско-Каспийское судоходство в старину, səh. 47.
[437] P. Yudin. Göstərilən əsəri, səh. 47; N. Popov. Göstərilən əsəri, səh. 385.
[438] A. Штылко.Волжско-Каспийское судоходство в старину, səh. 47.
[439] N. Popov. Göstərilən əsəri, səh. 386; P. Sayks. Göstərilən əsəri, səh. 364-365; tarix elmləri namizədi S. Aşurbəyli yazır ki, ingilis taciri C. Hanvey ticarət məqsədi ilə Rusiyadan keçib İran və Azərbaycana getmişdir. Bax: S. Aşurbəyli. Göstərilən əsəri, səh. 69.
[440] N. Popov Göstərilən əsəri, səh. 387.

buna mane olmalarına bənzəyir» və əlavə etmişdir ki, çox güman ki, Nadir şahla C. Eltonun Xəzər dənizindəki fəaliyyəti bir neçə gəminin tikilməsi ilə məhdudlaşacaqdır, halbuki, ruslar hər bir zaman onlarca belə gəmi quraşdıra bilərlər[441]. Müxtəlif yollarla öz nümayəldələrinin əsil təxribatçı fəaliyyətini ört-basdır etməyə çalışan C. Hanvey, nəhayət, bildirmişdir ki, C. Elton haqqında söylənilənlərin əksəriyyəti həddən artıq şişirdilmişdir və çox güman ki, bütün bunların hamısı rus konsulu Arapovun C. Eltona qarşı olan şəxsi-qərəzliyindən irəli gəlmişdir[442].

İrana yola düşən C. Hanveydən V. İ. Tatişşev eyni zamanda tələb etmişdir ki, o, yazılı surətdə söz versin ki, İranda olan ingilislərin heç biri şahın xidmətinə keçməyəcəkdir[443].

S. Hanvey yola düşdükdən sonra da İrandan C. Eltonun haqqında gələn şikayətlərin ardı kəsilmirdi. Məktublarının birində rus konsulu V. İ. Tatişşevə bildirirdi ki, matroslarından aldığı xəbərə görə, C. Elton bu yaxınlarda Xəzər dənizinin ətraflarını öyrənmək üçün çıxdığı səfərdən qayıtmışdır[444]. Buldan xəbər tutan C. Hanvey V. İ. Tatişşevə bildirmişdir ki, C. Elton bu səfərə yalnız ticarət xatirinə çıxmışdır və bunun İran şahına heç bir dəlaləti yoxdur[445]. Həmin məlumatı eşidən V. İ. Tatişşev tezliklə bu barədə Peterburqa xəbər vermişdir. V. İ. Tatişşevin Peterburqdan aldığı cavab məktubunda deyilirdi ki, C. Hanvey də C. Elton kimi eyni «ticarət şirkətinə» xidmət edir. Odur ki, onların hərəkətlərində heç bir fərq olmayacaq, C. Hanvey də C. Elton kimi fırıldaqçıdır[446].

C. Hanveyin açıqdan-açığa C. Eltonun tutduğu işləri ört-basdır etməsi bir daha göstərir ki, C. Elton İran dövlətinə özbaşına deyil, bilavasitə Londonun göstərişi ilə xidmət edirdi. Şübhəsiz, İngiltərə təkcə Xəzər ticarətini ələ keçirmək məqsədini güdmürdü. İngilislər eyni zamanda Rusiyaya siyasi cəhətdən də zərbə vurmaq niyyətində idilər. Həmin məsələləri mərhum tarixçi A. Əbdürrəhmanov tədqiq etdiyi üçün onun üzərində dayanmaq lazım gəlmir.

Rus hökuməti C. Eltonun tutduğu işlərdən əbəs yerə narahat olmurdu. İrandan alınan xəbərlərdən məlum olurdu ki, 1742, 1743 və 1744-cü illərdə C. Elton adını çəkdiyimiz başqa bir ingilis mütəxəssisi Vudruf ilə birlikdə Xəzər dənizinin bütün sahillərini gəzmiş, öyrənmiş və həmin dənizin xəritəsini tərtib etmişdir[447]. Başqa bir məlumatda deyilir ki, C. Elton Həştərxandan gizli surətdə

---

[441] N. Popov. Göstərilən əsəri, səh. 388.
[442] Yenə orada.
[443] Yenə orada, səh. 389.
[444] Yenə orada.
[445] Yenə orada.
[446] Yenə orada.
[447] P. Butkov. Göstərilən əsəri, I cild, səh. 221.

İrana çoxlu miqdarda gəmiçilik alətləri, rus fabriklərində toxunulmuş yelkən avadanlığı və s. aparmışdır[448].

Məhz buna görə də Peterburqdan V. İ. Tatişşevə tapşırılmışdı ki, o, C. Elton və digər ingilislərin hərəkətinə dəqiq nəzarət etsin və Rusiyanın mənafeyini qorumaq məqsədi ilə hər cür bəhanə gətirib, Həştərxandan ingilis ustalarının İrana getməsinə mane olsun və həmçinin lövbər, kanat, yelkən, qatran, kanifas, bez, habelə dənizçiliyə lazım olan bu və ya digər materialların heç birini Həştərxandan İrana buraxmasın[449].

Əldə edilən məlumatlardan belə qənaətə gəlmək olar ki, ingilislərin Xəzər dənizində aşkar fırıldaq işlətmələrilə baxmayaraq, Rusiya İngiltərə ilə münasibətlərini açıqdan-açığa pozmaq fikrində deyildi. Bu da təsadüfi deyildir. Qeyd edildiyi kimi, bu, hər şeydən əvvəl, Rusiyanın Qərbi Avropa ölkələri ilə ticarətində ingilislərin əsas rol oynamasından irəli gəlirdi. Digər tərəfdən Rusiya ingilislərin Şirvan, Ərəş və Gilandan aldıqları xam ipəyi Volqa — Xəzər yolu ilə deyil, Hələb — İzmir yolu ilə Qara dəniz və yaxud da İran körfəzi ilə aparmalarından ehtiyat edirdi. Bu isə Rusiyanın xammala ehtiyacı olan sənayesinə zərər vura bilərdi.

Rusiya ingilislərlə mübarizə aparmağı ilk vaxtlarda Həştərxan qubernatoru V. İ. Tatişşevə və Rusiyalın İrandakı konsulu Arapova həvalə etmişdi. V. İ. Tatişşev ingilislərin İrana getmələrinə maneçilik törətdiyi kimi, Arapov da İranda C. Eltonun fəaliyyətinə az maneçilik törətmirdi. Axırda məsələ o yerə çatdı ki, C. Eltonun özü Rusiyaya məktub yazaraq Arapovdan şikayətlənməyə başladı. C. Elton yazırdı ki, Arapov ingilislərln gəmilərində işləyən rus matroslarını dilə tutaraq yoldan çıxarır, onun əleyhinə qalxmağa və yaxud da onu tamamilə tərk etməyə çağırır[450]. C. Eltonun yazdığına görə, Arapov ingilis gəmilərində işləyən rus matroslarını qanunsuz olaraq tutub saxlayır və onlar üçün C. Eltondan müəyyən məbləğ istəyir və hətta ekipajların böyük hissəsini ruslar təşkil etdiyi üçün C. Eltonun gəmilərinin ona tabe olmasını tələb edir. C. Eltonun yazdığına görə, Arapov İrandakı ingilisləri qıracağı ilə onu hədələmişdir və s.[451]

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, ingilislərin Xəzər dənizində möhkəmlənmələri eyni zamanda yerli tacirlərin mənafeyinə də toxunurdu. Onların xaricdən gətirdikləri və baha qiymətə satdıqları malları indi ingilislər ucuz qiymətə satırdılar. Odur ki, Xəzər əyalətlərinin ticarət mərkəzlərində ingilislərə qarşı müsbət rəğbət oyanmamışdı. Rus dövləti yerli tacirlərin ingilislərə olan pis münasibətindən hər vasitə ilə istifadə edirdi. Bunu yenə də C. Eltonun məktubundan müəyyən etmək olar. O yazırdı ki, Dərbəndə yan alan ingilis gəmisindən mal boşaldan matroslar yerli tacirlər tərəfindən bərk döyülmuşlər. C.

[448] N. Popov. Göstərilən əsəri, səh. 389.
[449] Yenə orada.
[450] Yenə orada, səh. 390.
[451] Yenə orada, səh. 390, 391, 392.

Eltonun yazdığına görə, onları Bratişşev öyrətmişdi[452]. C. Elton eyni zamanda bildirmişdi ki, Bratişşev Dərbənd limanında dayanan ingilis gəmilərinə gələrək öz adamlarına ingilis bayrağını gəmidən çıxarmağı və qırıb dənizə atmağı əmr etmişdir[453].

C. Elton məktubunun sonunda bildirmişdir ki, Peterburqda yaşayan ingilis tacirləri İsveç kralına tabe olmadıqları kimi, o da Britaniya təbəəsi kimi özünün və ona tabe olanların hərəkətinə görə yalnız dövlətlərində yaşadığı şah və həmçinin öz kralı qarşısında məsuliyyət daşımalıdır[454].

C. Elton rusların ingilislərlə açıqdan-açığa mübarizəyə başlamalarından çox ehtiyat edirdi. Odur ki, ingilislərin Xəzərdəki fəaliyyətini Rusiyanın nəfinə olan siyasi məsələlərlə bağlamağa çalışırdı. O, məktublarından birində V. İ. Tatişşevə yazırdı ki, Türkiyənin Şərqdəki təsirinə zərbə endirmək üçün Rusiyaya mütləq başqa Avropa ölkələrinin köməyi lazımdır. Məhz bunu nəzərə alaraq mərhum imperatriçə Anna İvanovnanın nazirləri şüurlu surətdə ingilislərə Xəzər dənizində hüquq vermişdilər. Ümidvaram ki, hazırki imperatriçə də mənim İngiltərə — İran ticarətinə göstərdiyim xidmətə görə yenə də bizə belə bir icazəni verəcəkdir, çünki Xəzər ticarətinin güclənməsinin Rusiya üçün də xeyiri vardır[455].

Beləliklə, C. Elton İranda Nadir şah üçün gördüyü işləri, həmçinin İranı Rusiyanın əleyhinə qaldırmaq üçün göstərdiyi cəhdləri ticarət və yaxud Türkiyəni Şərqdən sıxışdırmaq bəhanəsi altında pərdələyirdi. Bunu, C. Hanveyin V. İ. Tatişşevə yazdığı məktub da bir daha təsdiq edir. C. Hanvey V. İ. Tatişşevi inandırmağa çalışırdı ki; «o, (Elton) ticarətin xatiri üçün şahla yaxınlıq aparır»[456]. Sonra C. Hanvey öz məktubunda bildirirdi ki, əgər Rusiya ingilislərin Xəzər ticarətinə maneçilik törətsə, onlar bu ticarəti «başqa yollarla» aparmağa məcbur olacaqlar. İpək ticarətindən əldə etdiyi gəliri itirməsindən və ümumiyyətlə, xam ipəkdən məhrum olmasından ehtiyat edən Rusiya C. Eltonun əl-ayağını dolayı vasitələrlə yığışdırmağa çalışırdı. Peterburqdan verilən əmrə görə rusların Londondakı konsulu Britaniyanın Xarici İşlər Nazirliyinə müraciət edib, C. Eltonun yaramaz hərəkətlərindən uzun-uzadı danışdıqdan sonra Rusiyanın adından C. Eltonun İrandan İngiltərəyə geri çağrılmasını tələb etdi[457]. Lakin konsula İngiltərə nazirliyində müəyyən cavab verilmədi. Buna görə də rus hökuməti İ. V. Tatişşevə ciddi surətdə tapşırdı ki, Rusiyanın ərazisindən Həştərxan vasitəsi ilə C. Eltonun adına göndərilən malların heç birini İrana buraxmasın və ümumiyyətlə,

---

[452] N. Popov. Göstərilən əsəri, səh. 392.
[453] Yenə orada.
[454] Yenə orada, səh. 393.
[455] Yenə orada, səh. 396.
[456] Yenə orada, səh. 397.
[457] N. Popov. Göstərilən əsəri, səh. 396; А. П. Соколов Астрахань о ее прошлом и настоящем, ЖМВД, ч. 12 СПб 1845. Səh. 72.

ingilislərin Xəzər dənizindəki gəmiləri ilə heç bir işgüzar əlaqə yaratmasın[458]. Lakin çox keçmədi ki, Rusiya bununla kifayətlənmədi. Yeni qərara görə ingilis gəmilərində yalnız komandirlər ingilislərdən ibarət olmalı idi və bu gəmilərdə yalnız elə ruslar matros sifəti ilə işləyə bilərdilər ki, onların Rusiyada arvad-uşaqları qalmış olsun və bununla da onlar nə C. Eltona, nə də şaha satıla bilməsinlər[459].

Rusiya dövləti bununla da kifayətlənmədi. Peterburqun göstərişi ilə Bratişşev və Arapov ingilislərin ticarətini məhdudlaşdırmaq məqsədi ilə öz adlarından çıxış edərək belə təklif irəli sürdülər ki, ingilislərin Gilana yazda bir, yayda bir, payızda iki, qışda isə Bakı limanına yalnız bir ticarət gəmisi yanaşa bilər. Daha sonra V. İ. Tatişşev Dərbənd, Bakı şəhərlərinə və Mazandarana Rusiyanın ticarət agentlərinin[460] göndərilməsini təklif etdi. Onun fikrincə, bu agentlər ingilislərin hər bir fəaliyyəti haqqında yaxından məlumat toplayıb, Peterburqa çatdırmalı idilər.

Rusiyanın ingilis tacirlərinə göstərdiyi təzyiq nəticəsində, nəhayət, İngiltərənin Xarici İşlər naziri lord Travley rus hökumətinə bildirdi ki, kralın razılığı ilə C. Elton İrandan geri çağrılacaq, hətta onun adına Rusiyanın ərazisindən keçmək üçün pasport da hazırlamışdır[461]. Lakin İrandan nə C. Elton və nə də onun həmrəyi Braun qayıtmadı. Onların əvəzinə, 1743-cü ilin axırında Həştərxana C. Hanvey qayıtdı. İrandan gələn C. Hanveyi V. İ. Tatişşev çox soyuq və pis qarşıladı.

Həmin hadisədən sonra C. Elton artıq açıqdan-açığa İranın himayəsinə keçib Nadir şaha xidmət etməyə başladı[462]. Bratişşev bu barədə V. İ. Tatişşevə yazırdı ki, eşitdiyimə görə Nadir şah C. Eltona hörmətli adamlara bəxş edilən xələtlərdən bağışlamış, onu İranın Xəzər donanmasının baş komandanı təyin etmiş və ona iranlılara dənizçiliyi öyrətməyi tapşırmışdır[463]. Çox güman ki, C. Elton İran üçün gəmiləri Gilandan başqa, Bakı limanında da hazırlayırmış. Çünki Bratişşav V. İ. Tatişşevə bildirirdi ki, əgər Həştərxandan onun üçün iki silahlandırılmış qekbot göndərilərsə, o, Abşerona gedib, gəmi quraşdıran C. Eltonu tuta bilər[464]. Xəzər dənizində İran sahillərinin gəmi quruculuğu üçün yararsız olduğu haqqında C. Elton özü söhbət əsnasında demişdir ki, ora nəinki böyük gəmilər, hətta kiçik şxerbotlar qurmaq üçün də yararlı deyildir[465].

Amsterdamda çıxan qəzetlərdən birinin 1743-cü il sentyabr nömrəsində dərc edilən məlumatdan aydın olmuşdur ki, C. Elton şahdan ildə 2.000 manat

---

[458] N. Popov. Göstərilən əsəri, səh. 397.
[459] Yenə orada.
[460] Yenə orada, səh. 398.
[461] Yenə orada, səh. 399.
[462] N. Butkov. Göstərilən əsəri, I cild, səh. 222; N. Popov. Göstərilən əsəri, səh. 389, 400.
[463] N. Yudin. Göstərilən əsəri, səh. 385; N. Popov. Göstərilən əsəri, səh. 389.
[464] N. Popov. Göstərilən əsəri, səh. 389.
[465] Yenə orada, səh. 394.

məvacib almış, bundan əlavə, şah ona ilin müxtəlif vaxtlarında 1.500 manatlıq mükafat vermişdir. Bunun müqabilində C. Elton Nadir şah üçün bir hərbi gəmi tikmişdir[466].

Lakin ikinci dəfə Britaniyadan İrana C. Eltonun işlərini təftiş etmək adı ilə yola düşən C. Hanvey V. İ. Tatişşevə göndərdiyi məktubunda yenə də C. Eltonun İrandakı fəaliyyətini ört-basdır etməyə çalışaraq yazırdı ki, C. Eltonun üzərinə qoyulan bütün bu təqsirlərin hamısı erməni tacirlərinin uydurulmuş böhtanlarıdır[467].

Beləliklə, Rusiyanın dolayı yollarla ingilisləri Xəzər dənizindən çıxarmaq üçün gördüyü tədbirlər gözlənilən nəticəni vermədi. İngilis gəmiləri Xəzərdə üzür. İran dövlətinin hərbi gəmiləri də tikilirdi. Bu isə Rusiyanı həddən artıq narahat edirdi. Rusiya nəyin bahasına olursa-olsun İranın hərbi donanmasını məhv etmək üçün tədbirlər görürdü. 1744-cü ilin yayında Xəzər dənizinin cənub-qərb sahillərində baş vermiş şiddətli tufan nəticəsində Ənzəli limanında bir neçə rus, ingilis və İran gəmiləri fəlakətə uğrayaraq qərq olmuşdu. Lakin ingilis gəmilərindən birisini dalğalar sahilə atmışdı. Arapovu əvəz edən rus konsulu Bakunin həmin gəmini zəbt edib, içindəki rus matroslarını öz tərəfinə çəkmişdi[468].

Gəminin komandirləri Bleer və Braun buna qəti etiraz edərək öz tacirləri Tomson vasitəsi ilə Həştərxanda V. İ. Tatişşevə və İngiltərənin Peterburqdakı konsulu Bulf vasitəsi ilə Rusiya Xarici İşlər Kollegiyasına şikayətlə müraciət etdilər. Rusiya isə bunun cavabında Londona müraciət edərək Bleerin, Braunun və Eltonun İrandan İngiltərəyə geri çağırılmasını tələb etdi. Eyni zamanda Peterburqdan V. İ. Tatişşevə gizli surətdə bildirildi ki, ingilis losmanlarını satın alıb, onların gəmilərini hiylə ilə Həştərxana cəlb etsin. Burada isə onları müsadirə edib, ya rus tacirlərimə satsın və yaxud da sadəcə olaraq gizli surətdə yandırsın. Lakin Hanveyin verdiyi məlumata görə, V. İ. Tatişşev buna etiraz edərək Peterburq kabinəsinə bildirmişdi ki, ingilis tacirləri ilə belə sərt rəftar edilərsə, bu, Rusiyanın şöhrətini azaldar və ingilislərin ruslara qarşı ittiham yürütmələrinə səbəb ola bilər[469].

Beləliklə, Rusiyanın ingilis tacirlərinin köməyi ilə rus — İran ticarətini canlandırmaq ümidi gözlənilən nəticəni vermədi. İngilislərin Volqa — Xəzər ticarəti yolundan istifadə etmələrinin müəyyən dərəcədə xeyri də oldu. Xəzər dənizində İran üçün Avropa texnikası ilə bir neçə gəmi tikilib silahlandırıldı. Müasirlərin yazdığına görə, həmin gəmilər Xəzərdə o qədər azğınlaşmışdı ki, hətta

---

466 Yenə orada.

467 Yenə orada. Lakin ingilislərin əli Xəzər ticarətindən çıxandan sonra C. Hanveyin özü etiraf edir ki, C. Eltonun fırıldaqları «ingilislərin Xəzərdəki ticarətinə sağalmaz yara vurmuşdur». Bax: C. Hanvey. Göstərilən əsəri, II cild, səh. 409.

468 İ. Lerx. Göstərilən əsəri (ikinci səyahət), səh. 98.

469 C. Hanvey. Göstərilən əsəri, II cild, səh. 410.

rus gəmilərindən onları salamlamağı tələb edir və ruslara hər cür maneə törədirdi[470].

Rus höküməti heç bir dolayı yol ilə ingilislərin əl-ayağını yığa bilməyəcəyini görüb, 1746-cı ildə onları Rusiya ərazisindən keçib İrana və Şərq ölkələrinə getmək hüququndan məhrum etdi[471].

Rus hökumətinin tədbiri ingilis ticarətinə dəyən yeganə zərbə deyildi. 1747-ci ildə Nadir şahın ölümü, ondan sonrakı feodal hərc-mərcliyi də ingilis ticarət şirkətinə ağır zərbə endirdi.

Nadir şahın ölümündən sonra İranda hakimiyyət üstündə qanlı mübarizələr başladı. İran taxtı əldən-ələ keçdikcə onsuz da siyasi və iqtisadi cəhətdən sarsıdılmış İran dövləti zəiflədi və sarsıldı. Bütün bu hadisələr İranın xarici ölkələrlə olan ticarətinə də ağır zərbə vurdu. Bir çox ingilis, rus və b. ölkələrin tacirləri ölkədə başlayan üsyan və feodal ara vuruşmalarının qurbanı oldular.

İran və Azərbaycanda baş verən ən böyük üsyanlardan biri özünü II Şah Təhmasibin oğlu kimi qələmə verən dəmirçi Sam Mirzənin adı ilə bağlıdır[472].

Qısa müqavimətdən sonra Sam Mirzənin adamları Rəştə daxil oldular. İ. Lerx yazır ki, üsyançılar Rəşt şəhərində konsulxanada gizlənən rus tacirlərinə toxunmadılarsa da ingilis tacirlərinin mallarını qarət etdilər. İngilislərin Rəştdə iki mal anbarını qarət edən üsyançılar əllərinə keçəni ucuz qiymətə satırdılar. Beləliklə, ingilislər Rəştdə 50.000 manatlıq mal itirdilər[473]. İ. Lerxin yazdığına görə, Rəşt şəhərində azdan-çoxdan qarət olunmalı anbarlar ingilislərə məxsus idi[474]. Şübhəsiz, İ. Lerx burada mübaliğəyə yol vermişdir[475].

İ. Lerxin yazdığına görə, üsyançılar ingilisləri rusların rezidentinin gözü qarşısında qarət etdikləri zaman rus tacirləri bundan mütəəssir olmaq əvəzinə sevinirdilər. Çünki ingilislərin Xəzər ticarətindəki əməliyyatı ruslara nisbətən xeyli artıq idi. İngilis tacirlərinin qarət olunmaları bir yana dursun, üsyançılar onlardan Nadir şahın dövründə İran hökumətinin almadığı gömrük pullarını da tələb edirdilər. İngilislər buna qəti surətdə etiraz etdikdə, şəhərin hakimi Ağa Həsən bildirmişdir ki, rəsmi müqaviləyə əsasən yalnız rus tacirlərinə gömrüksüz ticarət etmək icazəsi verilmişdir[476].

---

[470] A. Ştılko. Göstərilən əəsri, səh. 47.

[471] P. A. Ostrouxov. Göstərilən əsəri, səh. 140; P. S. Sayks. Göstərilən əsəri, səh. 365; A. V. Lebedev. Göstərilən əsəri, səh. 127; А. П. Соколов. Астрахань о ее прошлом и настоящем, ЖМВД, ч. 12, СПб, 1845, səh. 72. S. Bronevski həmin hüququn 1747-ci ildə ləğv edilməsini iddia edir.

[472] İ. Lerx. Göstərilən əsəri, səh. 101. Sam Mirzənin şəxsiyyəti hələ müəyyən edilməmişdir.

[473] İ. Lerx. Göstərilən əsəri, səh. 101-102.

[474] Yenə orada.

[475] İ. Lerx. Göstərilən əsəri, səh. 106. Lakin arxiv sənədlərində 1745-1748-ci illərdə rus tacirlərinə də maddi cəhətdən xeyli zərər toxunması haqqında məlumat verir. Kopıtopskinin verdiyi xəbərə görə, rus tacirlərinə həmin illərdə 158.079 manatlıq zərər dəymişdir. A. Юхт. Торговля России с Закавказьем и Персией во второй четверти XVIII в., журн. «История СССР», № 16, 1961, səh. 133-134.

[476] İ. Lerx. Göstərilən əsəri, səh. 103.

Həm Rusiya tərəfindən 1734-cü ildə ingilislərə verilən imtiyazların ləğv edilməsi və həm də yerli bazarlarda ingilis ticarət şirkətinə bir-birinin ardınca endirilən zərbə ingilislərin Volqa — Xəzər ticarət yolundan gələcəkdə istifadə etmək ümidlərini qırdı. Bu hadisədən sonra ingilislərin Rəştdəki şirkəti tamamilə dağıldı. Şirkətin başlıca üzvlərindən Mirons və Karl Tomson 1748-ci ildə İngiltərəyə qayıtmalı oldular. Daha sonra öz borclarını toplamaq məqsədi ilə İranda qalan digər ingilislər də Rusiyadan keçib, İngiltərəyə geri döndülər[477]. İngilislərdən təkcə C. Elton inad göstərib İranda Lənkərud şəhərində qalmaqda idi. Çox güman ki, o, İngiltərəyə Volqa— Xəzər dəniz yolu ilə qayıtmaqdan ehtiyat edirdi, digər tərəfdən İran dövlətində baş verən feodal ara vuruşmaları, üsyan və qiyamlar C. Eltona qısa müddət ərzində İranda topladığı var-dövləti Fars körfəzi və ya Qara dəniz vasitəsi ilə İngiltərəyə aparmağa imkan vermirdi. Odur ki, C. Elton soyuqqanlıq göstərərək İranda qalmalı oldu. Lakin 1750-ci ildə o, sui-qəsd nəticəsində öldürüldü[478].

İ. Lerxin yazdığına görə, Nadir şahın ölümündən sonra İranda baş vermiş feodal ara vuruşmaları, özbaşınalıq, həmçinin Rusiyanın ingilisləri Volqa — Xəzər yolundan istifadə etmək hüququndan məhrum etməsi, nəhayət, ingilislərin Xəzər boyu əyalətlərdən geri dönmələri İranın ticarətinə böyük zərbə endirdi. Lakin bu zərbə əsasən ingilis tacirlərinə də dəymişdi.

Yeri gəlmişkən göstərmək lazımdır ki, ingilislərin şirkəti təsis ediləndən sonra İrana 172.623 funt-sterlinq məbləğində mal gətirilmiş və 93.375 funt-sterlinq məbləğində mal ixrac edilmişdi. Nadir şahın ölümündən sonra baş verən qarətlər nəticəsində 80.000 funt-sterlinq miqdarında mal itmişdi[479].

Bundan sonra rus gəmiləri Xəzər dənizində daha artıq fəaliyyət göstərməyə başladı. İ. Lerx rus gəmilərinin Gilana, Bakı və Dərbəndə çoxlu mal gətirdiyinin şahidi olmuşdur[480].

Beləliklə, yuxarıda şərh edilən materialların əsasında belə bir qənaətə gəlmək olar ki, XVIII əsrin birinci yarısında Xəzər dənizi ticarəti uğrunda Rusiya ilə İngiltərə arasında aparılan rəqabət, nəhayət, ingilislərin məğlubiyyəti ilə nəticələnmişdir.

---

[477] C. Hanvey. Göstərilən əsəri, I hissə, səh. 349-350.

[478] İ. Lerx. Göstərilən əsəri, səh. 12; A. Штылко. Волжско-Каспийское судоходство в старину, P. Butkov. Göstərilən əsəri, I cild, səh. 22.

[479] C. Hanvey. Göstərilən əsəri, səh. 350; P. Sayks. Göstərilən əsəri, səh. 365; C. Hanveyin yazdığına görə, ingilislərə 1744-cü ildə də böyük zərbə dəymişdi. Həmin il ingilis tacirlərinin Astrabaddan Məşhədə gedən zəngin karvanları qarət olunmuşdu. C. Hanvey. Göstərilən əsəri, II cild, səh. 108.

[480] İ. Lerx. Göstərilən əsəri, səh. 108; A. Штылко.Волжско-Каспийское судоходство в старину, səh. 47.

# NƏTİCƏ

Yuxarıda qeyd edilənlərə yekun vuraraq aşağıdakı qısa nəticəyə gəlmək olar:

1. XVIII əsrin birinci rübündə İran dövləti siyasi və iqtisadi cəhətdən tənəzzülə uğradığı bir zamanda Azərbaycanda İran hökmranlığının əsası sarsıdıldı və ölkənin hər tərəfində olduğu kimi, Azərbaycanda da İran hakimiyyətinə qarşı arası kəsilməyən xalq azadlıq hərəkatı — üsyanlar baş verdi. Həmin əsrin 20-ci illərində Azərbaycana silahlı müdaxilə edildi;

2. Azərbaycanda baş verən siyasi və ictimai hadisələr, xüsusilə Türkiyə və İranın müdaxiləsi ölkənin iqtisadiyyatına ağır zərbə vurmuş olsa da şəhərlərin əlverişli coğrafi mövqeyi, zəngin bazarları və ölkənin səxavətli təbiəti ticarətin gedişi üçün müəyyən şərait yaratmışdı. Məhz buna görə də Təbriz, Şamaxı, Gəncə, Bakı və başqa şəhərlər xarici ölkələrin qoşunları tərəfindən zəbt olunmasına baxmayaraq, ticarətdə fəal iştirak edirdi.

3. Ticarət ölkənin təsərrüfat həyatının əsas sahələrindən birini təşkil edirdi. Lakin XVIII əsrin birinci yarısında Azərbaycan vahid dövlət olmadığı üçün onun vahid iqtisadi mərkəzi — bazarı da yox idi.

4. Ticarət əsas etibarı ilə şəhərlərdə aparılırdı. Mürəkkəb vergi sistemi, çəki, ölçü və pul vahidlərinin müxtəlifliyi ticarətə mane olurdu.

5. Azərbaycanın beynəlxalq ticarət yolunda yerləşməsi, tutduğu coğrafi mövqeyi və zəngin təbii sərvəti onun xarici və tranzit ticarətdəki əhəmiyyətini xeyli yüksəltmişdi. Xam ipək Azərbaycan şəhərlərinə ən çox müştəri cəlb edən ticarət mallarının əsasını təşkil edirdi.

6. Başqa qonşu ölkələrə nisbətən Azərbaycan tacirləri Rusiya ilə daha müntəzəm ticarət edirdilər. Rusiyadan buraya əsasən hazır mallar gətirilir, Azərbaycandan isə Rusiyaya xammal ixrac edilirdi.

7. XVIII əsrin ikinci rübündə Rusiya ilə İngiltərə arasında Xəzər ticarəti uğrunda aparılan rəqabətdə Azərbaycan özünün xam ipək mənbəyi, Şərq ilə Qərb arasında tutduğu əlverişli coğrafi mövqeyi, zəngin bazarları sayəsində əsas mübarizə obyektlərindən birinə çevrilmişdi.

8. Azərbaycan - rus ticarət münasibətləri hər iki ölkənin xalqları arasında qarşılıqlı əlaqənin inkişafına və hər iki xalqın yaxınlaşmasına böyük təsir göstərmişdi.

9. XVIII əsrin birinci yarısında iqtisadi, siyasi və mədəni əlaqələrin inkişafı bütün Zaqafqaziya xalqları ilə yanaşı, Azərbaycan xalqının da Rusiya dövlətinə olan meylini daha da artırdı.

# GÖSTƏRİCİLƏR

## ŞƏXSİ ADLAR

Abbas (Şah Abbas)  15
Abdulla  (Molla Abdulla)  17
Abdulməhəmmədov Şaban 93
Abdullayev H. 6, 9
Abramov S. 68, 69, 79
Ağa Mirzə 93
Aqşin 93
Altman M. 9
Arapov 108, 109, 110, 114, 116
Aşurbəyli S. 8
Bayramov Məhərrəm 94
Bakunin 116
Bakıxanov A. 8, 18
Baskakov A. 66, 67, 68, 69

Başu 34
Bel C. 8, 31, 35, 37, 73, 100
Beneveni 7
Bleer 116
Bratişşev 7, 108, 109, 110, 113, 115
Braun 116
Bryus H. P. 38, 100
Bronevski S. 8, 99
Bruin (Korneli de Bruin) 8, 12, 13, 40
Bunyatov Z. 9
Butkov P. 19, 22, 72
Verden (fon) 70
Volınski A. P. 6, 16, 21, 43, 50, 60, 100
Vudruf 112
Vulf 116
Qaqarin P. M. 17
Qolitsin 90
Qolovkin 58, 68
Qornyakov 92
Qulamov Səfər Hacı 93
Quliyev Ə. N. 57
Qurban Əli 93
Dərgah Qulu 20
Elton S. 88, 102-116, 118
Əbdürrəhmanov A. 9, 111
Əlizadə Ə. Ə. 8, 9
Əliyev Əli 86
Əhməd 87, 93
Əfəndiyev O. 9
Jeluyev 81
Zaxarov İ. 77
Zevakin E. 9, 76, 77
Zubov P. 8, 31
İbrahim 28, 93
İbrahim (Məhəmməd İbrahim) 26, 94
İvanovna Anna 101, 102, 113
İmambəyov Qasım 94
İmanquliyev 95
İsa 94
İsayev İ. 59
İsgəndər Makedoniyalı 12

İsmayıl bəy 73
İsmayıl Əbdül Əziz 94
Yaqub 34
Yekaterina II 23
Kazıbuyski 19
Kampredon (de) 72
Kretatsi (Abram) 26
Kubyakov 87, 88
Kuk Con 36
Kukanova 57
Kuron N. 42
Kuşyeva Y. 84, 86
Levaşov V. N. 73, 74, 76
Leviatov V. N. 9, 19
Lenin V. İ. 31
Lerx İ. 8, 26, 36, 47, 57, 118
Lyubomirov P. 86
Maz 34
Malenki S. 56, 57
Matyuşkin 73, 74, 89, 100
Meyer 57
Məlik 93
Məhəmmədov R. 93
Məhəmməd 93
Məhəmməd (Qasım oğlu)
Mirons 118
Mirzə Məhəmməd Kafi 90, 92
Mixaylov 80
Mövlad Verdi 94
Məhəmmədov Mustafa Nadir 95
Musa 94
Musəvi T. 49
Mustafa 94
Nadir şah 9, 24, 39, 46, 50, 95, 118
Nemətova M. X. 9
Nyukestel 105
Ori İzrail 7, 17
Ostrouxov P. 102
Paxomov Y. A. 52
Petruşevski İ. P. 8, 9
Pyotr I 7, 11, 20, 38, 59, 68, 78, 101

Rəhmani Ə. 9
Rəcəbli Ə. 51, 52
Rza Qulu Mirzə 26, 50, 104, 105
Sadıqov Məhəmməd Əli 93
Sadıq Şirbət 74
Sam Mirzə 117
Semyonov A. 56, 57, 66
Soymonov F. 7, 70
Solovyov S. 22
Sultan Hüseyn (şah) 11, 18, 27, 36, 59, 67
Surxay xan Qazıqumuxlu 18, 19, 20, 22
Spilman C. 100
Tatişşev V. 92, 108, 111, 116
Təhmasib II 24, 117
Tomson 116
Travley (lord)
Ulyanitski V. 7, 64
Fexner M. V. 33, 34
Fəzlullabəy 58
Fətəli xan 11, 20, 67
Filip Avril 40, 41, 47
Finc E. 104, 105, 106
Fleriu 34
Xosrov (Key Xəsrov)
Hanvey C. 8, 30, 47, 100, 110, 115
Hacı İsmayıl Sarı Əhməd
Hacı Davud 39
Hacı Məhəmməd 18, 19, 20, 22
Həmid 93
Hüseyn Əli 96
Hüseynov Ə. 9
Çerkasov 96
Çerneski A. 96
Çələbi (Hacı Çələbi)
Çulkov M. 7, 8, 30, 43, 52
Cəbrail
Şaban 93, 94
Şaban (Məhəmməd Əli oğlu)
Şafirov P. P. 21
Şeyx Məhəmməd Əli Həzin 7, 2
Şərifli M. 9

Şıxməhəmmədov Səfərəli 94
Ştılko 101

**COĞRAFİ ADLAR**

Abşeron 14, 36, 98, 115
Avropa 8, 30, 69, 74, 112, 116
Ağsu 25, 39
Almaniya 54
Amsterdam 105, 115
Araz çayı
Aralıq dənizi 71
Arxangelsk 58, 82, 99
Asiya 25, 30, 37
Astara 32
Astrabad 70, 92, 99, 103
Biləsuvar 32
Britaniya 104, 105, 113, 114
Buxara 7, 103
Volqa 22, 71
Volqa—Xəzər 56, 99, 100, 116, 118
Qazaxıstan 103
Qara dəniz 33, 43, 112, 118
Qarabağ 10, 72
Qafqaz 107
Qəndahar 17
Dərbənd 33, 45, 62, 76, 94, 100, 118
Ermənistan 8, 11, 13
Ənzəli 76, 78, 92, 115
Ərdəbil 34, 43, 73, 93, 115
Ərəş 100, 104, 112
Ərzurum 38
Zaqafqaziya 22, 23, 24, 37, 67, 102, 119
İzmir 43, 112
İngiltərə 54, 75, 82, 99, 111, 119
İrəvan 15, 26, 52
İsveçrə 20, 22, 54, 56, 113
İspaniya 106
İstanbul 43, 75
İsfahan 20, 22, 37, 43, 53, 68, 70
Kazan 59, 101, 106

Keskərə 44, 45
Kəsmə 44, 45
Kür çayı 24, 21, 79
Gədəbəy 86
Gəncə 9, 18, 25, 40, 52, 79, 85, 99,
Gilan 6, 24, 47, 59, 61, 74, 76, 87,
Gürcüstan 74
Laşemadan 44
Leninqrad 5, 55
Lənkəran 34, 43, 55, 92, 94, 100
London 102, 105, 110, 116
Mazandaran 63, 76, 87, 114
Mərənd 33
Məşhəd 104
Midiya 37
Moskva 5, 38, 55, 58, 84, 88, 105
Muğan 21, 26, 100
Naxçıvan 10, 26, 33, 43, 52
Nizabad (Niyazabad) 20, 60, 70,
Nijni Novqorod 101
Peterburq 7, 14, 20, 58, 65, 73, 88, 90, 104
Polşa 38, 54, 75
Rəşt 24, 34, 44, 70, 103, 118
Salyan 6, 21, 78
Soruf 45
Sultaniyə 20
Tatarıstan 43
Terek 75
Təbriz 10, 20, 34, 49, 52, 75, 83, 95, 99
Tiflis 70
Trabzon 42
Türkiyə 4, 22, 38, 59, 68, 104. 119 119
Ukrayna 74
Fransa 54, 72, 75, 106
Xəzər dənizi 4, 22, 36, 56, 69, 70, 85, 92, 100
Xivə 7
Xudat 19
Hələb 37, 43, 112
Həmədan 27
Həştərxan 4, 20, 33, 57, 73, 80, 90, 101, 116
Hindistan 26, 42, 51, 71, 80, 102

Hollandiya 54, 75, 82
Çin 102, 104
Culfa 33, 59, 61, 71
Şamaxı 5, 10, 22, 39, 40, 50, 62, 79, 85, 107
Şəki 26, 99, 111
Şirvan 10, 14, 26, 39, 68, 71, 90, 100, 112

## QƏBUL OLUNMUŞ İXTİSARLAR

АВПР — Архив внешней политики России.
АКАК - Акты Кавказской Археологической Комиссии. Изданы под ред. А. П. Берже, т. II, дополнение к I тому, Тифлис.
ГААО — Государственный архив Астраханской области.
ДАН — Доклады АН Азербайджанской ССР.
ЖМВД - Журнал Министерства Внутренних Дел.
НАИИ — Научный архив Института истории АН Азерб. ССР.
ПСЗРИ — Полное собрание законов Россиискoй империи, тт., V—VII, СПб.
TİEA – Azərbaycan SSR EA Tarix İnstitutunun elmi arxivi.
СИРИО — Сборник Императорского Российского исторического общества, т. 49, СПб.
ЦГАДА — Центральный государственный архив древних актов.

## MÜNDƏRİCAT

Giriş

**I FƏSİL**

XVIII əsrin birinci yarısında Azərbaycanda vəziyyət

**II FƏSİL**

Daxili ticarət

**III FƏSİL**

Xarici və tranzit ticarət

**IV fəsil**

Xəzər ticarəti uğrunda Rusiya ilə İngiltərə rəqabəti və Azərbaycan

Nəticə

Göstəricilər

Фуад Мамед Багир оглы Алиев
ТОРГОВЛЯ АЗЕРБАЙДЖАНА В ПЕРВОЙ ПОЛОВИНЕ XVIII ВЕКА
(на азербайджанском языке)

Nəşriyyat redaktoru **R. Kərimova**
Texniki redaktoru **X. Cəfərov**
Korrektoru **M. Natiqə**

Çapa imzalanmış 10/VI 1964-cü il. Kağız formatı 60x92. Kağız vərəqi 3,88. Çap vərəqi 7,75. Hes.-nəşriyyat vərəqi 8,40. FQ 08125. Sifariş 210. Tirajı 700. Qiyməti 85 qəp.

Azərb. SSR Nazirlər Soveti Dövlət Mətbuat Komitəsinin «Elm» mətbəəsi. Bakı, Fəhlə prospekti, 96.